Xalqın qəzeti!

# Xalq qəzeti

№ 75 (30479) 16 aprel 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Azərbaycan dünyanın cəlbedici investisiya ölkəsidir

Səhifə ⇨ 9

## Azərbaycan – beynəlxalq ziddiyyətlər fonunda sabitlik adası

### Prezident İlham Əliyevin apardığı siyasət ölkəmizi qlobal risklərdən sığortalayır

**İran – İsrail hərbi qarşıdurması başa çatmış kimi görünür. Maraqlıdır ki, hər iki tərəf öz məqsədinə çatdığını bəyan edir. Söhbət hansı məqsəddən gedir, rəsmi qaydada açıqlananlar ağlabatan deyil. Hər halda, əlahəzrət tarix nələrin yaşandığını ortaya qoyub, bu qarşıdurma üçün də ad tapacaq. Hələlik isə yalnız onu demək olar ki, Tehran – Tel-Əviv qarşıdurması bəzi həqiqətləri ortaya çıxarıb. Yazımızda bu həqiqətlər fonunda Azərbaycanın durumuna, Cənubi Qafqazdakı vəziyyətə nəzər salmağa çalışacağıq.**



Başlayaq ondan ki, İran–İsrail müharibəsi beynəlxalq aləmdəki düzənin çox ciddi şəkildə pozulmağa meyilli olduğunu göstərdi. Belə bir həqiqət ortaya çıxdı: artıq dünya əvvəlki kimi təhlükəsiz deyil. Əslində, hazırda davam edən Rusiya – Ukrayna müharibəsinə nəzərən də oxşar fikirlər səsləndirmək mümkündür. Moskva – Kiyev hərbi qarşıdurması bir çox məsələlərə təsir göstərir və bu təsirin getdikcə artacağı, arealının genişlənəcəyi şübhəsizdir. Çünki müharibə bitmək bilmir.

İndi, faktiki olaraq, ABŞ və Qərb dövlətləri Rusiyaya qarşı döyüşürlər. Nəzərə alsaq ki, beynəlxalq aləmin anti-İran köklənişi aktualdır, o zaman Tehran–Tel-Əviv qarşıdurmasını daha böyük müharibənin məşqi kimi də qiymətləndirmək mümkündür. İran isə Azərbaycanın cənub qonşusudur. Deməli, onun başı üzərində əsən müharibə küləklərinin ölkəmizə təsiri məsələsi aktualdır. Ancaq ortada bir mənzərə var – dünyanın sabitlik və təhlükəsizlik adası olan Azərbaycanın mənzərəsi. Yəni, sülhün, firavanlığın və əminamanlığın ünvanına çevrilmiş Azərbaycan obrazı diqqətdən yayına bilməz.

(ardı 3-cü səhifədə)

## Şəhid Xocalı, gözün aydın – biz qayıtdıq!




### *Gəlmişik ki, səni kül içindən dirçəldib əbədi yurd yerinə çevirək*

**Haqqın bükülməz dizi, dönməz üzü 31 ildən sonra zülmün top-tüfəngini, qanlı-qadalı çevrələrini aşıb xalqımızı şəhid Xocalıya qovuşdurdu. Biz bu günün gələcəyinə inamımızı heç vaxt itirmədik. Haqq bizim tərəfimizdə idi. Minillərdən bəri bizim türk babalarımız bu cənnətmisal torpaqları qoruyub, yaşadıb bizə Vətən etmişlər. Vətən isə xalqın əzəli-əbədi və ümumi evidir. Kim öz evini onun qəsdinə durmuş yağının, doğmalarının qatillərinin tapdağında qoya bilərdi?**

Bu məntiq, bu inam 32 ildən sonra xalqımızı düşmənin oda qalayıb yer üzündən sildiyi, dinc insanların kütləvi surətdə, misilsiz işgəncələrlə qətlə yetirildiyi Xocalıya qaytardı. Prezident İlham Əliyev də bu il fevralın 26-da Xocalı şəhərində Soyqırımı Memorialının təməlqoyma mərasimində rayon ictimaiyyətinin nümayəndələrinə məhz bu inamın müqəddəsliyini və yenilməzliyini xatırladaraq bildirdi: "Sizin kimi mən də inanırdım və bilirdim, biz buraya qayıdacağıq, Xocalıya qayıdacağıq və burada günahsız qurbanların xatirəsini əbədiləşdirmək üçün memorial kompleks yaradılacaq. 32 ildən sonra siz qayıtmısınız".

Xocalı sakinləri isə bildirdilər ki, faciə ərəfəsində onların taleyinə bağışlanılmaz biganəliyin yaratdığı dərin ümidsizlikdən sonra 1996-cı il fevralın 24-də ümummilli lider Heydər Əliyevlə görüş şəhərin sağ qalmış sakinlərində doğma yurda qayıdacaqlarına böyük inam yaratdı. Elə buna görə də onlar arzu etdilər ki, dirçəldilən şəhərin ən görkəmli yerində xocalılara bu inamı qaytarmış Ulu öndərin abidəsi ucaldılsın.

(ardı 7-ci səhifədə)

## Hansı "qara daş"ı qaldırsan, altından Fransa boylanacaq

### *"Qara qitə"də, Asiyada, Qafqazda üzünə qapılar bağlanan Makronun terroru dəstəkləməsi onu iflasa aparır*



**Moskva vilayətinin Krasnoqorsk şəhərində törədilən dəhşətli terror aktı dünya mediasının gündəmindən hələ də düşməyib. 144 ölü, 511 yaralı. Bu, Rusiya İstintaq İdarəsinin "Crocus City Hall"da törədilən terrorun qurbanları ilə bağlı yaydığı son statistikadır. Martın 22-də silahlı dörd nəfər kompleksin konsert salonunda əyləşmiş tamaşaçılara atəş açıb, amfiteatrda yanğın törədiblər.**

Bu terror aktını sifariş verənlərin kimliyi, əsl məqsədlərinin nədən ibarət olması ətrafında diskussiya davam edir, müxtəlif versiyalar irəli sürülür. Aydın məsələdir ki, beynəlxalq rezonans doğuran belə genişmiqyaslı terror aktını hansısa radikal qrupun "özfəaliyyəti" kimi dəyərləndirmək sadəlövhlük olardı.

(ardı 4-cü səhifədə)

## Regional inkişafın davamlı uğurları





**Azərbaycanda 2004-cü ildən indiyədək uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına müsbət təsir göstərib, bununla da ölkəmizin strateji inkişaf hədəflərinə nail olunmasına əhəmiyyətli töhfə verib.**

Regional proqramların uğurla icrası dövründə kənd və qəsəbələrin, şəhərlərin siması köklü şəkildə dəyişib, əhalinin paytaxta axını səngiyərək əks proses başlayıb, rayonlarda işləməyə və yaşamağa üstünlük verənlərin sayı getdikcə artıb.

(ardı 9-cu səhifədə)

## Azərbaycan qlobal iqlim təhlükəsi ilə mübarizənin ön cəbhəsidir

Səhifə ⇨ 12–13

## Səkkiz oğulun "gizli cəbhə"də hünər dastanı

### Şəhid kəşfiyyatçıların anım mərasimi – ehtiram və öyünc dərsi



**1997-ci il aprelin 7-də ordumuzun iki kəşfiyyat qrupu xüsusi tapşırıqla işğal altında olan torpaqlarımıza göndərilir. Qruplar tapşırığı uğurla yerinə yetirirlər. Birinci qrup sağ-salamat geri qayıdır. Lakin düşmən ikinci qrupu aşkarlaya bilir. Kəşfiyyat qrupu işğalçı Ermənistan ordusunun bölmələri tərəfindən Xocavənd rayonunun Hadrut qəsəbəsi yaxınlığında mühasirəyə alınır. Onlardan təslim olmağı tələb edirlər. Tələb kəşfiyyatçılarımız tərəfindən rədd edildikdən sonra ağır döyüş başlanır.**

(ardı 8-ci səhifədə)

PARIS 2024

## Milli idmanda tarixi uğur

### *Qadın basketbolçularımız ilk Olimpiya komandasıdır*

**Paris Yay Olimpiya Oyunlarında ölkəmiz ilk dəfə olaraq komanda idman növündə təmsil olunacaq. Bu tarixi uğura 3x3 basketbol üzrə qadınlardan ibarət milli komandamız imza atıb.**

(ardı 14-cü səhifədə)

## Yaxın Şərqdə gərginliyin "barometri" böhran həddində

Səhifə ⇨ 11



## “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1098-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2010-cu il 1 oktyabr tarixli 331 nömrəli və “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2011-ci il 24 noyabr tarixli 537 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1098-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun 14.0.4-cü və 19-1.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin Qanunun 19-1.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirir;

1.3. həmin Qanunun 19-1.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.4. həmin Qanunun 11.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun 14.0.4-cü maddəsinə uyğun olaraq, məişət zorakılığından zərər çəkmiş şəxslərin dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. həmin Qanunun 19-1.2-ci maddəsinə uyğun olaraq, məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1098-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 1 oktyabr tarixli 331 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 843 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.2-ci bəndə “cümləsində,” sözündən sonra “14.0.4-cü,” sözləri, “18.3-cü” sözlərindən sonra “, 19-1.2-ci” sözləri əlavə olunsun və həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 2.3 – 2.6-cı bəndlər əlavə edilsin:

“2.3. həmin Qanunun 7.0.1-ci maddəsində, 19.1-ci maddəsinin birinci cümləsində və 19.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

2.4. həmin Qanunun 17.3-cü maddəsinin birinci cümləsində, 18.1-ci, 18.4-cü, 18.5-ci və 19-1.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirir;

2.5. həmin Qanunun 19-1.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.6. həmin Qanunun 5.2-ci maddəsinin birinci cümləsində və 6.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının, 7.0.8-ci, 11.1-ci maddələrində, 11.2-ci maddəsinin birinci cümləsində və 12.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.”.

**4.** “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 24 noyabr tarixli 537 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1009 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bənd ləğv edilsin;

4.2. 1.2-ci bənd üzrə:

4.2.1. 1.2.6-cı yarımbəndə “Nazirliyi” sözündən sonra “(uşağın valideynlərdən (onlardan birindən) və ya onu qəyyumluğa (himayəyə) götürmüş şəxslərdən təcili olaraq alınması istisna olmaqla)” sözləri əlavə edilsin;

4.2.2. aşağıdakı məzmunda 1.2.6-1-ci yarımbənd əlavə edilsin:

“1.2.6-1. 8.0.12-1-ci maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları;”;

4.3. 1.3-cü bənd üzrə:

4.3.1. 1.3.6-cı yarımbənddə “maddəsində” sözü “və 14.0.6-1-ci maddələrində” sözləri ilə və “vəzifəni” sözü “vəzifələri” sözü ilə əvəz edilsin;

4.3.2. 1.3.8-ci yarımbənddə “maddəsində” sözü “və 16.2.4-1-ci maddələrində” sözləri ilə və “vəzifəni” sözü “vəzifələri” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 aprel 2024-cü il**

## “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 1-ci hissəsində “158.1, 158.2” rəqəmləri “158.1 – 158.2-1” rəqəmləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 aprel 2024-cü il**

## “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1098-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1098-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 670 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 8.11-1-ci bənd əlavə edilsin:

“8.11-1. məişət zorakılığının qarşısının alınması sahəsində qanunla müəyyən edilmiş tədbirlər görmək;”.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542 (Cild I) ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 4.6.2-1-ci yarımbənd əlavə edilsin:

“4.6.2-1. müvafiq ərazidə məişət zorakılığının qarşısının alınması sahəsində qanunla müəyyən edilmiş tədbirlər görmək;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 aprel 2024-cü il**

## Slovakiya Respublikasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Peter Pelleqriniyə

**Hörmətli cənab Pelleqrini!**

Slovakiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Slovakiya ilə dostluq əlaqələrimizin inkişafı bizim üçün böyük önəm kəsb edir. Hazırda Azərbaycan–Slovakiya əməkdaşlığının müxtəlif sahələrdə yeni məzmunla zənginləşdirilməsi üçün yaxşı imkanlar mövcuddur. Keçən ildən ölkəmizin Bratislavada fəaliyyətə başlamış Səfirliyinin ikitərəfli münasibətlərimizin genişləndirilməsinə töhfə verəcəyinə inanıram.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Slovakiya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 aprel 2024-cü il**

## Qarabağ suvarma kanalının yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Ölkəmizin ən böyük magistral suvarma kanalı olan Yuxarı Qarabağ kanalı Qarabağ zonası və ona yaxın ərazilərdə yerləşən 9 rayonun 115 min hektaradək əkin sahəsini suvarma suyu ilə və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir, habelə Araz çayı üzərindəki Bəhrəmtəpə hidroqovşağına əlavə su ötürməklə müvafiq əkin sahələrinin su təminatına dəstək verir.

Son dövr qlobal iqlim dəyişmələrinin təsirlərinin artdığı şəraitdə məhdud su ehtiyatlarına malik ölkəmizdə su təminatının mühüm həlqələrindən olan Yuxarı Qarabağ suvarma kanalında yüksək su itkilərinin qarşısının alınması, suvarma suyu ilə təminatda yaranan çatışmazlıqların aradan qaldırılması, həmçinin torpaqların meliorativ və ətraf ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün sözügedən kanalın yenidən qurulması tələb olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qarabağ zonası və ona yaxın ərazilərdə su təchizatı infrastrukturunun müasirləşdirilməsi, su itkilərinin azaldılması və meliorasiya olunmuş torpaq sahələrinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

**1.** Yuxarı Qarabağ suvarma kanalı yenidən qurulsun və Qarabağ suvarma kanalı adlandırılsın.

**2.** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Qarabağ suvarma kanalının yenidən qurulması üçün texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması ilə bağlı müvafiq tədbirlər görülməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Mingəçevir və Yevlax şəhər icra hakimiyyətləri, Goranboy, Bərdə, Tərtər, Ağcabədi, Ağdam, Beyləqan və İmişli rayon icra hakimiyyətləri, həmçinin digər aidiyyəti dövlət orqanları (qurumları) Qarabağ suvarma kanalının yenidən qurulması üzrə texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanmasından irəli gələn məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görsünlər.

**4.** “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya bu Sərəncamın 2-ci və 3-cü hissələrində nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən suvarma kanalının yenidən qurulması üzrə texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması işlərinin cari və növbəti illərdə maliyyələşdirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər görsünlər.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 aprel 2024-cü il**

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” hesabında Ramazan bayramı ilə bağlı paylaşım edib.**




Paylaşımda deyilir: “İnsanların qəlbini və düşüncəsini nurlandıran, onları xoş əməllərə dəvət edən müqəddəs Ramazan ayının başa çatması münasibətilə Azərbaycan xalqını və dünya müsəlmanlarını səmimi-qəlbdən təbrik edirəm! Bu mübarək bayram günlərində xeyirxah niyyətlərinizlə həmrəy olduğumu bildirirəm. Uca Allah etdiyiniz duaları, tutduğunuz orucu qəbul etsin! Ramazan bayramınız mübarək!”.

# Ölkəmizin xarici işlər naziri Özbəkistan Prezidenti ilə görüşüb



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Özbəkistan Respublikasına işgüzar səfəri çərçivəsində aprelin 15-də Prezident Şavkat Mirziyoyevlə görüşüb.**

Görüşdə nazir Ceyhun Bayramov tarixi, mədəni və dini ortaqlıqları bölüşdüyümüz qardaş Özbəkistan Respublikası ilə ölkəmiz arasında formalaşmış strateji tərəfdaşlıq münasibətlərinin nümunəvi xarakterə malik olduğunu bildirib.

Ölkələrimiz arasında siyasi, iqtisadi, ticarət, nəqliyyat və kommunikasiyalar, mədəniyyət, humanitar və digər sahələr üzrə çoxşaxəli münasibətlərin məzmunca zənginləşməsinin məmnunluq doğurduğunu vurğulayıb.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə ölkəmiz üçün prioritet istiqamətlərdən birini təşkil edən Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyə əsaslanan əməkdaşlığın genişləndirilməsinin zəruriliyi qeyd olunub.

Cari ildə ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyi, bu istiqamətdə birgə tədbirlərin həyata keçirilməsində əməkdaşlığa hazır olduğumuz diqqətə çatdırılıb.

Görüşdə, həmçinin iki ölkə arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran digər məsələlər, habelə postmünaqişə dövründə regional vəziyyət müzakirə olunub.

# Azərbaycan – beynəlxalq ziddiyyətlər fonunda sabitlik adası

(Əvvəli 1-ci səhifədə)

Əlbəttə, Azərbaycan obrazı fərqlidir. Daha doğrusu, özünəməxsusdur. Durumu Prezident İlham Əliyev ötən il dekabrın 6-da ADA Universitetində keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" forumunda mükəmməl təsvir edib: "Biz sülhü müharibə ilə gətirdik. Düşünürəm ki, bu, Qafqazda lokal vəziyyətdən daha geniş şəkildə qiymətləndirilməli olan bir məsələdir. Hərbi yolla sülhə necə nail olmaq olar? Uzun illər danışıqlar və işğal zamanı mən Minsk qrupunun həmsədrlərindən eşidirdim, onlardan üçü bir ağızdan qeyd edirdilər ki, münaqişənin hərbi yolla həlli yoxdur. Belə məlum oldu ki, onların hər üçü səhv edirdi".

Bəli, Azərbaycan sülhü müharibə ilə yaratmış ölkədir və fərqimiz, özünəməxsusluğumuz məhz bundadır. Hazırda dünyada yaşanan bitib-tükənmək bilməyən qarşıdurmalar fonunda ölkəmizin reallaşdırdığı missiya, həm də təhlükəsizlik və sabitlik təminatıdır. Axı indiki qlobal qarşıdurmalar şəraitində torpaqlarımızın işğal altında qalması, istər-istəməz, başqa situasiyaların yaşanmasına yol aça bilərdi. Deməli, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası, necə deyərlər, göydəndüşmədir. Deməli, nəyi necə və nə vaxt etməyi hamıdan yaxşı bilən Prezident İlham Əliyev bütün prosesləri zərgər dəqiqliyi ilə hesablayıb. Onun hesablaması Azərbaycanın hazırkı duruma adekvat reaksiyasının mövcudluğu barədə qəti fikir bildirmək üçün əsasdır. Nəzərə alaq ki, Cənubi Qafqaz siyasi akvatoriyası kifayət qədər mürəkkəb məkandır.

Hazırda Azərbaycan – Ermənistan münasibətlərinin nizamlaması kontekstində yaşanan proseslər Cənubi Qafqazın mürəkkəblik formulunu vurğulayır. Mövcud platforma dünyanın yenidən bölünməsində, ayırıcı xətlərin müəyyənləşdirməsində başlıca halqa rolunu oynayır. Daha bir özünəməxsusluq isə budur ki, Azərbaycan prosesdə diktə edən, hesablaşılan tərəfdir. Məhz təhlükəsizlik təminatı baxımından əminlik uzunmüddətli inkişaf strategiyasının ayrı-ayrı qütblərini nəzərdən keçirməyimizə imkan yaradır.

Prezident İlham Əliyev haqqında söz açdığımız forumdakı çıxışında diqqəti dünyadakı yeni vəziyyəti proqnozlaşdırmağın mümkünsüzlüyü üzərinə gətirmiş və bildirmişdi ki, Azərbaycan və digər ölkələr Rusiya – Qərb geosiyasi qarşıdurmasının nə ilə nəticələnəcəyini bilmirlər. "Bu səbəbdən regionumuzda, Qafqazda vəziyyəti, Mərkəzi Asiya ölkələrinin sərhədləri boyu, xüsusilə də Əfqanıstandakı vəziyyəti nəzərə aldıqda təhlükəsizlik mövzusu başlıca prioritet olmalıdır. Münaqişə səbəbindən son 20-25 il ərzində bizim üçün bu, prioritet idi. Biz anlayırdıq ki, bu, sülh yolu ilə mümkün olmasa, bunu hərbi yolla həll edəcəyik", – deyən Azərbaycanın lideri əlavə etmişdi ki, böyük potensiala və geniş coğrafiyaya malik ölkəmizin nəhəng enerji ehtiyatları milli təhlükəsizlik məsələsidir, mövcudluğun, müstəqil yaşayışın mənbəyidir. Dövlətimizin başçısı, eyni zamanda, Azərbaycanın qərarlaşdığı coğrafiyanın Avropadan Şərqi Asiyaya qədər uzanan ərazini əhatə etdiyini vurğulayaraq, belə bir üstünlüyün infrastruktur layihələrin gerçəkləşdirilməsinə zəmin formalaşdırdığını önə çəkmiş, fikirlərini geniş şəkildə izah edərək, ritorik sual səsləndirmişdi: "Şərq–Qərb marşrutu boyu dostluq mühiti var, niyə səylərimizi səfərbər etməyək ki?"

Göründüyü kimi, Azərbaycan özünün təhlükəsizlik təminatının gətirdiyi faydanı ümumbəşəri mənfəətə çevirməkdə israrlıdır. Lakin ölkəmizin iradəsinə qarşı çıxmaq cəhdlərini görürük. Daha doğrusu, hazırda Cənubi Qafqazın da döyüş arenasına çevrilməsi planlarının işə salındığı müşahidə olunur. Rəsmi İrəvandan isə bu "planlarda" alət kimi istifadə edilir. Ermənistanda Avropa İttifaqının missiyasının fəaliyyəti fonunda aprelin 5-də Brüsseldə reallaşmış ABŞ – Avropa İttifaqı – Ermənistan üçtərəfli formatını, Azərbaycanın, Türkiyənin Rusiyanın həmin formata sərt reaksiyasını görürük. İranın susqunluğunu da həmçinin. Mənzərəyə İran–İsrail "qəribə müharibə"sini əlavə etsək, əvvəldə vurğuladığımız fikri təkrarlaya və faktiki olaraq, Üçüncü dünya müharibəsinin başlandığını söyləyə bilərik. Yəni, hadisələrin Azərbaycanın şimal, cənub və qərb qonşularının iştirakı ilə baş verdiyi ortadadır.

Bəli, bütün bunlara nəzərən Azərbaycan Cənubi Qafqazda həyata keçirilməsinə cəhd göstərilən planlara qarşı qəti mövqeyini bildirir. Bu, ölkəmizi regionda sabitləşdirici faktora çevirir. Ermənistandan fərqli olaraq, Azərbaycan milli birlik və həmrəylik şəraitində yalnız özünün dövlət maraqlarından çıxış edir, mənafeyindən qaynaqlanan prinsipləri rəhbər tutur. Belə yanaşma beynəlxalq birlik tərəfindən müsbət qarşılanır. Ona görə də rəsmi İrəvanın və onun xaricdəki havadarlarının təhriklərinə, neqativ təbliğatına baxmayaraq, dünyada Azərbaycana münasibətdə müsbət dinamika müşahidə olunur.

Azərbaycanın prinsipial mövqeyinin nəticəsidir ki, bu gün ölkəmiz hətta ermənipərəst dəst-xətti ilə seçilən Aİ üçün də geoiqtisadi və geosiyasi cəhətdən əhəmiyyət kəsb edir. Aİ Azərbaycanın əsas ticarət tərəfdaşı, ölkəmiz isə qurumun mühüm enerji təchizatçısıdır. Üstəlik, mövcud istiqamətdə daha irəliyə getmək üçün planlar var. Heç şübhəsiz, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində, Azərbaycan həmin planların da gerçəkləşməsinə nail olacaq, qlobal ziddiyyətlər burulğanında nəinki təhlükəsizliyini qoruyacaq, eyni zamanda, özünün təhlükəsizlik alətlərinin sayını artıracaq, sabitlik adası imicini bir qədər də möhkəmləndirəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ceyhun Bayramov Mərkəzi Asiya ölkələri nazirlərinin iclasında



**Aprelin 15-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Özbəkistana işgüzar səfəri çərçivəsində Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ilə Mərkəzi Asiya ölkələri arasında Strateji Dialoqun ikinci nazirlər iclasında fəxri qonaq qismində iştirak edib.**

Ceyhun Bayramov Azərbaycanın qardaş Mərkəzi Asiya və KƏŞ ölkələri ilə ortaq tarixi, mədəni irsinin müxtəlif, həmçinin siyasi, iqtisadi, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, nəqliyyat və digər istiqamətlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün əhəmiyyətli rol oynadığını diqqətə çatdırıb.

Bu il ölkəmizin ev sahibliyi edəcəyi COP29-a hazırlıq işləri barədə məlumat verən Ceyhun Bayramov Qoşulmama Hərəkatına sədrliyimiz dövründəki kimi, "Qlobal Şimal" ilə "Qlobal Cənub" arasında əməkdaşlığın genişləndirilməsinin yenə də əsas prioritetlərimizdən biri olduğunu bildirib.

Ceyhun Bayramov... çatdırıb. Beynəlxalq hüquqa, region dövlətlərinin suverenliyinə və ərazi bütövlüyünə hörmətin əhəmiyyəti vurğulanıb.

Sonda strateji dialoq üzvlərinin birgə bəyanatı qəbul olunub.

***

**Xarici İşlər naziri Ceyhun Bayramov Özbəkistana səfəri çərçivəsində Oman Sultanlığının Xarici İşlər naziri Bədr Əlbusaidi ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Oman arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsi, gündəlikdə duran məsələlər və iqtisadi-ticarət, energetika, turizm, su ehtiyatlarının idarə olunması, səhiyyə və digər sahələr üzrə əməkdaşlığın inkişafı perspektivləri müzakirə edilib.



Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhlükəsi, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinin gedişatı barədə ətraflı məlumat verən nazir Ceyhun Bayramov ölkəmizin bölgədə sülh və quruculuq istiqamətində səylərinə Ermənistan tərəfindən qarşılıq göstərilməsinin vacibliyini vurğulayıb.

Ceyhun Bayramov, eyni zamanda, ölkəmizin Yaxın Şərqdə gedən prosesləri yaxından izlədiyini və gərginlik coğrafiyasının daha da genişlənməsi riskindən ciddi şəkildə narahatlığı diqqətə çatdırıb. Beynəlxalq hüquqa, region dövlətlərinin suverenliyinə və ərazi bütövlüyünə hörmətin əhəmiyyəti vurğulanıb.

Ölkələrimiz arasında siyasi məsləhətləşmələrin davam etdirilməsinin və yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsinin münasibətlərin daha da inkişafı baxımından əhəmiyyətli olduğu vurğulanıb. Bununla yanaşı, Omanda səfirliyimizin təsis edilməsi qərarının münasibətlərə əlavə təkan verəcəyi vurğulanıb.

Görüşdə, həmçinin digər ikitərəfli və regional məsələlər barədə fikir mübadiləsi aparılıb.

***XQ***

# Ermənistanın son etirafı – Azərbaycanın növbəti uğuru

## İrəvan yeni geosiyasi reallıqları nə qədər tez qəbul etsə, bir o qədər çox qazanar

**Ermənistan etiraf etdi, atəşkəsi pozduğunu, azərbaycanlı sərhədçini yaraladığını boynuna aldı. İrəvanın bu etirafı Azərbaycanın uğurudur, həm də onun göstəricisidir ki, kənar müdaxilələr olmasa, iki qonşu ölkə öz problemlərini həll edə bilər.**



İkinci Qarabağ müharibəsində qalib gələrək, ərazi bütövlüyünü bərpa edən Azərbaycan regionda möhkəm sülhün bərqərar olması üçün fəal siyasət yürüdür. Beynəlxalq ictimaiyyət də Bakının sülh gündəliyindən xəbərdardır. Otuz il ərazisinin işğal altında qalmasına baxmayaraq, Azərbaycan hazırda iki xalq arasındakı düşmənçilik səhifəsini bağlamağın vacibliyini önə çəkir. Lakin Qərbin, xüsusilə də Fransanın təhriki ilə Ermənistan sülh prosesinin pozulmasına yönəlik addımlar atır. İstər siyasi, istərsə hərbi müstəvidə də təxribatlara yol verir. Diplomatik səylərini sülh müqaviləsinin imzalanmasının uzadılmasına istiqamətləndirmiş İrəvan Azərbaycan mövqelərinə də atəş açır. Avropa İttifaqının missiyasının arxasında gizlənən Hayastan ordumuzun mövqelərini mütəmadi atəşə tutur və günahı Azərbaycan tərəfinin üstünə atmağa çalışır. Bakını hərbi təcavüzdə ittiham etməyə can atan İrəvan ölkəmizə qarşı qarayaxma kampaniyası aparmaqdan usanmır.

Lakin bu günlərdə şərti sərhəd zonasında baş vermiş hərbi insident Ermənistanı etirafa məcbur etdi. Xatırladaq ki, aprelin 10-da, saat 15:20 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) sərhəd qoşunlarının "Qubadlı" əlahiddə sərhəd diviziyasının Cicimli yaşayış məntəqəsinin ərazisindəki sərhəd döyüş məntəqəsinin xidməti ərazisində Ermənistanın Nerkin Xnzoresk kəndi istiqamətindən 2 nəfərin dövlət sərhədini pozaraq 200 baş mal-qaranı, təxminən, 300 metr Azərbaycan ərazisinə keçirməsi aşkar olunmuşdu. DSX-nin Mətbuat Mərkəzindən bildirilmişdi ki, dövlət sərhədinin pozulmasının qarşısını alan sərhəd naryadına Ermənistan silahlı qüvvələrinin döyüş postundan atəş açılmış və nəticədə baş leytenant Rövşən Məmmədov yaralanmışdı. Təxribatın Ermənistan tərəfindən edildiyi məlum idi. Ancaq Azərbaycan cəza tədbirlərinə əl atmadı, İrəvanın hadisəni araşdırmasını və nəticəsini açıqlamasını gözlədi. Ölkəmizin öz hərbi qulluqçularının atəşə tutulmasına necə cavab verə biləcəyi Ermənistan tərəfinə çox yaxşı məlum idi.

Ermənistan Bakının təmkinli davranışını anladı. Hadisəni araşdıran rəsmi İrəvan Azərbaycan hərbçisinin məhz erməni əsgəri tərəfindən yaralandığını açıqladı. Ermənisan İstintaq Komitəsi cinayət işinin başlandığını və günahkarların məsuliyyətə cəlb ediləcəyini bildirdi. Bütövlükdə, bu faktı müsbət qiymətləndirmək olar, çünki Ermənistanın hərbi-siyasi rəhbərliyi bu dəfə şərti sərhəddə növbəti silahlı insidentdə Azərbaycanı günahlandırmadı. Normal məntiqə uyğun addımlar atıldı, ümid edək ki, günahkarlar da layiqli cəzalarını alacaqlar. Bundan sonra, Azərbaycana atəş açmaq istəyən hər hansı erməni təxribatçı aydın başa düşəcək ki, qarşısındakı posta atəş açsa, cinayət məsuliyyətindən qaça bilməyəcək.

Təbii ki, Azərbaycan – Ermənistan şərti sərhədində baş verən bütün insidentlərin bilavasitə iştirakçıları ilə yanaşı, İrəvanda revanşist əhval-ruhiyyəni alovlandıran silahlı təxribatlarda regiondankənar qüvvələr də az rol oynamırlar. Söhbət, ilk növbədə, uzun müddət öz təxribat hərəkətləri ilə Ermənistana hər cür diplomatik, iqtisadi və son zamanlar hərbi dəstək verən, iki ölkə arasında sülhün əldə edilməsi perspektivlərinə xələl gətirən Fransadan gedir. Paris regionda sülhü qorumaq əvəzinə 30 ilə yaxın Azərbaycan ərazilərini işğal altında saxlayan Ermənistanı silah və sursatla təmin edir. Fransa Ermənistanda hərbi missiyasını yerləşdirir, İrəvanı növbəti müharibəyə təhrik edir, Cənubi Qafqazı döyüş meydanına çevirmək planını həyata keçirməyə çalışır. Ancaq faktiki olaraq fransızlar Ermənistana qarşı işləyirlər, çünki onlar erməni xalqını növbəti münaqişəyə sövq edirlər. Amma Parisdə də yaxşı anlayırlar ki, Azərbaycanı Qərbin geosiyasi oyunlarına cəlb edə bilməyəcək, Ermənistandan fərqli olaraq Bakı ancaq milli maraqlarına uyğun siyasət yürüdəcək.

Belə demək olar ki, bu gün İrəvanda sağlam düşüncə qalib gəldi. Ermənilər bu dəfə kənar qüvvələrin təhrikinə boyun əyməyərək, düzgün addım atdılar. Çünki təcrübə göstərir ki, üçüncü tərəfin müdaxiləsi olmadan ölkələrimiz arasında bir çox məsələləri normal şəkildə həll etmək mümkündür və bunu təsdiqləyən sübutlar da var. Məsələn, həbsdə olan hərbçilərin mübadiləsi, beynəlxalq tədbirlərin keçirilməsi məsələsində Bakı və İrəvanın namizədliklərinin qarşılıqlı dəstəklənməsi və s. Ümid edək ki, İrəvan qeyri-region təhrikçilərin mənafeyinə deyil, öz ölkələrinin maraqlarına uyğun düzgün qərarlar verməkdə davam edəcək. Ermənistan nə qədər tez yeni geosiyasi reallıqları qəbul etsə, bir o qədər özü üçün sərfəlidir.

***M.SƏBUHİ***
***XQ***

# Cənubi Qafqaz: geosiyasi təsirlər fonunda

II məqalə

### Üçüncü istiqamət: Türkiyənin konstruktiv təsiri

Hər hansı regiona kənar güclərin təsirləri artanda yerli dövlətlərin hansı mövqe tutmalarının əhəmiyyətini I məqalədə vurğulamışıq. Cənubi Qafqazda hazırda milli maraqlarına görə böyük güclərin mənafeyini balanslaşdıran yeganə dövlət Azərbaycandır. Bu regionda təhlükəsizliklə bağlı istənilən geosiyasi konfiqurasiya Azərbaycansız mümkün deyildir. Həm də ona görə ki, Bakı regional təhlükəsizliklə bağlı "3+3" formulunun təşəbbüskarıdır. Deməli, bu gün Cənubi Qafqazda geosiyasi yer tutmaq istəyən qüvvələr vəziyyətə həmin formulun kontekstindən baxmalıdırlar. Bu təhlükəsizlik formulunun şərtləri daxilində fəaliyyət göstərməli və müəyyən nəticələr çıxarmalıdırlar.




Rusiya tərəfi də burada Azərbaycanın maraqlarının təmin olunmasını ön plana çıxarmalıdır. Yəni, faktiki olaraq, "Ermənistan Rusiyanın Cənubi Qafqazda əsas strateji müttəfiqidir" tezisinə düzəliş etməlidir. Balansı saxlamaq üçün rəsmi Moskva Azərbaycan faktorunu Cənubi Qafqaz siyasətində yeni səviyyəyə yüksəltməlidir. Ermənistan rəhbərliyinin son zamanlar atdığı addımlar bunun üçün Kremlin əlinə yeni arqumentlər də verir.

Məsələn, rəsmi İrəvan gah KTMT-dən narazılıq edir, gah MDB-dən şikayətlənir, gah da yeni təhlükəsizlik formulu axtardığını nümayiş etdirir. Bu səbəbdən, rəsmi İrəvan və onun Qərb havadarlarının son zamanlar absurd "dünyanın kəsişməsi" ideyasından danışmaları təsadüfi deyildir. Son Brüssel görüşündən sonra da ortaq bəyanatlarında bundan bəhs etmişlər. Lakin Qərb də bilir ki, N.Paşinyanın ortaya atdığı bu fikir mənasız sözdən və absurd mövqedən başqa bir şey deyildir. İki səbəbdən bu belədir.

Birinci səbəb artıq regional əməkdaşlığın formulu mövcuddur. Bu, beynəlxalq layihələr çərçivəsində Zəngəzurdan keçməklə nəqliyyat dəhlizinin açılması sayəsində regionun hər bir dövlətinin əməkdaşlığını təmin etməklə əlaqəlidir.

İkinci səbəb regional təhlükəsizlik formulunun təklif olunması ilə bağlıdır: "3+3". Bu formul kənar təsirlər olmadan Cənubi Qafqazın 3 dövlətinin qonşu Rusiya, İran və Türkiyənin iştirakı ilə təhlükəsizliyi təmin etmək formatıdır!

Bundan başqa, təklif edilən əməkdaşlıq və təhlükəsizlik platformaları real arqumentlərə əsaslanır. Buna hər hansı alternativ çıxarmaq, bütövlükdə, regional əməkdaşlıq və təhlükəsizliyin qarşısını almaq deməkdir. Nəzərə almaq lazımdır ki, Azərbaycanın təşəbbüsçüsü olduğu formatlar regionun hər bir dövləti üçün düşərlidir.

Digər tərəfdən, Rusiya başlanğıcdan Zəngəzur dəhlizi layihəsində üzərinə öhdəliklər götürmüşdür və "3+3" formatında iştirakla bağlı mövqe bildirmişdir. Deməli, Moskva indi bu formatların reallaşması üçün siyasi-diplomatik fəallıq göstərməlidir. Ancaq, təəssüf ki, məhz bu istiqamətdə Rusiyanın təsirli addımlarını müşahidə etmirik.

Əslində, Cənubi Qafqazda sabitliyi, əməkdaşlığı və təhlükəsizliyi təmin edə biləcək geosiyasi konfiqurasiya mümkündür. Bunun üçün Türkiyənin regiona təsirlərinə baxmaq kifayətdir.

Rəsmi Ankara situasiyaya kifayət qədər təmkin və konstruktivliklə yanaşır. Türkiyənin regionun heç bir dövləti ilə münaqişəsi yoxdur və onların hər hansı birinə qarşı addımlar atmır. Azərbaycanla strateji müttəfiqdir. Gürcüstanla da strateji əməkdaşlıq xətti yeridir. Bu dövlətlə bütün sahələrdə davamlı əməkdaşlıq edir. Energetika, iqtisadi, nəqliyyat sferaları ilə yanaşı, təhlükəsizliklə də bağlı Tbilisiyə Ankara hər cür dəstəyi verir.

Ermənistanla münasibətlərin normallaşması üçün də Türkiyə səy göstərir. Ankaranın yeganə şərti Azərbaycanla Ermənistanın sülh müqaviləsini imzalamasıdır. Bu tələb olduqca normal, təbii və hazırkı vəziyyətə tam uyğundur. Çünki Cənubi Qafqazda geosiyasi sabitlik və əməkdaşlıq mühiti yalnız regionun bütün dövlətləri arasında normal münasibətlər olduğu halda mümkündür. Buradan Türkiyənin Cənubi Qafqaz siyasətinin digər güclü dövlətlərdən əsas fərqi aydın olur.

Türkiyə yeganə böyük dövlətdir ki, regiona münasibətdə onun hər bir ölkəsi ilə konstruktiv münasibətlər qurmaq xəttini yeridir. Diqqət etsək, görərik ki, Ankaradan başqa Cənubi Qafqazla bağlı regionun bütün dövlətləri arasında normal münasibətlərin formalaşmasına çalışan ikinci güc yoxdur. Özünü sülhsevər göstərməyə çalışan digər güclər mütləq birtərəfli, konkret olarq ermənipərəst mövqe tuturlar. Türkiyə isə Azərbaycanpərəst mövqe tutmur – real vəziyyətə uyğun dövlətlər arasında münasibətlərin normallaşması halında regionun hər bir ölkəsi ilə əməkdaşlığa hazırdır.

Burada Azərbaycan faktorunu mütləq qeyd etməliyik. Çünki Türkiyənin Cənubi Qafqazda fəaliyyəti bütün hallarda Azərbaycanla razılaşdırılır. Şuşa Bəyannaməsi bunun hüquqi əsasını yaratmışdır. Belə alınır ki, Ankaranın Cənubi Qafqazda konstruktiv fəaliyyəti həm də Azərbaycanın xidmətidir. Rəsmi Bakı strateji müttəfiqinin ədalətli mövqe tutmasını həmişə alqışlamışdır.

Məsələnin Azərbaycanla bağlı digər tərəfi region kontekstində başqa bir faktın prizmasında çox əhəmiyyətli görünür. Biz, Cənubi Qafqazda yeganə olaraq Azərbaycanın həm Türkyə, həm də Rusiyanın strateji müttəfiqi olmasını nəzərdə tuturuq. Bu, çox ciddi pozitiv faktordur. Çünki Azərbaycanla strateji müttəfiqlik iki böyük gücün ortaq nöqtələr tapmalarına hüquqi, geosiyasi və siyasi əsaslar verir. Həm də ona görə ki, Azərbaycan hər iki strateji müttəfiqi ilə konkret layihələr vasitəsilə real əməkdaşlıq edir. Bu da Azərbaycan vasitəsilə Türkiyə və Rusiyanın əməkdaşlığı inkişaf etdirmək üçün böyük imkanlara malik olduqlarını göstərir.

Bütün bunlardan belə bir məntiqi nəticə alınır: Cənubi Qafqazda etibarlı, davamlı sülh gətirə biləcək geosiyasi konfiqurasiyanın mərkəzində Azərbaycan – Rusiya – Türkiyə strateji müttəfiqliyi dura bilər.

Bununla tarixi və geosiyasi baxımdan maraqlı bir mənzərə alınır. XXI əsrdə ilk dəfə olaraq Azərbaycanın böyük rolu ola biləcək regional geosiyasi güc mərkəzi formalaşa bilər. Bundan başqa, həmin güc, bütövlükdə, regionun geosiyasi mənzərəsini keyfiyyətcə uzun müddət üçün dəyişə, konkret olaraq, Cənubi Qafqaza sülh, əməkdaşlıq və təhlükəsizlik gələ bilər.

Bu tarixi və geosiyasi fürsətin fonunda Ermənistan və havadarlarının regional miqyasda fəaliyyətləri çox riskli görünür. Bu tezisin müxtəlif aspektləri vardır.

### Geosiyasi "sınma nöqtəsi"

Bəlkə də indi Cənubi Qafqazda "The American Interest" jurnalının kolumnisti, professor Uolter Rassl Midin 2014-cü ildə işlətdiyi bir metaforanın təsdiqi anını yaşayırıq. Amerikan professor "Geosiyasətin qayıdışı" adlı məqaləsində yazırdı ki, "təftişçi geosiyasi güclər cavab zərbəsi" endirirlər. Eynilə, həmin təftişçi geosiyasi güclər Cənubi Qafqazda revanşizm ruhunda Azərbaycanın müharibədən sonra yaratdığı geosiyasi xətti "təftiş etməyə" çalışırlar.

Bu fikrin konkret ifadəsi rəsmi İrəvanın və ona havadarlıq edən ABŞ – Avropa İttifaqı güclərinin başlıca məqsədinin məhz regionda postmüharibə mərhələsinin pozitiv geosiyasi xəttində yeni "sınma nöqtəsi" axtarmaqdan ibarət olması ilə bağlıdır. Onlar konkret olaraq Azərbaycanın aparıcısı və təşkilatçısı olduğu geosiyasi xəttin hansısa bir məqamda "sınmasına" çalışırlar. Onun əlamətləri artıq özünü göstərir. O cümlədən, son zamanlar "İMEC" adlı və Hindistanla ABŞ-ın ortaya atdığı yeni "əməkdaşlıq dəhlizi" məhz "geosiyasi sınma"ya xidmət edir. Çünki bu çox bahalı və rentabelli olmayan layihə birbaşa "Bir kəmər, bir yol" layihəsinə alternativ kimi təqdim edilir.

Maraqlıdır ki, həmin layihənin ən gərgin hissəsi məhz Cənubi Qafqazla bağlıdır və Zəngəzur dəhlizi məsələsi də bura daxildir. Buna görədir ki, obrazlı olaraq "dəhlizlərin savaşı"ndan danışa bilərik. İndi iki layihənin ortaq dəyərlərindən deyil, onlardan birinin seçilməsi ilə geniş bir məkanda hansı geosiyasi və nəqliyyat marşrutu konfiqurasiyasının yaranacağından danışırlar. Bu, dolayısı ilə Cənubi Qafqazda formalaşmış konstruktiv geosiyasi xətti haradasa sındırmağa çalışmaq deməkdir.

Digər əlamət kimi, Qərbin faktiki olaraq, Cənubi Qafqazda geosiyasi ayırıcı xətt yaratmaqla məşğul olması ilə bağlıdır. Bu xüsusda Brüsseldəki müzakirələr məsələni daha həssas etmişdir. Geosiyasi ayırıcı xəttin yaradılması yekun olaraq hazırda regionda mövcud olan geosiyasi mənzərədə bir-birinə düşmən olan "barrikadalar qurmaq" anlamına gəlr. Bu, "coğrafiyanınmı qisasıdır", yoxsa geosiyasi konfrontasiyanın revanşist kükrəməsi? Hər halda, bu, bir sıra böyük güclərin qlobal geosiyasətə vurmaq istədikləri zərbənin sədası təsirini bağışlayır!

Onların bu davranışları ilə son zamanlar gərginləşən İran–İsrail münasibətləri də kifayət qədər riskli görünür. Tərəflər bir-birinə havadan zərbələr endirirlər və təhlükəli bəyanatlar verirlər. Nəzərə alaq ki, bunlar Cənubi Qafqaza çox yaxın məkanda baş verir, təhlükənin buraya sıçramasını istisna etmək olmaz.

### Türk Dövlətləri Təşkilatı – sabahın ümid qapısı

Ancaq hər şey itirilməyib. Türk Dövlətləri Təşkilatı faktoru öz rolunu onayır. Türkiyənin Azərbaycanda və digər türk dövlətlərində hərbi-sənaye kompleksini yeniləşdirmək istiqamətində atdığı addımlar meydana güclü bir geosiyasi faktorun çıxdığını göstərir. İndiki situasiyanın öncəkilərdən fərqi ondan ibarətdir ki, yeni geosiyasi güc hətta böyük güclərlə mübarizə apara bilər. Tədricən TDT real geosiyasi meydanda fəaliyyətini göstərir və konkret layihələrlə özünü təsdiq edir. Türkiyənin Azərbaycanda, Qazaxstanda, Özbəkistanda hərbi-sənaye kompleksi ilə bağlı həyata keçirdiyi layihələr, müxtəlif sferalara aid əməkdaşlıq proyektlərinin təşviqi və həyata keçməsi bu baxımdan çox ümidvericidir.

Hər halda, Azərbaycanın güclü mövqeyi sayəsində Cənubi Qafqaz hələ sabitdir. Bakının İrəvana qarşı təmkinli və sabit duruşu göstərir ki, regionda proseslərin müsbət məcrada qalması üçün Azərbaycan qətiyyətli fəaliyyətini davam etdirəcək.

Bunların nəticəsi olaraq TDT-nin, geosiyasi faktor olaraq, Cənubi Qafqazda aparıcı mövqeyə çıxması ehtimalı yüksəkdir. Burada TDT – Rusiya geosiyasi və təhlükəsizlik əməkdaşlığı da istisna edilməməlidir. Tərəflər konkret layihələr üzrə bu məqsədlərini reallaşdıra bilərlər.

Beləliklə, Cənubi Qafqaza kənar təsirlər müxtəlif istiqamətlərdən və fərqli məqsədlərlə artmışdır. Burada mürəkkəb bir geosiyasi mənzərə yaranmışdır. Ancaq bu mürəkkəbliyin bir ümid "çırağı" da vardır. O, türk dövlətlərinin geosiyasi güc kimi fəallıqlarını artırmaları ilə bağlı olacaqdır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Hansı "qara daş"ı qaldırsan, altından Fransa boylanacaq

**(əvvəli 1-ci səhifədə)**

"Moskva vilayətində "Crocus City Hall"da terror aktını törədənlər primitiv muzdlu qatillərdir. Fransa prezidenti Emmanuel Makron və Qərbin bir sıra liderləri bu dəhşətli terror aktının sponsorlarıdır. Bunun üçün heç bir bağışlanma ehtimalı yoxdur. Burada toxunulmazlığın arxasında gizlənmək mümkün deyil".

Bunu Kremllə bağlı adi bir siyasətçi deyil, Rusiyanın həm baş naziri, həm də prezidenti olmuş, hazırda Təhlükəsizlik Şurasının rəhbərinin müavini kimi yüksək və strateji vəzifəni icra edən Dmitri Medvedev deyib. Onun Krasnoqorsk terrorunun arxasında rəsmi Parisin, şəxsən dövlət başçısı Emmanuel Makronun və digərlərinin durduğunu açıqlaması qətiyyən təsadüfi sayıla bilməz.

Çox güman ki, Medvedev bu barədə vəzifə səlahiyyətlləri çərçivəsində ölkənin müvafiq strukturlarından, İstintaq Komitəsindən və kəşfiyyatdan səhih məlumatlar əldə edib.

Əslində, yuxarıdakı versiyanın ipucunu elə Fransa xüsusi xidmət orqanları özü vermişdi. Yelisey sarayının iddiasına görə, "terrorun Azərbaycan əsilli iş adamlarına məxsus konsert zalında törədilməsi təsadüfi deyil"miş. Altməqsəd dərhal üzə çıxır. Paris bu psevdoversiyanı ortaya atmaqla Azərbaycan və Rusiya arasındakı münasibətlərə zərbə vurmağa, digər tərəfdən isə Rusiya daxilində dini-etnik zəmində qarşıdurma yaratmağa çalışıb. Amma Makron qurduğu tələyə özü düşdü. Rusiya hakimiyyəti Medvedevin dili ilə insanlığa qarşı törədilmiş terrorun arxasında Fransanın dayandığını, bu qanlı cinayətin sponsorunun Emmanuel Makron olduğunu açıqlamaqla, həm də təşkilatçının kimliyini bütün dünyaya bəyan etmiş oldu. Ardınca Fransa səfiri Rusiya Xarici İşlər Nazirliyinə çağırılıb və ona nota təqdim olunub. Burada əsas diqqət terroru dəstəklədiyi bəyan edilən Fransanın üzərinə yönəlir. Əgər Parisin "Crocus" terrorunda əlinin olduğu sübuta yetirilərsə, rəsmi Moskva, faktiki olaraq, Fransanı terrorçu dövlət elan edə bilər.

***

Yelisey sarayının müvəqqəti kirayənişinin Azərbaycana qarşı məkrli və qərəzli münasibəti heç kimə sirr deyil. Ələlxüsus da son üç il beş ayda geosiyasi reallıq və qüvvələr nisbəti kökündən dəyişmiş Cənubi Qafqaza bayrağını sancmağı xəyal edən Fransa Ermənistanı əlində "maşa"ya çevirərək, bölgədə məhz mövcud balansı öz xeyrinə dəyişməyə cəhdlər göstərir. Parisin bu məqsədə çatmağın "ən asan yolu" kimi Azərbaycan və Rusiya arasında hər hansı gərginliyi yaratmaqda gördüyü məlumdur. Əslində, "Crocus" olayının baş vermə səbəblərini özünəməxsus şəkildə motivləndirməklə, hədəfin məhz Azərbaycan əsilli iş adamlarına məxsus konsert zalının seçilməsini elan etməklə, o, iki qonşu ölkə, strateji tərəfdaşlar arasında münasibətlərə kölgə salmağı hədəfləyib. Yuxarıda qeyd etdiyimiz kimi, çoxkonfessiyalı Rusiyada dini və etnik zəmində çaxnaşma yaratmağa təşəbbüs göstərmək, din amilini önə çıxarmaq kimi məkrli planları işə salmaq Fransanın regionda maraqlarını təmin etməyin üsuludur. Amma, bu, reallaşması heç vaxt mümkün olmayan bir üsuldur.

***

Ümumiyyətlə, Fransanın "terrorçu dosyesi" olduqca zəngindir. Bu ölkənin ən azı yaxın yüz ildəki tarixində bəşəriyyətə qarşı ağır cinayətlərlə dolu "qara səhifələr" var. Fransa hərbi legionunun keçən yüzillik ərzində "qara qitə"dəki müstəmləkələrində insanlığa qarşı törətdiyi vəhşiliklərin, soyqırımı və qətllərin sayı-hesabı yoxdur.



Bu ölkə Afrikada fransız istibdadına, müstəmləkəsinə etiraz edən yerli əhaliyə divan tutmasını, onlara qarşı törətdiyi qırğınları "terrorizmlə mübarizə" kimi qələmə verirdi. Dünyada ən genişmiqyaslı etnik təmizləməni həyata keçirən Fransa utanıb-çəkinmədən Azərbaycanı Qarabağda ermənilərə qarşı etmədiyi əməldə suçlamağa girişib. Fransızların özlərinin Yelisey sarayının ən uğursuz başbiləni saydıqları Emmanuel Makronun bu siyasi avantürasına, sadəcə, sarkazmla cavab vermək lazımdır. Fransanın dünyanın dörd tərəfinə uzanan terror qollarının izləri Suriyadakı "Lafarge" şirkətində, onun maliyyələşdirdiyi İŞİD terror qruplaşmasında, eləcə də YPG/PKK ilə əlaqələrində üzə çıxır. Fransanın "terror dosyesi" bununla tamamlanmır. Onun qucaq açıb himayə etdiyi, dünyanın ən qansız terror təşkilatı kimi ad çıxarmış ASALA-nın əsas dayaq nöqtələrindən biri Marseldə yerləşir. Erməni terrorçuların məhz Fransada özlərinə yuva salması təsadüfi deyil. Çünki, məhz Fransa ASALA-nı dəstəkləyib, keçən əsrin 70–80-ci illərində dünyanın müxtəlif ölkələrində Türkiyə diplomatlarına qarşı terror hücumlarına şərait yaradıb.

Avropanın bu "ən kübar" ölkəsinin beynəlxalq terrorizmlə sıx əlaqələri bugünün məsələsi deyil. Suriyadakı bəd əməllərindən söz açdıq. Bu yaxınlarda Türkiyənin TRT World telekanalından nümayiş etdirilən sənədli filmdə istihbarat tərəfindən Suriyada terrorçulara xidmət göstərən sement zavodunun aşkarlanması və həmin ilan yuvasının darmadağın edilməsi ilə bağlı kadrlar göstərildi. Yəni, planetin qaynar nöqtələrində, münaqişə zonalarında barıt qoxusu gələn hansı "qara daş" qaldırılsa, oradan Fransa boylanır.

***

Emmanuel Makronun Ukraynadakı hərbi qarşıdurmada öz xeyrini güddüyü təzə xəbər deyil. Erməniləri bəd əməllərində alət kimi istifadəyə adətkərdə olmuş rəsmi Paris bu müstəvidə də onların "xidmətindən" yararlanmağa qərar verib. Qərb mediası Fransanın Qarabağdan könüllü köçmüş ermənilərindən ibarət legion yaratması və onları ruslara qarşı döyüşmək üçün Ukraynaya göndərməyə hazırlaşdığına dair də maraqlı xəbərlər tirajlanmaqdadır.

Hər şeydən göründüyü kimi, Paris terror təşkilatları ilə əlaqələrini gizlətmək barədə belə düşünmür. "Qoca qitə"nin evolyusiyaya deyil, geriyə saymağa başlayan bu dövləti özünün korporativ maraqları naminə hər növ cinayəti qəbul etməkdən, hətta terroru təşviqdən belə çəkinmir. Və bütün bunların fonunda dünyaya "demokratiyadan" moizələr oxumağı da "unutmur".

Toxunmağı zəruri saydığımız məqamlardan biri də Parisin Azərbaycanla Ermənistan arasındakı ikitərəfli sülh prosesinin onun maraqları ilə üst-üstə düşməməsindən keçirdiyi narahatlıqdır. Fransanın məhz bu səbəbdən Ermənistanı sürətlə silahlandırması, separatçıları, daşnak-revanşist qüvvələri bölgədə yeni hərbi qarşıdurmaya qızışdırması da Makron planına daxildir. Deyəsən, onun regiondakı destruktiv niyyətini, sülhə ziyanvericilik missiyasını İrəvan da anlamağa başlayıb. Bu günlərdə şərti sərhəddə baş vermiş olaya Ermənistan hakimiyyətinin reaksiyası bu yöndə müəyyən qənaətə gəlməyə əsaslar yaradır. Deməli, Ermənistan tərəfi Azərbaycan sərhədçilərinə atəş açmış hərbçilərə qarşı cinayət işi qaldırdı. Yəni, bu, həm də onu göstərir ki, Fransanın iki qonşu ölkə arasında sülh prosesinə müdaxiləsi, fitnə-fəsadı olmadıqda, İrəvan beynəlxalq hüquqa uyğun davranmağı bacarır. Bu, həm də Azərbaycanın diplomatik müstəvidə əldə etdiyi növbəti qələbəsi sayılmalıdır.

Əlbəttə ki, Azərbaycan bu xarakterli hərbi təxribatlara adekvat cavab hüququnu özündə saxlayır. Amma bu dəfə rəsmi Bakı təmkinli davrandı, insidentin araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün İrəvana fürsət verdi. Paşinyan iqtidarı səhvini rəsmən etiraf etdi və təxribatçıları cəzalandırdı. Bəli, "Qafqaz evi"nin sakinləri olan ölkələri "tet–a–tet" qoyduqda, onlar dialoq yolu ilə öz aralarındakı problemləri həll etməyə qadirdirlər. Fransa kimi kənar aktorların müdaxiləsi isə bu prosesə yalnız və yalnız ziyan vurur.

Paris bunu artıq birmənalı olaraq qəbul etməlidir: onun Cənubi Qafqaza ayaq açmaq üçün göstərdiyi və bundan sonra göstərəcəyi bütün cəhdləri iflasa uğrayacaq. Elə şərti sərhəddə baş verən insident və onun çözüm yolu bunu əyani şəkildə sübuta yetirdi.

**P.S.** Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev dörd ay bundan əvvəl Karib böhranından sonra Rusiya ilə NATO arasında Üçüncü dünya müharibəsinə səbəb olacaq birbaşa toqquşma təhlükəsinin heç vaxt bu qədər real olmadığını bəyan etmişdi. Arzulamırıq, amma əgər belə bir fəlakət baş verərsə, bunun günahkarının Emmanuel Makron Fransası olacağı şübhəsizdir.

***İ.HƏSƏNQALA***
***XQ***

Kitab təqdimatı

# Azərbaycan dili üzrə yeni metodik vəsait




**Aprelin 15-də Bakı Kitab Mərkəzində Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən hazırlanmış "Azərbaycan dili bacarıqları üzrə səviyyələrə dair tələblər" adlı Azərbaycan dili üzrə Sertifikasiya imtahanı (ADSİ) üçün metodik vəsaitin təqdimatı keçirilib.**



Təqdimatda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycanın tanınmış elm, mədəniyyət və ictimaiyyət xadimləri iştirak ediblər.

Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə proqram haqqında məlumat verib. DİM sədri bildirib ki, imtahan vətəndaşların Azərbaycan dilini hansı səviyyədə bilməsini müəyyənləşdirməyə imkan verəcək. Hazırda elmi pedaqoji heyət arasında aparılan müzakirələrdən sonra imtahan keçiriləcək.

Tədris proqramının və test modelinin həmmüəllifi Səbinə Əliyeva, Dövlət İmtahan Mərkəzinin əməkdaşı Mehriban Cəfərsoy, "Azərbaycan dili bacarıqları üzrə səviyyələrə dair tələblər" proqramının redaktoru Jalə Qəribova təqdim olunan vəsaitin faydalarından danışıblar.

Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdulla, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyeva bildiriblər ki, kitab əcnəbilərin Azərbaycan dilini bilmə səviyyəsinin müəyyənləşdirilməsinə, dilimizin sevilməsinə, işgüzar dilə çevrilməsinə kömək göstərəcək.

Qeyd edək ki, Azərbaycan dilinin səviyyələr üzrə imtahanına hazırlaşanlar üçün nəşr edilən metodik vəsait Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadənin rəhbərliyi ilə Azərbaycan Dillər Universitetinin əməkdaşları Səbinə Əliyeva, Hüzurə Ağayeva, Ramiqə Şirəliyeva və Fidan Ələsgərova tərəfindən dosent, filologiya üzrə fəlsəfə doktoru Jalə Qəribovanın redaktorluğu ilə hazırlanıb.

Metodik vəsait Azərbaycan dilinin səviyyələr üzrə imtahanına hazırlaşan və bu imtahanla maraqlanan şəxslər üçün nəzərdə tutulub. Vəsaitə imtahanla əlaqədar tərtib olunmuş proqram, tapşırıq nümunələri və digər zəruri materiallar daxil edilib. Metodik vəsaitdə istifadə olunmuş materiallar ölkəmizin aparıcı ali təhsil müəssisələrinin mütəxəssisləri tərəfindən nəzərdən keçirilib. Proqramda CEFR (The Common European Framework of Reference for Languages) normativləri Azərbaycan dili üzrə dil qaydalarına uyğunlaşdırılaraq ərsəyə gətirilib.

**XQ**

# COP29-un baş qərargahında ilk mətbuat konfransı




**Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı COP29-un baş qərargahında aprelin 15-də ilk mətbuat konfransı təşkil olunub.**

Konfransa hazırlıq işlərindən danışan Muxtar Babayev bildirib ki, COP29-un ölkəmizdə keçirilməsi, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın milli və beynəlxalq səviyyədə apardığı siyasətə, o cümlədən, iqlim dəyişikliyi probleminin həllinə töhfə vermək səylərinə beynəlxalq ictimaiyyətin etimadının təzahürüdür. Azərbaycanın dünya ölkələrinin yekdil dəstəyi ilə COP29-a sədrliyini üzərinə götürdüyünü deyən M.Babayev qeyd edib ki, ölkəmiz COP29-a sədrliyi və evsahibliyi çərçivəsində iqlim dəyişikliyi mövzusunda qlobal həmrəyliyin gücləndirilməsi istiqamətində davamlı fəaliyyət nümayiş etdirəcək.

M.Babayev yaşıl keçidin Azərbaycanın milli prioritetləri sırasında olduğunu da bildirərək xatırladıb ki, ölkəmiz metan emissiyalarının azaldılması üzrə öhdəliyi dövlətlərin könüllü qəbul etməsini nəzərdə tutan Qlobal Metan Öhdəliyi təşəbbüsünə qoşulub və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının 30 faizə çatdırılması hədəf kimi müəyyən edilib. Azərbaycan baza ili – 1990-cı illə müqayisədə 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilədək isə 40 faiz azaldılmasını hədəfləyir.

Bu gün Azərbaycanın özünün də qlobal dünyanın tərkib hissəsi olaraq iqlim dəyişikliyinin fəsadları ilə üzləşdiyini deyən M.Babayev çaylarda və Xəzər dənizində suyun azalması, səhralaşma kimi problemləri vurğulayıb.

Tədbirdə COP29-dan gözlənilən yekun sənədlər üzrə danışıqların gündəliyinə toxunulub. COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bildirib ki, Azərbaycan COP29-a evsahibliyi mandatı çərçivəsində bütün iştirakçı tərəflərlə danışıqlar prosesinə şəffaflıq, inklüzivlik və neytrallıq prizmasından yanaşır.

COP29-un baş icraçı direktoru Elnur Soltanov bu tədbirin yaşıl enerjiyə keçidin sürətləndirilməsi üçün geniş müzakirə və fəaliyyət platforması olacağını qeyd edərək, Azərbaycanın indiyədək bu istiqamətdə götürdüyü öhdəliklərin icrası baxımından yeni imkanların yaranacağına əmin olduğunu bildirib. E.Soltanov qeyd edib ki, Azərbaycanın rolu sadəcə evsahibliyi mandatı ilə məhdudlaşmayacaq və ölkəmiz konfransdakı danışıqlara da rəhbərlik edəcək.

COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova qeyd edib ki, Azərbaycan bu gündədək müxtəlif beynəlxalq tədbirlərə evsahibliyi etsə də, iştirakçı sayına və miqyasına görə COP29 ən böyük tədbirdir. O bildirib ki, COP29-un keçiriləcəyi məkan kimi Bakı Stadionu seçilib. Bu qərar BMT ilə məsləhətləşmələr və əvvəlki COP tədbirlərinin təcrübəsi nəzərə alınaraq qəbul edilib.

COP29-un İqlim üzrə Yüksək Səviyyəli Çempionu Nigar Arpadarai vətəndaş cəmiyyəti nümayəndələrinin və özəl sektorun COP29-da iştirakından bəhs edərək, onların mühüm qərarların müzakirəsi və qəbuluna cəlb edilməsinin vacibliyini vurğulayıb.

COP29-un İqlim üzrə gənclər çempionu Leyla Həsənova isə gənclərlə bağlı fəaliyyət istiqamətlərinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransında önəmli yer aldığını, bu sahədə mövcud təcrübələrin və qlobal layihələrin əhəmiyyətini vurğulayıb.

Mətbuat konfransında COP29-un loqosu ictimaiyyətə təqdim olunub. Loqo iqlim çağırışlarının yüksəldiyi dövrdə bəşəriyyət və ətraf mühit arasında kəsintisiz əlaqənin, ekoloji cəhətdən həssas davranış və nəticəyönümlü fəaliyyətin əhəmiyyətini əks etdirir.

Mətbuat konfransının jurnalistləri maraqlandıran suallar ətrafı cavablandırılıb.

**XQ**

# Sosial məmnunluğun ünvanları

**Ölkəmizdə sosial sahəyə göstərilən diqqət və qayğı, ayrılan vəsait görülən işlərin, reallaşdırılan proqramların və layihələrin uğurla nəticələnməsinə imkan yaradır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən XQ-yə verilən məlumata görə, bu ilin ilk 3 ayında qurumun müxtəlif sahələrində əldə edilən nəticələr məmnunluq yaradır.**

## Yeni iş yerləri




İslahatlar, müqavilələrin çoxalması əməkhaqqı fondunda da davamlı artımla nəticələnib. Son 3 ayda fondda daha 2,9 faiz artım qeydə alınıb. Buna səbəb 2024-cü ilin ilk rübündə ölkəmizdə əmək müqavilələrinin 1,7 faiz artaraq 1 milyon 839 mini ötməsidir. 2018–2023-cü illərdə əmək müqavilələrinin sayında 38 faiz, əməkhaqqı fondunda isə 2,7 dəfə artım baş verib.

Yanvar–mart aylarında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi də ehtiyacı olanlara yetərincə xidmət göstərib. Yaşayış yerini tərk etməkdə çətinlik çəkən 500-dək əlilliyi olan şəxsə evlərində 1220 səyyar reabilitasiya xidməti göstərilib.

Həmin səyyar xidmətlərdən yararlanmaq istəyən əlilliyi olan şəxs (və ya onun qanuni nümayəndəsi) nazirliyin "142" Çağrı mərkəzinə, eləcə də DOST mərkəzləri və ya ərazi üzrə Tibbi-Sosial Ekspert Komissiyasına müraciət edir. Bundan sonra müraciətə əsasən, agentliyin müvafiq reabilitasiya mərkəzinin həkim və psixoloqlarından ibarət səyyar briqada əlilliyi olan şəxsin yaşadığı ünvana gedərək, onun ilkin müayinə və qiymətləndirməsini aparır. Sonra əlilliyi olan şəxsə bağlı fərdi plan tərtib olunaraq bu plan əsasında ona müəyyən olunmuş müddət ərzində həkim və psixoloq müayinəsi, loqoped seansı, müalicəvi masaj, müalicəvi bədən tərbiyəsi, əmək terapiyası və s. üzrə reabilitasiya xidmətləri göstərilər.

Agentlik bu ilin ilk rübündə əlilliyi olan şəxslərə 28 min 900 reabilitasiya vasitəsi verib. Onların 2 min 800-ü təkərli oturacaq, 563-ü aşağı və yuxarı ətraf protezi, 698-i qoltuqaltı və dirsəkaltı ağac, 688-i eşitmə aparatı olub. Əlilliyi olan şəxslərə 769 cüt protez ayaqqabı, 1351 cüt ortopedik ayaqqabı, 23 korset və s. reabilitasiya vasitələri təqdim olunub. Yanvar–mart aylarında 4 min 300 nəfər əlilliyi olan şəxs reabilitasiya vasitəsi ilə təmin edilib.

## Sosial müavinət və təqaüdlər

I rübün sosial göstəricilərindən danışanda onu da demək yerinə düşər ki, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin 3 ayında proqnozla müqayisədə 7 faiz və ya 108 milyon manat çox olmaqla 1 milyard 673 milyon manat təşkil edib. Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları həmin dövrdə proqnoza nisbətən 9 faiz və ya 104 milyon manat artaraq 1 milyard 318 milyon manat olub. Cari ilin ilk rübündə DSMF-nin xərcləri 1 milyard 701 milyon manat təşkil edib ki, bu da ötən ilin




müvafiq dövrünə nisbətən 14 faiz və ya 207 milyon manat çoxdur.

Bu ilin ötən müddətində 466 min nəfərə sosial müavinət, 396 min nəfərə Prezidentin aylıq təqaüdü verilib. Həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə 267 milyon manat, Prezident təqaüdləri üzrə 171 milyon manat ödənilib. Cari ilin 3 ayında 39 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 609 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## Məşğulluğa yardım




Dövlət Məşğulluq Agentliyi tərəfindən yanvar–mart aylarında fəal məşğulluq tədbirləri ilə əhatə olunanların sayı artıb. 98 min 600 nəfər məşğulluq tədbirlərinə cəlb edilib. Onlardan 44 min 200 nəfəri münasib işlərlə təmin edilib, 683 şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına qoşulub.

Qeyd olunan dövrdə agentlik 3 min 400 işsiz şəxs üçün peşə hazırlığı kursları təşkil edib, 50 min 300 şəxsə isə peşəyönümü xidmətlər göstərib.

**Zərifə BƏŞİRQIZI**
**XQ**

# Qazaxıstan təbii fəlakətlə mübarizə aparır

**Qazaxıstanın Aktube, Kustanay, Akmola, Qərbi Qazaxıstan, Karakanda, Atırau, Şimali Qazaxıstan və Ulıtay vilayətlərində fövqəladə hallar rejimi davam edir. İndiyədək təbii fəlakət nəticəsində ölkənin regionlarından təhlükəsiz ərazilərə 111 194 adam köçürülüb, bunun 39 222 nəfəri uşaqdır.**



Təbii fəlakət zonalarında 5 411 ev, 2035 bağ sahəsi hələ də su altındadır. Qəza-xilasetmə işlərinə 33 min adam, 4 min texnika, 17 helikopter cəlb olunub.

Bununla bağlı Qazaxıstanın Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Məlumatda qeyd edilir ki, təbii fəlakət zonalarının 82 yaşayış məntəqəsində nəqliyyatın hərəkətini bərpa etmək hələ ki mümkün deyil.

İnsanlara fasiləsiz olaraq humanitar yardım verilir, onlar lazimi avadanlıqlarla təmin edilir.

Sinoptiklər aprelin 16-dan 18-dək ölkənin əksər vilayətlərində güclü yağış və qar yağması ilə bağlı xəbərdarlıq edib.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**Astana**

# Akademikin parlaq və unudulmaz obrazı

**Zəmanəsinin görkəmli oftalmoloq-alimi, akademik Zərifə Əziz qızı Əliyeva ibrətamiz həyatı, işıqlı amalları ilə daim milli-mənəvi xarakteristikamızı şərəfləndirib. Ulu öndər Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, fəal ictimai xadim kimi ürəklərdə yaşayan Zərifə xanımın doğum və anım günləri hər zaman böyük ehtiramla qeyd edilir.**



Hər dəfə paytaxtımızda Zərifə Əliyevanın adını daşıyan istirahət parkında olarkən böyük məhəbbətlə ucaldılmış abidəsinin qarşısında durub ölməz xatirəsinə baş əyirik. Ümummilli liderin abidə ilə kövrək, səssiz həsb-halını əks etdirən həzin musiqili videokadrları yada salırıq.

Onu da xatırlayıram ki, yaşadığım Sumqayıt şəhərinin veteran sənayeçiləri ilə söhbətlərimiz zamanı onlar böyük minnətdarlıq duyğuları ilə Zərifə xanımın tez-tez buradakı Peşə Xəstəlikləri İnstitutuna gəldiyini, o zamanlar ekoloji problemləri əskik olmayan kimya müəssisələrinin fəhlələrini müayinədən keçirdiyini, hər birinin sağlam olması üçün necə yorulmaz səylər göstərdiyini, habelə sexlərdə laboratoriya şəraitində elmi təcrübələr apardığını yada salırdılar. Beləcə, həkim peşəsini vicdanla yerinə yetirmiş, xəstəliklərin qarşısının alınmasında fədakar səylər göstərmiş, daim böyük həvəslə öz həmvətənlərinin qayğısına qalmış humanist insanın işıqlı obrazı gözlər önündə canlanır.

Yüksək əqidə paklığının mücəssəməsi olan Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Ailə mühiti onu böyük şəxsiyyət kimi formalaşdırıb. Atası – Azərbaycanın tanınmış ictimai-siyasi və dövlət xadimi Əziz Əliyev ixtisasca həkim idi. Çalışdığı bütün vəzifələrdə daim xalqımıza, dövlətimizə ləyaqətlə xidmət göstərib və həyat yoldaşı Leyla xanımla birgə ailə ocağında yüksək insani keyfiyyətlərə malik övladlar böyüdərək tərbiyə edib. Zərifə xanım da məhz atasının sayəsində tibb sahəsinə könül verib. Onun yeniyetməlik və gənclik çağları İkinci Dünya müharibəsinə təsadüf edib. Oxuduğu orta məktəbdə dərsləri bitəndən sonra hər gün şagird rəfiqələri ilə birgə yaxınlıqdakı hərbi hospitala gedir, həkimlərə, tibb bacılarına kömək etməyə çalışırdı.

Elə o vaxtdan qayğıya, diqqətə ehtiyacı olanlara pasibanlıq etmək Zərifə xanımın həyat amalına çevrilib. 1942-ci ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. Özünün dərin zəkası, dünyagörüşü, yüksək mədəni səviyyəsi ilə müəllimlərinin və tələbə yoldaşlarının dərin rəğbətini qazanıb. İnstitutda təşkil olunan tələbə elmi toplantılarında parlaq məruzələrlə çıxışlar edib.

Traxoma xəstəliyi ötən əsrin ortalarında dünyada geniş yayılmışdı. Elmin oftalmologiya sahəsi isə o qədər də inkişaf etməmişdi, ixtisaslı kadrlar çatışmırdı. Buna görə də Zərifə xanım görmə orqanlarını sıradan çıxaran bu xəstəliyə qarşı bir oftalmoloq-həkim kimi mübarizə aparmağı qərara alıb. İnsanların həyatda ən böyük nemət olan işığa həsrət qalması ilə barışmaq istəməyib və ömrü boyu onların xilası naminə əlindən gələni edib.

Zərifə xanım Əliyevanın üstünlüyü yüksək biliyi, təcrübəsi, necə deyərlər, əlinin yüngül olması idi. Bu keyfiyyətləri onun çox müsbət insani cəhətləri ilə daha da dolğunlaşaraq, böyük azərbaycanlı qadın alimin ideal obrazını yaradıb. İkinci Dünya müharibəsindən sonra Azərbaycanda regional əhəmiyyət kəsb edən göz xəstəlikləri, o cümlədən, gözün peşə xəstəlikləri üzrə fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin səmərəli müalicə üsullarını və profilaktika tədbirlərini işləyib hazırlamaq sahəsində Zərifə xanımın fəaliyyəti danılmazdır. Onun effektiv mübarizə üsulları təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm önəm daşıyır.



Azərbaycan Tibb İnstitutunda təhsilini başa vuran gənc həkim sonra 2 il Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ixtisaslaşma kursu keçib. Vətənə qayıdınca Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayıb. 1950-ci ildə aspiranturaya daxil olaraq praktik həkim fəaliyyəti ilə paralel olaraq, elmi axtarışlar aparıb. Bu sahədə çalışmalarının ilk mərhələsini məhz traxoma xəstəliyinin müalicəsinə həsr edib. Eyni zamanda, gənc mütəxəssis digər göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olub. Konkret müalicə təcrübəsindən əlavə, tez-tez rayonlara gedib, həkim-oftalmoloqlara məruzələr oxuyub, əhali arasında geniş maarifləndirmə işləri aparıb. Bütün bunlara ciddi tələbat olduğuna görə Zərifə xanım elmi axtarışlarını əzmlə davam etdirib. “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasını yüksək səviyyədə müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi alıb. Böyük alimlər bu gün də etiraf edirlər ki, Zərifə xanım traxomanın müalicəsində o dövrün güclü antibiotiklərindən hesab edilən “Sintomisin”dən isifadə etməklə, yeni üsul tətbiq etmiş, uğurlu nəticələrə nail olmuşdur.

Ötən əsrin 60-cı illərində Zərifə xanım bir müddət Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışıb. Göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparıb, elmi tədqiqatları üzərində çalışıb. O, məxsusi olaraq qlaukomanın öyrənilməsi ilə bağlı mühüm elmi nəticələr əldə etməyə nail olub. Sonra Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının dosenti olub. Eyni zamanda, o vaxta qədər çox az tədqiq olunmuş bir mövzunu – görmə patologiyası məsələlərini araşdırıb. Neft-kimya zavodlarında, yod-sənaye müəssisələrində çalışan şəxslərin görmə orqanına təsir edən amillərə xüsusi diqqət yetirib.

Bu illərdə Zərifə Əliyeva praktik həkimlik fəaliyyətini də unutmur, bir çox cərrahiyyə əməliyyatları aparır, xəstələri qəbul edirdi. İllərcə diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı hazırlayaraq həyata keçirirdi.

Dərin zəkalı alim çoxillik elmi araşdırmalarının nəticəsi olaraq, kimya sənayesi işçilərinin göz xəstəliklərinin tədqiqini və təsnifatını ümumiləşdirən, ciddi elmi nəticələr doğuran “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” adlı doktorluq dissertasiyasını 1976-cı ildə H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda uğurla müdafiə edib. O, tədqiqatı zamanı şin və yod istehsalı sahəsində çalışan yüzlərlə insan üzərində müşahidələr aparıb, sanitar-gigiyenik durumun görmə orqanına mənfi təsirini elmi dəlillərlə sübuta yetirib. Dissertasiya işi bu sahədə ilk fundamental tədqiqatlardan biri kimi çox yüksək dəyərləndirilib.

Zərifə Əliyevanın pedaqoji fəaliyyəti də geniş olub. 1967-ci ildən atası Əziz Əliyevin adını daşıyan Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda çalışıb, professor, daha sonra kafedra müdiri vəzifəsinə qədər yüksəlib. 1977-ci ildə onun təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin Bakıda plenumu keçirilib. Plenum Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması ilə bağlı professor Zərifə Əliyevanın irəli sürdüyü təşəbbüsü bəyənib və 2 il sonra Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda həmin laboratoriya təşkil edilib.

“Kəskin virus konyunktivitləri”, “Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar”, “Qlaukoma və gözün hipertenziyası”, “Görmə orqanının zədələnməsi”, “Göz yaşı axmasının fiziologiya və histologiyası”, “Şəkərli diabetdə göz xəstəlikləri”, “Gözün mikrocərrahiyyəsi”, “Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası” və digər əsərləri Zərifə xanımın tibb elminə sanballı töhfələridir. Alim “Yaşaparıcı yolların fiziologiyası”, “Yaşaparıcı yolların cərrahi müalicəsi”, “Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları” və digər əsərləri ilə Azərbaycanda elmin lakrimologiya sahəsinin banisinə çevrilib. Gərkəmli alimin “İridodiaqnostikanın əsasları” və “İridodiaqnostika” adlanan çox sanballı monoqrafiyalarını da qeyd etmək lazımdır. Zərifə xanım bu gün də həkimlərin əl-əl gəzdirdiyi “Terapevtik oftalmologiya” əsərinin, eləcə də “Oftalmologiyanın aktual məsələləri” monoqrafiyasının müəlliflərindən biridir.

Zəhməti, zəkası daim bəhrə verən Zərifə xanım Əliyeva 1980-ci ildə “Əməkdar elm xadimi” fəxri adına, 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının akademik Mixail Averbax adına Mükafatına layiq görülüb. O, Sovet İttifaqında belə yüksək mükafata layiq görülən ilk qadın alim idi. Görkəmli alim həmçinin 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilib. Bir sıra ictimai vəzifələrin də öhdəsindən bacarıqla gəlib.

Bütün elmi-pedaqoji və tibbi uğurları ilə yanaşı, Zərifə xanım zərif qadın, qayğıkeş ana, mehriban ömür-gün yoldaşı kimi də qürurla anılır. Vətənimiz üçün iki layiqli övlad tərbiyələndirib. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin müzəffər Ali Baş Komandanı olaraq dünyada şöhrət qazanmış İlham Əliyev həyat və fəaliyyətindəki möhtəşəm uğurlarına görə özünü ilk növbədə atası Heydər Əliyevin və anası Zərifə xanım Əliyevanın ruhuna borclu sayır.

Günəşli bir aprel günündə dünyaya gəlmiş Zərifə xanım Əliyeva elə günəşli bir aprel günündə də dünyadan köç edib. Bəlkə də buna görədir ki, hər dəfə onu xatırlayanda üzümüzə Günəş təbəssümü qonur.

***Əli NƏCƏFXANLI***
**XQ**

# Zərifə Əliyevanın xatirəsi yad edilib



**Aprelin 15-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və vitse-prezidenti akademik İradə Hüseynova ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anım günü ilə bağlı Fəxri xiyabanda onun məzarını ziyarət ediblər.**

AMEA rəhbərliyi ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın məzarları önünə gül dəstələri düzüb, əziz xatirələrini dərin ehtiramla yad ediblər.

**Qabil YUSİFOĞLU,**
**XQ**

# Görkəmli oftalmoloq İrpendə anıldı





**Ukraynanın İrpen şəhərində Azərbaycanın görkəmli elm xadimi, oftalmoloq-alim, akademik Zərifə Əliyevanın vəfatının ildönümü ilə bağlı anım tədbiri keçirilib.**

Tədbirdə Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev, Ukraynanın Azərbaycandakı səfiri Yuri Qusev, İrpen şəhərinin meri Oleksandr Markuşin, SOCAR-ın Ukraynadakı nümayəndəliyinin rəhbəri Elçin Məmmədov, Zərifə Əliyeva adına 12 saylı orta məktəbin kollektivi, ictimaiyyətin nümayuəndələri və media təmsilçiləri iştirak ediblər.

Əvvəlcə akademik Zərifə Əliyevanın İrpen şəhərindəki büstü önünə tər çiçəklər düzülüb, əziz xatirəsinə ehtiram ifadə olunub.

Akademik Zərifə Əliyeva adına 12 saylı humanitar “Linqvist” liseyinin direktoru Valentina Antonenko çıxış edərək bildirib ki, hər il olduğu kimi, bu gün də Zərifə Əliyevanın xatirəsi ehtiramla anılır.

“Mən çox xoşbəxt insanam ki, daim qəlbimdə Azərbaycan, Bakı, Naxçıvan, Şahtaxtı sevgisi var. Azərbaycanın görkəmli qızı Zərifə Əliyeva həm də Ümummilli Lider Heydər Əliyevin silahdaşı və etibarlı dostu, bu ölkəyə Lider, Prezident bəxş edən gözəl anadır”, – deyə Valentina Antonenko əlavə edib.

Sonra məktəbin şagirdləri Azərbaycan dilində dostluq şüarları, “Azərbaycan” şeirini səsləndiriblər.

Anım tədbirində çıxış edənlər Zərifə Əliyevanın zəngin həyatından və fəaliyyətindən danışıblar.

Daha sonra qonaqlar Zərifə Əliyeva adına 12 saylı orta məktəbə gedərək akademikin adını daşıyan muzeylə tanış olublar.

İrpen şəhərinin meri Oleksandr Markuşin bildirib ki, Zərifə Əliyevə insanlara kömək edən, işıq verən parlaq, əziz insan olub. O, dünyada tanınmış oftalmoloq olub. İrpendə hər zaman olduğu kimi, bu gün də görkəmli oftalmoloq-alimin xatirəsi böyük hörmətlə anıldı.

**XQ**

(əvvəli 1-ci səhifədə)

Ötən il sentyabrın 20-də Azərbaycan Silahlı Qüvvələrinin, 3 il əvvəl Qarabağda aşıb keçdiyi Zəfər yolunun davamı olaraq, bir sutkalıq antiterror əməliyyatında məğlubiyyətdən quduzlaşıb ağlını itirmiş Xankəndi xuntasını ölkəmizdən qovub çıxarması Xocalını da, nəhayət, bizə qaytardı. Xocalıya qayıtmağımızın bir qərinəyədək uzanması isə özlərin kölgəsində xumarlanan erməni millətçilərinin Haqqa meydan oxuması ilə yanaşı, çağdaş dünyaya "münsiflik" iddiasında olan Qərbin vasitəçilik missiyasının da açıq-aşkar idbar oyunu olaraq tarixə ləkə saldı.

Gözün aydın, şəhid Xocalı, artıq sən bizə, biz də sənə qayıtmışıq. Sən 32 il əvvəl əfsanəvi Səməndər quşu kimi yansan da, bu gün öz külündən baş qaldırıb yenidən dirilirsən. Sənə bu əfsanəvi dirilməni bəxş edən bu yerlərdəki min illərin ölməz türk ruhudur. Xalqımız sənə yenidən nəfəs verir, babaların müqəddəs əmanəti olaraq səni qəlbindəki saxlancdan çıxarıb əvvəlki düzəninə qaytarır. Səni xalqımıza qaytarmış müzəffər Komandanın bu dirçəlişə xeyir-dua verdiyi həmin tarixi gündə dediyi kimi: "32 ildən sonra – o qanlı faciədən sonra biz Azərbaycanın hər bir guşəsində, Qarabağın hər bir yerində sahib kimi, bu Vətənin övladları kimi yaşayırıq, qururuq, bərpa edirik. Azad edilmiş bütün torpaqlarda geniş quruculuq işləri gedir".

Bu quruculuq işlərin ilkin mənzərəsini, ümumi en-uzununu, boyartımını oxuculara çatdırmaq üçün Xocalıya ezam olunanda, ilk olaraq, ağıla gələn bu idi: "Şəhid Xocalının 32 illik faciəli tarixçəsindən sonra artıq 7 aydır ki, onun xoşbəxt dövranı başlanıb. Bu doğuluşu öz gözləri ilə görmək misilsiz bir xoşbəxtlikdir. Prezident İlham Əliyevin dediyi kimi, biz 30 il də, 300 il də keçsə Xocalı soyqırımını unutmayacağıq. Lakin artıq Xocalı barədə xoş duyğu-düşüncələrin də zamanı yetişib".

Səfər yoldaşım – Xocalı rayonunda doğulub 16 yaşınadək Kosalar kəndində yaşamış, erməni qəddarlığının, qaniçənliyinin hər üzünü görmüş məcburi köçkün, "İki sahil" qəzetinin əməkdaşı, yazıçı-jurnalist Mahir Rəsuloğlu ilə eyni qənaəti bölüşə-bölüşə dörd tərəfdən dağlarla əhatə olunmuş nadir vadiyə – qədim Xocalı mədəniyyətinin izlərini qoruyub saxlayan nəhəng yeraltı muzeyin girişinə çatırıq...

Bu xoş duyğulu anlarda güclü yağış da son damlalarını səpələyib göyün dərinliyində əridi. Günortaüstünün açıq səması altında ilk ağ evləri mərkəzi yolun hər iki tərəfində sıralanan yeni Xocalı öyünclü mənzərəsi ilə gözlərimiz önündə canlandı. Son 36 ildə Qarabağı yerüstü cəhənnəmə çevirmiş Xankəndi xuntasının rüsvayçı süqutundan sonra bu ərazidə ilk dirçəldilən məntəqələrdən olan Xocalıda indi qalib Azərbaycanın günü-gündən qüdrətlənən nəbzi təntənə ilə döyünür.

Xocalıda davam edən quruculuq işləri barədə xeyli məlumatlı olan Mahir müəllimin bələdçiliyi ilə mərkəzi küçə ilə irəliləyib bərpa-quruculuq işlərinin qərargahı sayılan birmərtəbəli tikiliyə çatırıq. Binanın bir tərəfində ərazidəki quruculuğun ağırlığını daşıyan baş podratçı – "Bakıabadlıq" şirkətinin Xocalı – Malıbəyli şöbəsi yerləşir. Əks tərəfdə isə artıq Əsgərana köçmüş Xocalı Polis şöbəsinin yerli bölməsi fəaliyyət göstərir.

Biz içəri daxil olanda tikinti-abadlıq şirkətinin, əsasən, gənclərdən ibarət 10–12 mühəndis-nəzarətçisinin bir neçəsi bərpaya cəlb edilmiş yeni məhəllənin xəritəsi ətrafında müzakirə aparırdılar. O biri gənclər isə kompüterdə başqa bir məhəllənin evlərinin bərpa eskizlərinin işçi planını hazırlayırdılar. Bu işlərə rəhbərlik edən baş mühəndis-nəzarətçi Akif Eyvazov səhər tezdən Malıbəyli sahəsinə getdiyindən o gələnədək Xocalıdan aparılan planauyğun və sistemli bərpa-quruculuq işlərinin ardıcıllığı və gedişi ilə tanış olduq.

# Şəhid Xocalı, gözün aydın – biz qayıtdıq!


İşğaldan əvvəlki Xocalı



**Mühəndis-nəzarətçi Şahsüvar Sadiyev bildirdi ki, erməni vandallar şəhərdəki fərdi evlərin hamısını yandırıb və dağıdıblar:**

– Məqsəd bu olub ki, əhalisi soyqırımına məruz qalmış şəhərin sağ qalmış sakinləri heç zaman bu yerə qayıda bilməsinlər. Qarabağ münaqişəsinin ilk dövründə – Xocalı rayonu yaradılanda, onun mərkəzi şəhər kimi inkişaf etdiriləndə burada tikilmiş bir neçə inzibati bina və kommunal yaşayış binasında hərbi-separatçı xuntanın əlaltıları məskunlaşıblar. Həmin tikililər baxımsızlıqdan bərbad vəziyyətə düşüb. Ərazidə aparılan qazıntı işləri zamanı müxtəlif yerlərdə, hətta asfalt yolun altında isə Xocalı şəhidlərinin ümumi məzarları aşkar edilib.

Öyrəndik ki, yüksək sürət və keyfiyyətlə aparılan, kompleks ardıcıllığına hər cür təminat yaradılan işlər bir neçə mərhələdən ibarətdir. Ermənilər Xocalı və ətrafdakı məntəqələri tələm-tələsik tərk etdiklərinə, həm də Rusiya sülhməramlıları yaxınlıqda yerləşşdiyinə görə ərazini minalamağa macal tapmayıblar. Lakin bəzi evlərdə qumbaraları partlayışa hazır vəziyyətə gətiriblər. Odur ki, ANAMA əməkdaşları lazımi təhlükəsizlik tədbirləri görüblər. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin yerli bölməsi isə ərazidə salamat qalmış tikililərin uçotunu aparıb, onların sahiblərini müəyyənləşdirib.

**Elə bu vaxt "Bakıabadlıq" qrupunun layihə rəhbəri Akif Eyvazov da gəlib çıxır. O aldığımız məlumatın davamı olaraq bildirir:**

– Bərpa-quruculuq işləri Fövqəladə Hallar Nazirliyi mütəxəssislərinin apardıqları araşdırmaya uyğun olaraq davam etdirilir. Məhv edilmiş evlər özüldən tikilir. Salamat evlər və divarlar isə yoxlanandan sonra möhkəmliyi nəzərə alınıb ya bərkidilir, ya da sökülüb yenidən tikilir. Bütün tikililərin layihələri Dövlət Şəhərsalma və Arxitektura Komitəsində hazırlanıb təsdiq edilir. Baş sifarişçi də bu qurumdur.

İlkin olaraq 43 ev sökülüb və yenidən tikilir. 253 ünvanda isə bərpa-təmir işləri aparılır. "Qaçqınkom"la birlikdə həmin evlərə köçürüləcək ailələrin tərkibi öyrənilir, adamların sayına uyğun olaraq bəzi tikililərə yeni otaqlar əlavə edilir. May – iyun aylarında ilk 50 ailənin köçürülüb məskunlaşdırılması üçün bütün zəruri işlər sürətlə həyata keçirilir. 200-dən artıq inşaatçı havaların yağıntılı olmasına baxmayaraq təmir-bərpa işlərini geçikdirmədən aparırlar.



Sonra baş-mühəndis nəzarətçi ilə aparılan işlərlə tanış olmaq üçün şəhərin ərazisini gəzirik.

Yenidən "dirilən" şəhid Xocalıda aparılan müasir, sürətli və genişmiqyaslı tikinti-quruculuq işlərinin bir diqqətçəkən əlaməti burada çalışanların ölkəmizin bütün bölgələrinin dəmir biləkli oğlanlarından ibarət olmasıdır. Böyük həvəslə işləyən işçilərin hansı ilə söhbət ediriksə Xocalının dirçəldilməsində iştirak etməsindən məmnunluq duyduğunu söyləyir. İnşaatçıların arasında Xocalı və ərtaf məntəqələrdən – Kərkicahandan, Meşəlidən, Kosalardan, Cəmillidən, Umudludan, Sırxavənddən məcburi köçkünlərin olmasını görmək xüsusilə sevindirici idi. Qarabağ müharibəsi qaziləri isə buradakı fəaliyyətlərindən döyüş yollarının davamı olaraq söhbət açırlar.

**Ağdərənin Umudlu kəndindən məcburi köçkün, I Qarabağ müharibəsi qazisi, keçmiş polis işçisi İbrahim Axundov deyir:**

– Biz düşmənin xarabazara çevirdiyi əraziləri dirçəltməklə erməni vandalların sinəsinə dağ çəkirik. Qoy dünyanın ağıllı adamları onların xarabalıq bayquşları olduqlarını bir daha görüb belə vəhşiliyə birdəfəlik sədd çəksinlər. Xocalılar tarixin ən sivil dövründə vəhşilik zamanlarının qırğınına, zülmünə məruz qalıblar. Qoy onlar indi öz doğma yurdlarında ən yüksək rahatlıq tapsınlar. Burada bizim üçün hər cür şərait yaradılıb. Yaxınlıqdakı Noraguh kəndində və salamat qalmış kommunal evlərdə məskunlaşmışıq. İşçilərə gündə 3 dəfə ev xörəkləri verilir. İnşaatçılar ölkə üzrə müvafiq işçilərdən yüksək maaş alırlar. Burda hamı özünü mehriban bir ailənin üzvü hesab edir. Sıralarımızda ölkənin hər yerindən gələnlər var.

Tanış olduğumuz müxtəlif peşə sahibi olan inşaatçılardan Afət Fərzəliyev İsmayıllıdan, Şahmar Quliyev Neftçaladan, Saməddin Hüseynov Biləsuvardan, Mübariz Musayev Ağdaşdan, Əlvan Əliyev Tərtərdən, Röyal Hüseynli Bərdədən, Firudin Fərhadov Xaçmazdan gəliblər. Bir sözlə, şəhid Xocalıya bütün Azərbaycan nəfəs verib onu yenidən dikəldir. Sıralanmış ağ evlər xocalılların yeni ağ günlərinin müjdəçisi kimi xoş duyğular yaradır.

Söhbət xalqımıza son həftələrdə kövrək hisslər yaşadan Xocalıda da ümumi məzarlıqların aşkar edilməsindən düşəndə bələdçimiz Şahsüvar Sadiyev şəhər qəbiristanlığının kənarında axtarış işlərinin davam etdirildiyini söyləyir və bizi əraziyə aparır. Bir vaxtlar yerli "hökumət"ə – Xocalı sovetinə rəhbərlik etmiş Sovet Allahverdiyev bir neçə aydır ki, kütləvi məzarlıqların aşkar edilməsinə rəhbərlik edir.

**Qocaman məmur nə qədər ağır olsa da artıq 12 həmyerlisinin qalıqlarını aşkar etməyə nail olmasından məmnunluqla söhbət açır:**

– Qaniçən ermənilər şəhidlərin bir hissəsini alovlanan evlərə atıblar. Qaçıb canını qurtarmaq istəyənləri isə qətlə yetirdikləri yerlərdə necə gəldi basdırıblar. Şəhər kənarında ümumi məzarlıqlar barədə şahidlərin göstərdikləri yerlərdə axtarışları davam etdiririk. "Silos quyusu" deyilən ərazidə kütləvi məzarlıq olması barədə məlumatı qarış-qarış yoxlayırıq. Xocalı soyqırımı nə qədər faciəlidirsə, şəhidlərin bir çoxunun izsiz-soraqsız olması bir o qədər kədərlidir. Odur ki, axtarışları sona qədər davam etdirəcəyik.



**Xocalıdan məcburi köçkün Asif Usubov da həmyerlisinə axtarış işlərində kömək edir.** O söylədi ki, insanlıq simasını itirmiş erməni quldurlar dirilərlə bərabər, ölülərə də divan tutublar. Şəhər qəbiristanlığı darmadağın edilib. İlkin orta əsrlərin yadigarı olan qədim qəbiristanlıq da dağıdılıb, məzarüstü qədim yazılı daşlar, balbaslar oğurlanıb. Bakıdan gəlmiş alimlər qrupu bu vandallığı öyrənib elmi bərpa planı hazırlayır.

**Bu yeraltı muzeyi tədqiq edən AMEA Arxeologiya və Antropologiya İnstitutu məhkəmə arxeologiyası şöbəsinin əməkdaşı Akif Quliyev dedi:**

– Antik Xocalı mədəniyyətinin izlərini qoruyub saxlamış, düşmənin qarət edib dağıtdığı qədim qəbiristanlıqda apardığımız indiki tədqiqat bu ərazinin qədim sahiblərinin türklər olduğunu bir daha sübuta yetirir. Erməni vandallar bu həqiqəti yer altından və üstündən silmək istəsələr də, çox yadigarları məhv etsələr də, aparsalar da yeraltı muzey bizə yenə lazımi məlumatı verir. Ermənilər ərazidəki qədim 3 kurqanı və orta əsr türbəsini də dağıdıb və qarət ediblər.

Müsahibimiz sonda bildirir ki, bütün bu vəhşiliklər bəşəri cinayətlər kimi qeydə alınır. Qədim Xocalı mədəniyyəti bütün dünya üçün önəmli olan antik tarixi qaynaqdır. Toplanan materiillar beynəlxalq elmi dairələrə də təqdim ediləcək.

Dağıdılmış şəhər qəbiristanlığının yuxarı tərəfində kimliyi 32 ildən sonra məlum olmuş 10 Xocalı şəhidi bu yaxınlarda yüksək ehtiramla, ləyaqətlə dəfn edilib. Sağ qalmış xocalılar kimi, taleyi illər boyu naməlum qalmış şəhidlərin də doğma yurda dönüşü İlahi ədalətin qalib gəlməsinin daha bir göstəricisidir. Onların ruhuna dualar oxuyub səfərimizi bitiririk.

Sonda 32 il əvvəl Xocalı faciəsindən sonrakı günlərdə qəzetimizdə dərc edilmiş hüznlü yazımın son cümlələrini xatırlayıram: **"Təbiətdə ayı ilə canavar birlikdə ov etmir. Ayıya və canavara bənzər ikiayaqlı vəhşilər isə Xocalıda bu qaydanı pozaraq birgə insan ovu elədilər. Bütöv bir şəhəri şəhid edib yer üzündən sildilər. Haqqın hökmü ilə Xocalı yenidən diriləcək. Bu qədim yaşayış məntəqəsi və gənc şəhərdə analar yenidən eyvanlardan yuyulmuş uşaq paltarları asacaqlar".**

Gözün aydın Xocalı, o gün gəldi. Bundan sonra Xocalıda eyvanları öz əcdadlarının torpağında doğulmuş uşaqların paltarları bəzəyəcək. Şəhid Xocalının başı üstündə dolaşan nakam ruhlar bu mənzərədən dinclik tapacaq.

**Tahir AYDINOĞLU**
**XQ**

**Bakı–Xocalı–Bakı**





# Səkkiz oğulun "gizli cəbhə"də hünər dastanı

(əvvəli 1-ci səhifədə)

Qeyri-bərabər döyüşdə kəşfiyyatçılarımız düşmənin xeyli canlı qüvvəsini məhv edirlər. Ancaq aprelin 10-da silah-sursatları tükəndiyindən düşmənin əlinə keçməmək üçün qumbara ilə özlərini partladırlar. Səkkiz nəfərdən ibarət olan qrupun yeddi üzvü – leytenant rütbəli komandir Elxan Ağayev, leytenant Vüqar Yarəhmədov, kiçik çavuş Anar Rzayev, sıravilər Dinar Mustafayev, Aqşin Həsənov, Nizami Ələkbərov və Fariz Cavadov şəhid olurlar. Bir nəfər – Aqil Əhmədov isə ağır yaralanaraq huşsuz vəziyyətdə əsir düşür.

Ermənistanın hərbi-siyasi rəhbərliyi şəhidlərimizin nəşinə qarşı və əsir götürülmüş hərbçimizlə öz xislətinə uyğun olaraq davranır. Təcavüzkar tərəf şəhidlərin meyitlərini verməkdən və əsiri qaytarmaqdan boyun qaçırır. Şəhidlərin nəşini yalnız 1997-ci il oktyabrın 14-də geri almaq mümkün olur. İki gün sonra – oktyabrın 16-da öz canlarını göz qırpmadan Vətən üçün fəda edən cəsur kəşfiyyatçılar İkinci Fəxri xiyabanda təntənəli mərasimlə torpağa tapşırılırlar.

Əsir götürülmüş hərbçimiz isə əvvəlcə Xankəndiyə, sonra İrəvana aparılır. İrəvanda onun üzərində qondarma məhkəmə prosesi başladılır. "Məhkəmə" 1998-ci ilin fevralında A.Əhmədovu saxta ittihamlarla ən ağır cəzaya – güllələnməyə məhkum edir.

Döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının xatirəsi dövlətimiz tərəfindən əziz tutulur. Onların hər biri Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il iyunun 24-də imzaladığı fərmanla "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunurlar. Fərmanda onların Azərbaycan torpaqlarının erməni işğalçılarından müdafiəsində igidlik və fədakarlıq göstərdiklərinə, Milli Ordunun hərbi hissələri qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə təltif edildikləri qeyd olunur.

Həmçinin Azərbaycan dövlətinin və şəxsən ulu öndər Heydər Əliyevin göstərdiyi böyük səylər nəticəsində, uzun sürən danışıqlardan sonra A.Əhmədov 1999-cu ilin martında əsirlikdən xilas olunaraq Vətənə gətirilir.

***

44 günlük Vətən müharibəsinin ilk dövrlərində azad edilən yaşayış məntəqələrindən biri də Xocavənd rayonunun Hadrut qəsəbəsi oldu. Hadrut 2020-ci il oktyabrın 9-da düşmən əsarətindən qurtuldu. Qəsəbənin strateji əhəmiyyəti sonrakı qələbələrimizdə mühüm rol oynadı. Yeri gəlmişkən, Ermənistanın təbliğat maşınının Hadrutun itirilməsi ilə bağlı bir neçə gün dezinformasiya yayması yaqin ki, hər kəsin yaxşı yadındadır.

Torpaqlarımız işğaldan azad edildikdən sonra qəhrəman kəşfiyyatçıların şəhid olduqları yerin yaxınlığında – Hadrutun ətəklərində onların xatirəsinə "Şəhidlər bulağı" inşa olunub. Burada onların xatirə lövhəsi yaradılıb. Xatirə lövhəsinə şəhid kəşfiyyatçıların fotoları vurulub. Önünə gül dəstələri düzülüb. 2021-ci ildən etibarən hər ilin aprelində – kəşfiyyatçıların düşmənlə ölüm-dirim savaşı apardıqları və şəhid olduqları günlərdə burada anım mərasimləri keçirilir.

Bu il də həmin yerdə anım mərasimi keçirildi. Mərasimdə şəhid kəşfiyyatçıların doğmaları, onların komandiri, ehtiyatda olan polkovnik, "Azərbaycan Bayrağı" ordenli Xətai Baxışov, Füzuli rayon məktəbliləri və onların müəllimləri, həmçinin Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin hərbi qulluqçuları iştirak edirdilər. Tədbirin əvvəlində ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşlərdə şəhid olmuş qəhrəman Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Daha sonra Azərbaycanın Dövlət Himni səsləndirildi.

Şəhid kəşfiyyatçıların xidmət etdikləri hərbi hissənin komandiri Xətai Baxışov onların igidliyindən qürur hissi ilə danışdı: "Bu gün burada xatirəsini anmaq üçün toplaşdığımız igidlər mənim ən yaxşı xüsusi təyinatlı kəşfiyyatçılarımdan ibarət dəstəm olub. Onlar o qədər cəsur idilər ki, biz onları "Qorxmazlar dəstəsi" adlandırırdıq. Həmin gün verilən döyüş tapşırıqlarını fərqli istiqamətlərdə yerinə yetirmək üçün iki kəşfiyyat qrupu göndərilmişdi. Onlardan hər ikisi tapşırığı uğurla yerinə yetirmişdi. Qruplardan biri qarşıya qoyulmuş tapşırığa əməl etdikdən sonra sağ-salamat geri qayıtsa da, digər qrupumuz, təəssüf ki, düşmən pusqusuna düşmüşdü. Kəşfiyyatçılarımız düşmənlə sona qədər vuruşmuş, lakin sursatları bitdiyi üçün son çarə kimi özlərini partladaraq, şəhid olmuşlar. Onu da deyim ki, düşmənə əsir düşməmək üçün özlərini kollektiv şəkildə qumbara ilə partladaraq şəhadətə ucalmaq müasir hərb tarixində ilk hal idi".






Komandir qeyd etdi ki, az sayda qrup əsl qəhrəmanlıq nümayiş etdirib, sayca onlardan qat-qat çox olan və yaxşı silahlanmış düşmənə güclü müqavimət göstərib: "Kəşfiyyat qrupunun müqaviməti və döyüş əzmi düşməni o qədər heyrətləndirir ki, onların komandanlığı öz əsgərlərinə nümunə çəkərək deyiblər ki, əsl kəşfiyyatçı dəstəsi belə olmalıdır. Bu qəhrəmanlıq dastanı Azərbaycan hərbçilərinin Vətənə sonsuz məhəbbət və yüksək sədaqət nümunəsidir".

X.Baxışov şəhidlərin nəşinin geri alınmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərini xüsusi vurğuladı.

Çıxış edən şəhid ailələrinin üzvləri Prezident, müzəffər Ali Baş Komandan, İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və ötən il keçirilən bir sutkalıq antiterror tədbirlərində Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam təmin olunmasını, işğaldakı Vətən torpaqlarının azad edilməsini, bütün şəhidlərin qisasının alınmasını ən böyük təskinlik kimi qiymətləndirdiklərini bildirdilər. Onlar övladlarının, doğmalarının şərəfli döyüş yolu keçdikləri, vaxtilə qanlarının töküldüyü azad edilmiş torpaqlarda bu gün qürurla gəzməyi ən böyük xoşbəxtlik hesab etdiklərini vurğuladılar.

Sonra mərasimdə məktəblilərin hərbi-vətənpərvərlik ruhunda çıxışları oldu. Tədbir xatirə fotosunun çəkdirilməsi ilə başa çatdı.

Tədbirdən sonra şəhid ailələrinin üzvlərinə yaxınlaşaraq onlardan həm övladları barədə məlumat aldıq, həm də təəssüratlarını öyrəndik. **Şəhid Anar Rzayevin anası Siyafət Rzayeva dedi:** "Biz bura dördüncü dəfədir ki, gəlirik. Birinci dəfə gələndə halım çox pis idi. Elə bilirdim ki, oğlum burada məni gözləyir. Gəlib Anarımı görəcəm. Elə bilirdim oğlum əsirdir... Dövlətimiz sağ olsun ki, hər il bizim bura səfərimizi təşkil edir".



S.Rzayeva qeyd etdi ki, oğlu Anar 1976-cı ildə Sumqayıtda dünyaya gəlib. Qarabağda müharibənin getdiyi dövrdə Azərbaycan Dövlət Neft Akademiyasında (hazırda Neft və Sənaye Universiteti–S.H.) təhsil alırmış. Ancaq təhsili yarımçıq qoyaraq hərbi xidmətə yollanıb: "Anar dedi ki, analar-bacılar erməni girovluğundadır. Bizim burada qalmağımızın mənası yoxdur, ana. Biz gedib onları da, torpaqlarımızı da azad etməliyik. Şəhidlərin hamısı bizim balalarımızdır. Biz övladlarımızı heç bir şəhiddən ayırmamışıq. Ali Baş Komandanımız, şəhidlərimiz, qazilərimiz olmasaydı, bəlkə də, Vətənimiz əldən gedərdi".

**Daha sonra şəhid kəşfiyyatçıların qrup komandiri olmuş leytenant Elxan Ağayevin qardaşı İlham Ağayevlə həmsöhbət olduq:** "Elxan 1973-cü ildə Bakıda anadan olmuşdu. Səkkizinci sinfi bitirdikdən sonra peşə məktəbində oxumuşdu. İdman ustası idi. Taekvondo üzrə qara kəmər qazanmışdı. 1992-ci ildə könüllü şəkildə ordu sıralarına yazılmışdı. Xüsusi hazırlıq kursu keçdikdən sonra ona leytenant rütbəsi verilmişdi. Elxanın döyüş yolu Laçından keçib, Ağdərə şəhərinin alınmasında iştirak edib.



Döyüşlərdə fərqləndiyi üçün ona xatirə hədiyyəsi olaraq komandanlıq tərəfindən saat bağışlanmışdı. 1997-ci ildə artıq bölük komandiri idi".

İlham Ağayev Elxanın həm də dostcanlı, qohumcanlı, yaxşı təşkilatçılıq qabiliyyətinə malik olduğunu vurğuladı: "Ailə məclislərimizin, necə deyərlər, gözü Elxan idi. Çox bacarıqlı idi. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şükürlər olsun ki, bu yerləri görmək bizə qismət oldu. Ali Baş Komandanımıza minnətdarlığımızı bildiririk".

**Şəhid Nizami Ələkbərovun bacısı Mətanət Əsədova isə dedi ki,** qardaşının qismətində şəhidlik zirvəsinə ucalmaq varmış: "Nizami deyirdi ki, torpaqlarımız düşmənin tapdağı altındadır, onu azad etməliyik. Qardaşım dostları ilə birlikdə qəhrəmanlıq göstərərək şəhid olub. Həmin vaxt o, 21 yaşına təzə qədəm qoymuşdu. İstiqanlı gənc idi. Kəndin xeyrindən-şərindən qalmazdı".



Öyrəndik ki, şəhid qardaşımız 1977-ci ildə Ağdam rayonunun Quzanlı kəndində anadan olub. 1996-cı ilin iyununda hərbi xidmətə çağırılıb: "Cəmi dörd il əvvələdək bu yerlərə səfər etmək qeyri-mümkün idi. Allah dövlətimizi var eləsin! Allah bütün şəhidlərimizə rəhmət etsin, qazilərimizə cansağlığı versin!"

**Şəhid Dinar Mustafayevin bacısı Şəfəq Mustafayeva** da dördüncü dəfədir qardaşının şəhid olduğu yeri ziyarət edir: "Biz qardaşımın şəhid olması xəbərini iki ay sonra öyrəndik. O vaxtadək ondan xəbər tuta bilmirdik. Qardaşım dünyanın acı və şirinliyini dadmamış, 20 yaşında şəhid oldu. Dövlətimiz tərəfindən mənzillə də təmin edildik. Bütün bunlar bizə təsəllidir".

Ş.Mustafayeva əslən Qərbi Azərbaycandan olduqlarını vurğuladı: "Dinar da 1977-ci ildə Qərbi Azərbaycanda – Göyçənin Gölkənd kəndində dünyaya göz açmışdı. 1984-cü ildə həmin kənddə orta məktəbə getmişdi. 1988-ci ildə biz məlum hadisələrlə əlaqədar Azərbaycana pənah gətirdik. Şəmkir rayonunun Ələsgərli kəndində məskunlaşdıq. 1995-ci ildə Dinar orduya çağırıldı. Xidmət dövründə də dəfələrlə fərqlənib. Qoçaq, istiqanlı oğlan idi. Onun nəşi bizə verilənədək – 1997-ci il oktyabrın 16-dək qardaşımın şəhid olduğuna inana bilmirdik. İnsan yaşadıqca elə bilir ki, dünyanı tutub duracaq. Eləcə də əzizlərimizlə, qardaşımla bağlı bu düşüncədə oluruq. Amma sonra görürsən ki, insanın yaşayışı onun öz əlində deyilmiş... Biz qədər-qismətin, ömür kitabının səhifələrini yaşayırıqmış. Qardaşımın sevdiyi qız var idi, amma qismət olmadı. Onun qisməti ən uca zirvəyə qalxmaq imiş..."



**Qrupun sağ qalan yeganə üzvü Aqil Əhmədov isə o məşəqqətli günləri belə xatırlayır:** "1997-ci ilin aprel ayı idi. Düşmənlə qeyri-bərabər döyüşdə kəşfiyyat qrupumuzun 7 üzvü şəhid oldu, mən isə ağır yaralanaraq huşsuz vəziyyətdə düşmən tərəfindən əsir götürüldüm. 1998-ci ilin fevral ayında mənimlə bağlı saxta məhkəmə prosesi keçirildi və "bir neçə maddə" ilə mənə ittiham irəli sürərək, güllələnmə cəzası təyin etdilər. Hər dəfə ayaq səsləri eşidəndə, qapı açılanda elə bilirdim ki, məni güllələnməyə aparmaq üçün gəliblər. 1999-cu ilin martında, yəni 1 il 11 aydan sonra əsirlikdən azad edildim".



O qeyd etdi ki, əsirlikdə olduğu zaman ağır yaralı olmasına baxmayaraq, ermənilər tərəfindən ağır işgəncələrə məruz qalıb. Bunun nəticəsində birinci qrup Qarabağ əlilidir: "Hazırda sağalmaz xəstəliyim var. Ölkə daxilində və xaricdə dəfələrlə müalicə almağıma baxmayaraq, heç bir faydası yoxdur. Ulu öndər Heydər Əliyevin xidmətləri nəticəsində 6 ay sonra şəhid qardaşlarımın nəşi düşməndən geri alındı. 1999-cu ilin martında yenə ulu öndərin böyük səyləri nəticəsində mən də əsirlikdən xilas oldum".

A.Əhmədov onu da bildirdi ki, artıq dördüncü dəfədir bu məkanı ziyarət edir: "Hər ziyarətimdə eyni hissləri yaşayıram. Vətən uğrunda, bayrağımızın uca olması naminə canlarını fəda edən qardaşlarımıza Allahdan rəhmət diləyirəm. Onların məkanları cənnət, məqamları uca olsun!"

Sonra şəhid ailəsi üzvlərinin Şuşaya səfəri təşkil olundu. Şəhərin görməli yerləndə, o cümlədən, İsa bulağında olduq. 1883-cü ildə inşa olunmuş Yuxarı Gövhər ağa məscidində namaz qıldıq.

Bundan sonra Xankəndi şəhərinə yollandıq. Burada 2023-ci il noyabrın 8-də Zəfər paradının keçirildiyi Zəfər meydanında olduq. Səfər şəhərdəki Qarabağ Universitetinin binası ilə tanışlıqla başa çatdı.

Öz qəhrəmanlıqları ilə xalqımızın mübariz ruhunun yüksəlməsinə təkan verən şəhid kəşfiyyatçıların ailə üzvləri ilə geri qayıdarkən qəlbimizdə bu düşüncə hakim kəsilmişdi: Şəhidlərimiz Vətən eşqinə abidə qoyan qəhrəmanlardır. Onlar müharibə alovunda yanan, amma külündən yenidən doğulan xalqın qürur yeri, qəhrəmanlıq rəmzidir. Məhz bu qəhrəmanların misilsiz hünəri gələcəyə yön verdi, nəsillərə Vətəni sevməyi öyrətdi. Müstəqillik dövrünün övladları bu qəhrəmanlıqları görə-görə, öyrənə-öyrənə özləri də qəhrəman oldular. Bu gün Vətənimizin hər yerində qələbə ruhu var. Bu ruhu yaşadan bizim qəhrəmanlarımızın azad etdikləri torpaqlarda qaldırdıqları ay-ulduzlu, üçrəngli Dövlət Bayrağımızdır. O bayraqla bir yerdə bizim Vətən eşqimiz də ucalır. İndi bu eşqin dilimizin əzbərinə çevrilən əbədi həqiqəti var: Qarabağ Azərbaycandır!



***Səxavət HƏMİD***
***XQ***

**Bakı–Xocavənd–Şuşa–Xankəndi–Bakı**

# Regional inkişafın davamlı uğurları



(əvvəli 1-ci səhifədə)

Sonuncu "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində həyata keçirilən layihələr nəticəsində yüksək göstəricilər əldə edilib. Regionlarda infrastruktur tədbirlərinin icrası, o cümlədən yol-nəqliyyat, elektrik, qaz və su təchizatı sistemlərinin yenilənməsi işləri uğurla davam etdirilib.

Ümumiyyətlə, regionların sürətli tərəqqisi respublikada reallaşdırılan davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu istiqamətdə qəbul edilən və yüksək səviyyədə gerçəkləşdirilən dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulan vəzifələrin həyata keçirilməsi respublikada qeyri-neft sektorunun davamlı inkişafına, yerlərdə kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına, nəticədə isə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib.

Prezident İlham Əliyevin aprelin 9-da Hacıqabul rayonu, Gəncə və Qəbələ şəhərlərinə səfəri bir daha göstərdi ki, əvvəllər olduğu kimi, sonuncu (2019–2023-cü illər) regional proqramda da nəzərdə tutulan tədbirlərin uğurla həyata keçirilməsi Azərbaycanın yuxarıda adları çəkilən rayonlarının hər birinin malik olduğu özünəməxsus təbii, maddi əmək resurslarından, coğrafi, nəqliyyat-kommunikasiya imkanlarından səmərəli istifadə edilməsi, yoxsulluğun səviyyəsinin aşağı salınması, məşğulluq problemlərinin həlli üçün kifayət qədər əlverişli zəmin yaradıb. Sənəddə sosial, infrastruktur, aqrar sahələrin inkişafı ilə bağlı tədbirlər, yeni iş yerlərinin yaradılması ilə əlaqədar layihələr xüsusilə diqqətdə saxlanılıb. Nəticədə respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində mühüm irəliləyiş əldə olunub.

Prezident İlham Əliyev Hacıqabul rayonunda vətəndaşların rahat gediş-gəlişini təmin etmək məqsədilə əsaslı şəkildə yenidən qurulan uzunluğu 39 kilometr olan iki hərəkət zolaqlı Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun açılışında iştirak edib. Bu yolun istifadəyə verilməsi ilə 12 mindən çox əhalinin rahat gediş-gəlişi təmin olunub, yük və sərnişin daşınması asanlaşıb.

Dövlətimizin başçısı Hacıqabul rayonunda isə "Agro Dairy" MMC-yə məxsus 4200 hektar torpaq sahəsinə Kür çayından nasos stansiyası vasitəsilə suvarma suyunun çatdırılması üzrə suvarma qurğuları kompleksi ilə tanış olub. Qeyd edək ki, Azərbaycan Prezidenti əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əkin dövriyyəsinə əlavə torpaqların cəlb olunması işlərinin davam etdirilməsi və bu istiqamətdə yeni layihələrin hazırlanması məqsədilə 2021-ci il mayın 29-da Sərəncam imzalayıb. Sərəncama uyğun olaraq Hacıqabul rayonu ərazisində "Agro Dairy" MMC-yə məxsus torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün Kür çayının Sabirabad rayonundan keçən hissəsində sərfi saniyədə 3 kubmetr olan 4 aqreqatlı üzən nasos stansiyasının, boru kəmərinin və dəmir-beton kanalının tikintisinə başlanılıb.

Prezident İlham Əliyev səfər çərçivəsində Gəncə şəhərində də olub və burada Ekoloji Park Kompleksinin tikintisi ilə tanış olub. Dövlət başçısına Qərb bölgəsində ilk dəfə Gəncə şəhərində salınan Ekoloji Park Kompleksinin tikintisinə və onun ətrafında abadlıq işlərinə 2021-ci ilin dekabrında başlanıldığı, Gəncəçayın sağ sahilində yerləşən və son tamamlama işləri həyata keçirilən kompleksin 11 hektar ərazini əhatə etdiyi barədə ətraflı məlumat verilib.

Dövlətimizin başçısının Gəncə səfəri çərçivəsində açılışında iştirak etdiyi şəhər idman sarayı ölkə rəhbərinin müvafiq sərəncamına əsasən inşa edilib, tikintisinə isə 2018-ci ilin iyununda başlanılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin martında tam başa çatdırılıb.

Belə nəhəng idman qurğusunun yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, həmin gün Gəncə şəhər stadionunun təməlini qoyub. Bununla bağlı dövlətimizin başçısına stadionda yaradılacaq şərait barədə məlumat verilərək 1959-1963-cü illərdə inşa edilən Gəncə şəhər stadionunun 1964-cü ildə istismara verildiyi, son illərdə bu idman infrastrukturunda tamaşaçı tribunalarının yararsız vəziyyətə düşdüyündən və texniki cəhətdən istismarı mümkün olmadığından ərazidə köməkçi məşq meydançaları və futbol akademiyası binası tikildiyi bildirilib.

Prezident İlham Əliyevin 2023-cü il 6 oktyabr tarixli Sərəncamına əsasən, Gəncə şəhər stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və həyata keçirilməsi üçün Prezidentin ehtiyat fondundan ilkin olaraq bir milyon manat ayrılıb. Stadionun layihələndirmə işləri artıq başa çatdırılıb. Qeyd edildiyi kimi, aprelin 9-da isə ölkə rəhbəri tərəfindən stadionun təməli qoyulub.

Dövlətimizin başçısı Qəbələyə səfəri zamanı "Hacıalılı" elektrik yarımstansiyası və Regional Təlim Mərkəzinin, Rayon Mərkəzi Xəstəxanasının, Bum qəsəbəsində tam orta məktəbin yeni binasının istifadəyə verilməsində və Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun açılışında iştirak edib.

Qəbələdə istifadəyə verilən mühüm sosial əhəmiyyətli obyektin–istehlakçıların elektrik enerjisi təchizatının keyfiyyətinin yüksəldilməsi məqsədilə yenidən tikilən 110/35/10 kV-luq 26 meqavat-amperlik "Hacıalılı" yarımstansiyasının gücü 41 MVA-ya çatdırılıb. Rayon Mərkəzi Xəstəxanasının istifadəyə verilməsi ilə Qəbələdə vətəndaşların hərtərəfli tibbi xidmətlə təmin edilməsi, onların müalicə və müayinə işinin yüksək səviyyədə təşkili daha da yaxşılaşdırılıb. 17 minə yaxın əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun işə salınması isə rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasını, həmçinin bu bölgədə turizmin və kənd təsərrüfatının inkişafını, eləcə də insanların həyat tərzinin yüksəlməsini şərtləndirib. Bum qəsəbəsində tam orta məktəbin yeni binası istifadəyə verilməsi isə dövlətimizin prioritetləri sırasında müasir məktəblərin qurulmasının və təhsil müəssisələrinin əsaslı təmirinin bariz ifadəsinə çevrilib.

Prezident İlham Əliyevin Hacıqabul rayonu, Gəncə və Qəbələ şəhərlərində olması bir daha göstərir ki, dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərin bərpa və yenidən qurulmasının prioritet elan etməsinə baxmayaraq, respublikamızın digər şəhər və rayonlarının inkişafını da diqqətdə saxlayır. Bunu belə bir fakt da təsdiqləyir: ölkə rəhbəri 2021-ci ildə 17, 2022-ci ildə 14, 2023-cü ildə 11, bu ilin ötən dövründə isə 5 rayonda 47 səfərdə olub. Ümumilikdə, Prezident İlham Əliyev işğaldan azad olunan ərazilər də daxil olmaqla, 2021-ci ildən indiyədək bölgələrə 140-a yaxın səfər edib. Bu, Azərbaycan Prezidentinin bölgələrin inkişafına diqqət və qayğısının parlaq ifadəsidir.

***İlqar HƏSƏNOV,***
***Vaqif BAYRAMOV***
***XQ***

# Azərbaycan dünyanın cəlbedici investisiya ölkəsidir

**Beynəlxalq Valyuta Fondu (BVF) Azərbaycanı ən böyük və qabaqcıl potensiala malik olan yeddi dövləti siyahısına daxil edib. Bu, qurumun 2024-cü ilin hesabatında əksini tapıb. Hesabatda Azərbaycanın dünyanın yeddi ən cəlbedici investisiya ölkəsi kimi önə çəkilməsi olduqca təqdirəlayiq haldır.**

Əslində mötəbər beynəlxalq maliyyə qurumunun ölkəmizi "Top-7"-yə daxil etməsi gözlənilən idi. Çünki ötən 20 ildən artıq bir müddətdə əsrə bərabər inkişaf yolu keçmiş Azərbaycan dünyada öncül islahatçı ölkələrdən birinə çevrilib. Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının reallaşdırılması ilə Azərbaycanın qapıları xarici sərmayədarların üzünə açıldıqdan sonra ölkəmiz dünyada əlverişli biznes məkanı kimi tanınıb. Azərbaycanda həyata keçirilən iri neft-qaz layihələrinin uğurlu nəticələri iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı üçün əlverişli imkanlar yaradıb. Bütün bunlar isə ölkə iqtisadiyyatının cəlbediciliyinin bir qədər də artmasına səbəb olub. Elə son 20 ildə Azərbaycanın iqtisadiyyatına 270 milyard dollardan çox sərmayə yatırılması da məhz bunun bariz nümunəsidir.



2023-cü ildə isə Azərbaycan iqtisadiyyatına yönəldilmiş birbaşa xarici investisiyaların həcmi 6,7 milyard dollar təşkil edib ki, bu da son 5 il üzrə ən yüksək göstərici hesab olunur. Bu tendensiya cari ilin ilk rübündə də davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-mart aylarında ölkə iqtisadiyyatına, ümumilikdə, 3 milyard 809,2 milyon dollar vəsait qoyulub ki, bunun da 884,4 milyon dollarını xarici investisyalar təşkil edib.

Eyni zamanda, Avropanın etibarlı enerji tərəfdaşı kimi tanınan Azərbaycan son illər, həm də dünyanın elan etdiyi "yaşıl keçid" platformasının ən fəal iştirakçılarından birinə çevrilib. Bunun nəticəsidir ki, 2020-ci il üzrə "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə Azərbaycan 166 ölkə arasında 54-cü pillədə qərarlaşıb. Son 20 ildə ölkəmizdə ümumi daxili məhsul 3 dəfədən çox artıb, valyuta ehtiyatlarımız 65 milyard dolları ötüb.

Hazırda Azərbaycanın xarici dövlət borcu 6 milyard dollardan bir qədər çoxdur ki, bu da ümumi daxili məhsulun cəmi 9-10 faizini təşkil edir. Bu, həm də dünya ölkələri arasında ən aşağı səviyyədir. Belə ki, ölkəmiz bu göstəriciyə görə dünyada 9-cu yerdədir. Neft ixrac edən dövlətlər arasında da ən az xarici dövlət borcu olan məhz Azərbaycandır. Bütövlükdə isə, ölkəmizin valyuta ehtiyatları xarici dövlət borcundan 10 dəfə çoxdur. Göründüyü kimi, Azərbaycan artıq borc alan dövlətdən donor dövlətə çevrilib.

Xatırladaq ki, Azərbaycan Beynəlxalq Valyuta Fonduna 1992-ci il sentyabrın 18-də üzv olub. Ötən müddətdə BVF tərəfindən Azərbaycanla bağlı yoxsulluğun azaldılması və iqtisadi inkişaf, struktur quruculuğunun artırılması, sistem dəyişikliyi və əlavə maliyyələşmə ilə bağlı proqramlar həyata keçirilib. Yeri gəlmişkən, ötən ilin sonundan Azərbaycanda fəaliyyətini dayandıran Beynəlxalq Valyuta Fondu bu qərarını ölkəmizin artıq güclü iqtisadiyyata və böyük maliyyə ehtiyatına malik olması ilə izah etmişdi. Bununla bağlı Azərbaycanın Maliyyə Nazirliyinə ünvanlanmış məktubda bu addımın BVF-nin ölkəmizlə əlaqələrini zəiflətməyəcəyi bildirilmişdi. Qeyd olunmuşdu ki, fond Azərbaycanın inkişaf strategiyası ilə bağlı iqtisadi və maliyyə siyasətini müzakirə etmək üçün müntəzəm missiyalar təşkil edəcək, zərurət yarandıqda texniki yardım göstərəcək. Elə Beynəlxalq Valyuta Fondunun Azərbaycanı dünyanın cəlbedici 7 ən böyük investisiya ölkəsi kimi 2024-cü ilin hesabatına daxil etməsi də əməkdaşlığın davam etməsini təsdiqləyir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Ekspert rəyi

**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru,**
**professor**



Azərbaycanın xarici investisiyalar üçün nə qədər cəlbedici bir ölkəyə çevrildiyini xarakterizə edə biləcək ən yaxşı göstəricilərdən biri və mən deyərdim ki, birincisi, son 20 ildə iqtisadiyyatımıza qoyulan xarici investisiyaların həcminə dair göstəricilərdir. 2024-cü ilin hesabatına görə, Azərbaycanın "Top-7"-yə daxil olması gözlənilən idi. Belə ki, son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox xarici sərmayə yönəldilib. Müqayisə üçün deyək ki, bu qədər xarici sərmayə Ermənistanın 62 illik dövlət büdcəsinə bərabər bir məbləğdir. Neftlə bağlı iqtisadiyyatı şaxələndirmək yolunu tutmuş Azərbaycan hökumətinin ən böyük uğurlarından biri də son 20 ildə ölkə iqtisadiyyatına cəlb edilmiş xarici investisiyaların üçdə iki hissəsinin və ya 200 milyard dollara yaxın məbləğinin məhz iqtisadiyyatın real sektoruna yönəldilməsidir.

Azərbaycan hökuməti yerli və xarici investisiyaların qorunmasını təmin edən hüquqi bazanın yaradılması ilə yanaşı, investisiyaların təşviqi istiqamətində də mühüm addımlar atır. Belə ki, hazırda müvafiq qaydada investisiya təşviqi sənədini əldə edən investorların aldıqları texnika, texnoloji avadanlıqlar və qurğuların idxalı 7 il müddətinə gömrük rüsumundan azaddırlar və eyni zamanda, onların gəlirinin habelə əldə etdikləri mənfəətin 50 faizi də eyni müddətinə vergidən azad olunur. İnvestisiya təşviqi sənədi almış investor, həm də aldığı texnikanın, texnoloji avadanlıqların və qurğuların idxal əlavə dəyər vergisindən, əmlak və torpaq vergilərindən də 7 il müddətinə azad edilirlər. Təbii ki, bütün bunlar xarici investorlar üçün çox önəmlidir.

Azərbaycan artıq regionda "yaşıl enerji" istehsalının lokomotivinə çevrilməkdədir. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Böyük Britaniya şirkətləri tərəfindən bu sahədə reallaşdırılmış və yaxın zamanlarda reallaşdırılması nəzərdə tutulan layihələr, Avropa ölkələri ilə "yaşıl enerji" istehsalı və ixracı sahəsində əməkdaşlığa dair imzalanmış sənədlər yaxın gələcəkdə Azərbaycanda alternativ enerji istehsalı layihələrinə milyardlarla dollar xarici sərmayənin cəlb edilməsinə imkan yaradacaq. Artıq xarici investorlar ölkəmizin ərazisində məhz bu sahəyə investisiyalar yatırtmaq üçün çoxsaylı müraciətlər edirlər.

Azərbaycan hazırda bütün dünyada sözü də imzası qədər etibarlı olan bir dövlət imicini formalaşdırıb. Biz bu gün nəinki xarici investisiyaların cəlb edilməsi üçün münbit ölkə imicini formalaşdırmışıq, həm də ehtiyacı olan ölkələrə yardım edən dövlət statusunu qazanmışıq. Prezident İlham Əliyevin sözləri ilə desək, biz heç kimdən xahiş etmirik ki, iqtisadiyyatımıza investisiya yatırsınlar. Biz, sadəcə, ölkəmizdə bütün səviyyədən olan investorlar üçün bərabər investisiya mühiti yaradırıq. Bunu görüb dəyərləndirən investorlar isə Azərbaycana özləri gəlirlər. Azərbaycan dünya miqyasında investisiya üçün cəlbedici ölkə statusunu gündən-günə gücləndirir. Ölkədə yaradılmış siyasi və iqtisadi sabitlik, əlverişli biznes və investisiya mühiti xarici investorlara istənilən layihəni uğurla həyata keçirməyə təminat verir.

# "Azərişıq" Kəlbəcərdə yenidənqurma aparır

**"Azərişıq" ASC işğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, coğrafi relyefinə görə mürəkkəb quruluşa malik Kəlbəcərdə də yenidənqurma işlərini uğurla davam etdirir.**



"Azərişıq" ASC-dən verilən məlumatda bildirilir ki, Kəlbəcərdə yaz aylarında belə qarın ərimədiyi yüksəkliklərdə elektrik təsərrüfatı yenidən qurulur.

Hazırda Kəlbəcər rayonu ərazisində 35 kV-luq elektrik xətlərinin çəkilişi sürətlə aparılır. İstisu, Zod, Zar, Zəylik və Yellicə istiqamətində yenidənqurma işləri başa çatıb.

Ağqaya, Qamışlı və Mərcimək istiqamətində isə elektrik təsərrüfatının yenilənməsi işləri davam etdirilir. Həmin kəndlərdə yeni metal dayaqlar basdırılır və müasir tipli, izolyasiyalı kabel xətləri çəkilir.

Yenidənqurma işləri çərçivəsində Kəlbəcər rayonu İstisu qəsəbəsində yerləşən 110/35 kv-luq yarımstansiyanın tikinti işləri və 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasından çıxan 110 kV-luq hava xəttinin Kəlbəcərdən İstisuya qədər olan hissəsinin çəkilişi davam etdirilir.

Kəlbəcər şəhəri ərazisində isə yeni 35/0,4 kV-luq yarımstansiyanın və Rəqəmsal İdarəetmə Mərkəzinin tikinti işləri yekunlaşıb.

***XQ***



# Qarabağ – 480 yeni iş yeri

***İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında cari ilin I rübündə 7 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Bunlardan 4-ü Ağdam Sənaye Parkının, 3-ü isə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb.***

İZİA-nın bununla bağlı məlumatında daha sonra bildirilir ki, qeydiyyata alınan rezidentlər tərəfindən sənaye parklarına 54,2 milyon manat dəyərində investisiyanın yatırılması, 480 iş yerinin yaradılması nəzərdə tutulur.

Qeyd edilib ki, rezidentlər Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında fibrobeton və polistirolbeton blokların, quru inşaat qarışıqların, sement və beton qatqıların, müxtəlif çeşiddə yapışqan lentlərin, ortopedik matras və yumşaq mebellərin, ayaqqabıların və s. məhsulların istehsalını həyata keçirəcəklər.

Qeyd edək ki, dövlət başçısının müvafiq fərmanlarına əsasən, 2021-ci ildə yaradılan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında, ümumilikdə, 31 sahibkarlıq subyektinə rezidentlik, 7 sahibkara isə qeyri-rezidentlik statusu verilib.

***XQ***

# Yaxın Şərqdə gərginliyin "barometri" böhran həddində

## *Yaxud gözlənilən bir "qisas oyunu"nun yaratdığı geosiyasi qənaət*

**Şənbə axşamı Yaxın Şərq İranın səssiz PUA-larının və qanadlı raketlərinin İsrail istiqamətinə uçuşunu izlədi. Sanki bölgədə marağı olan hər kəs ssenarisi əvvəlcədən bəlli olan "hərbi tamaşa"ya diqqət kəsilmişdi.**




İranın İsrailə əvvəlcədən planlaşdırılan və gözlənilən hücumu onu göstərdi ki, Yaxın Şərq hələ uzun müddət planetin hərbi gərginlik nəbzinin "siyasi termometri" olaraq qalacaq. 2023-cü il oktyabrın 7-də HƏMAS-ın İsrailə hücumu İranı bölgədə yenidən münaqişə mərkəzinə çevirib. Dəməşqdə Tehranın diplomatik missiyasının binasının bombalanması və SEPAH-ın iki generalı daxil olmaqla, 7 zabitinin ölməsi gərginliyi daha da artırdı. İranın iddiasına görə, İsrail Suriyadakı diplomatik missiyanın binasını vurmaqla İslam Respublikasına hücum edib. Bu səbəbdən də beynəlxalq normalara görə İsraili günahkar sayır. Bununla bağlı Tehranın BMT-yə müraciəti cavabsız qaldı.

### Tərəflərin "birgə hərbi təlimi"

Aprelin 13-dən 14-nə keçən gecə İran və müttəfiqlərinin İsrail ərazisinə raket hücumunu bir neçə səbəbdən xarakterizə etmək olar. Birincisi, 1991-ci ildə Körfəz müharibəsi zamanı Səddam Hüseynin İsrailə qarşı "Skad" sistemlərindən istifadə etməsindən sonra ilk dəfə idi ki, ölkə müasir raket sistemləri ilə bombardmana məruz qalırdı. İkincisi, İran Yəmən, Suriya və İraqdakı müttəfiq qüvvələrdən qismən istifadə edərək, strateji düşməninə qarşı açıq və birbaşa hərəkət etdi. Maraqlıdır ki, İran İsrail üzərinə hücuma tam hazır olduğunu elan edəndən, ABŞ və müttəfiqlərinin bu zərbələri dəf etmək üçün İsrailə dəstək verəcəyini açıqlayandan sonra hərəkətə keçdi. Sanki tərəflər "birgə hərbi təlimə" hazırlaşırdı.

İsrailin İran PUA və raketlərinin böyük əksəriyyətinin Suriya ərazisində ikən zərərsizləşdirildiyi barədə rəsmi açıqlaması da təsadüfi deyildi. Bütün bunlar İranın, əslində, "qisas əməliyyatı"nı deyil, "qisas oyunu"nu həyata keçirdiyi barədə danışmağa əsas verir. Tel-Əviv İranın hücumunun uğurla dəf edildiyini açıqlayıb. "Tehran strateji infrastruktura zərbə endirmək istəyirdi, amma onun planı uğursuz oldu". İsrail müdafiə ordusunun sözçüsü, general Daniel Haqarinin sözlərinə görə, Yaxın Şərqin dörd dövlətinin ərazisindən, ümumilikdə, 350-yə yaxın raket və PUA buraxılışı qeydə alınıb. 60 ton partlayıcını daşıyan bu arsenalın hücumunun effekti olmayıb. Sadəcə, İranın Suriyadakı hədəflərinə zərbələrin endirildiyi Nəvatim bazasına, eləcə də İsrailin müxtəlif ərazilərindəki magistral yollara cüzi ziyan dəyib. Rəsmi açıqlamada müttəfiqlərin birgə fəaliyyətinə xüsusi yer ayrılıb: "ABŞ, Britaniya, Fransa və digərlərinin rəhbərlik etdiyi güclü regional koalisiya İranın hücumunun qarşısını alıb. ABŞ Hərbi Dəniz Qüvvələri 4-6 ballistik raketi ələ keçirib, daha 70 dron isə ABŞ və Böyük Britaniya qüvvələrinin birgə səyi nəticəsində məhv edilib". İsrail ordusunun "hələ də yüksək hazırlıq vəziyyətində olduğunu" deyən Daniel Haqari mütəmadi olaraq vəziyyətin qiymətləndirildiyini nəzərə çatdırıb: "Biz həm hücum, həm də müdafiə hərəkətləri üçün əməliyyat planlarını təsdiqləmişik".

### Gərginlik heç kəsə sərf etməyəndə…

Yaxın Şərqdə cərəyan edən hadisələr beynəlxalq aləmdə gedən qütbləşməni bir daha əyani şəkildə ortaya qoydu. HƏMAS-ın İsrailə altı ay əvvəlki hücumunda maraqlı olan tərəflər bu dəfə hərbi qarşıdurmanın böyüməsini istəyirdilər. İsrailə budəfəki hücumda Yəməndən husilər, Livandan Hizbullah, Suriyadan Bəşşar Əsəd qoşunu, İraqdan isə Həşdi-Şəbi İrana dəstək veriblər. Yəni, ilk baxışda Tehranın regiondakı bütün komandası ilə İsrailə qarşı müharibəyə start verdiyi görüntüsü yarana bilər. Amma vəziyyət heç də göründüyü kimi deyil. Münaqişə tərəflərindən heç biri bölgədə arzuolunmaz nəticələrə səbəb olacaq böyük müharibədə maraqlı deyil. İran, ən azı daxili auditoriya üçün Suriyadakı konsulluğuna hücumu cavabsız qoya bilməzdi. Əks–təqdirdə həm əhalisinin, həm də bütün müsəlman ümmətinin qarşısında iradəsiz görünərdi.

İran məhz "cürət nümayişi" üçün İsrailə hücum edib. Bu isə Tehran rejiminin indiki durumda edə biləcəyi maksimum gediş idi. Digər vacib amil isə ABŞ-da yaxınlaşmaqda olan prezident seçkiləridir. Bu ərəfədə Bayden administrasiyasının müharibəyə qətiyyən ehtiyacı yoxdur. Bunu ABŞ-ın nüfuzlu "New York Times" qəzetinin yaydığı xəbərlərdən də duymaq çətin deyil. Nəşr yazıb ki, baş nazir Binyamin Netanyahu ilə prezident Cozef Bayden arasında telefon danışığından sonra Təl-Əviv İrana cavab verməkdən vaz keçib. Məlumatda qeyd olunur ki, Bayden İranın bütün pilotsuz aparatlarının və raketlərinin ələ keçirilməsini böyük qələbə adlandırıb və bu səbəbdən qisas almağa ehtiyac qalmadığını deyib.

### "Uçurum kənarından geri çəkilin!"

"İran özünümüdafiə hüququ çərçivəsində aprelin 14-nə keçən gecə İsrailə hücum edib". İİR Prezidenti İbrahim Rəisi bu müdafiə tədbirinin sionist rejimin İran İslam Respublikasının obyekt və maraqlarına qarşı təcavüzkar hərəkətlərinə cavab olaraq hazırlandığını və icra edildiyini bildirib: "Xüsusən də bu aksiya Tel–Əviv rejiminin İranın Dəməşqdəki konsulluğuna hücumuna cavab olaraq həyata keçirilib".

Dövlət başçısının ardınca İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahian da münasibət açıqlayıb: "BMT Təhlükəsizlik Şurasının İranın Dəməşqdəki konsulluğuna hücumu pisləyən bəyanat yaymaq istəməməsi İsrailin baş naziri Binyamin Netanyahunu qanunları pozmağa davam etməyə sövq edib".

Dünən İran-İsrail qarşıdurması ilə bağlı BMT Təhlükəsizlik Şurasının fövqəladə iclası keçirilib. BMT-nin Baş katibi Antoniu Quterriş aprelin 14-də İsrailin daimi nümayəndəsinin TŞ sədrinə göndərdiyi məktubdan sitat gətirib: "İran BMT Nizamnaməsini və beynəlxalq hüququ pozaraq, 200-dən çox PUA-dan, qanadlı və ballistik raketlərdən istifadə etməklə İsrail ərazisinə birbaşa hücuma keçib".

Baş katib qeyd edib ki, İran tərəfi bu hərəkətini Tehranın Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş özünümüdafiə hüququndan istifadə etmək məqsədilə və İsrailin dəfələrlə hərbi müdaxiləsinə cavab olaraq atıldığını təkid edir". A.Quterriş İİR-in daimi nümayəndəsinin, həmçinin Təhlükəsizlik Şurasının sədrinə göndərdiyi məktubda İranın 2024-cü il aprelin 13-də gecə saatlarında İsrailin hərbi obyektlərinə hərbi zərbələr endirdiyini bildirdiyini açıqlayıb.

Qurumun bütün üzv dövlətlərinə xitab edən Baş katib BMT Nizamnaməsinin hər hansı dövlətin ərazi bütövlüyünə, siyasi müstəqilliyinə qarşı və ya BMT-nin qaydalarına uyğun olmayan şəkildə gücdən istifadəni qadağan etdiyini nəzərə çatdırıb: "Uçurumun kənarından geri çəkilməyin vaxtıdır. Yaxın Şərqdə böyük hərbi qarşıdurmaya səbəb ola biləcək istənilən hərəkətlərdən qaçmaq vacibdir".

### Bakı gərginliyə görə narahatdır

Beləliklə, Yaxın Şərqdə maraqları olan böyük güclərin öncədən düşünülərək yaradılan hərbi–siyasi gərginliyi ölçmək üçün indiki məqamda İrandan "termometr" kimi istifadə etdikləri göz qabağındadır. İntəhası, İranın 5 saatlıq hücumu regiona sabitlik deyil, gərginliyin artması üçün zəmin yarada bilər. Yerli ekspertlər yaranmış gərginliyin birbaşa deyil, dolayısı ilə Azərbaycanın da maraqlarına toxuna biləcəyini istisna etmirlər.

"Azərbaycan İran və İsrail arasında artan gərginlikdən dərin narahatdır". Bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin "X"dəki paylaşımında deyilir. "Biz bütün tərəfləri təmkinli olmağa və Yaxın Şərqdə vəziyyəti daha da gərginləşdirəcək təhlükəli eskalasiyadan qaçmağa çağırırıq", – qeyd edilib. Bəli, Azərbaycan dövləti ən mürəkkəb geosiyasi durumlarda tənzimləyici rolunu oynayıb. Otuz il "qaynar nöqtəyə" dönmüş Cənubi Qafqazda sabitliyi məhz Azərbaycan bərpa edib. 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında Qarabağda bir sutkalıq antiterror tədbirindən sonra bölgənin təhlükəsizliyinə möhkəm zəmin yaradan Bakının gündəliyində "Qafqaz evi"ndə sülh və əməkdaşlıq kimi vacib məsələlər durur.

Azərbaycan hakimiyyətinin yürütdüyü balanslı siyasət ölkəmizi bölgənin təhlükəsiz və iqtisadi cəhətdən ən qüdrətli aktoruna çevirib. Bu baxımdan Rusiyanın və İranın Azərbaycanın apardığı siyasəti dəstəkləmələri qətiyyən təsadüfi deyil. Fəqət, aprelin 5-də Brüsseldə ABŞ, Avropa İttifaqı və Ermənistanın iştirakı ilə keçirilən məlum görüşdən sonra Azərbaycanın narahatlığı əbəs deyil. Həm də bu baxımdan Yaxın Şərqdə cərəyan edən son hadisələr Cənubi Qafqazda fərqli formada təkrarlanması riskini artırır. Azərbaycanın məqsədi isə Cənubi Qafqazı tərəqqi edən təhlükəsizlik adasına çevirməkdir. Bölgə ölkələri arasında qarşılıqlı əməkdaşlıq mühitinin yaradılması, eləcə də İrəvanla Bakı arasında möhkəm sülhün əldə edilməsi indi daha real və əlçatandır.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Elxan SAHİNOĞLU, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəsi, siyasi şərhçi:**

Bombardmandan dərhal sonra Tehranın telefon diplomatiyası işə düşüb. İran xarici işlər naziri Hüseyn Əmir Abdullahian müxtəlif dövlətlərdəki həmkarlarına zəng edərək, "bizdən bu qədər" – deyə, İsrailə növbəti hücum planlaşdırmadıqlarını bildirib. Eyni zamanda, ABŞ Dövlət katibi Antoni Blinken də okeanın o tayından zənglər edərək digər həmkarları ilə Yaxın Şərqdəki son vəziyyəti, o cümlədən İran-İsrail qarşıdurmasını müzakirə edib.

İran və ABŞ düşmən olsalar da, hazırda bu iki ölkənin ortaq istəyi var: İsrail İrana zərbə endirməsin. Tehran bunu ona görə arzulamır ki, bu hərbi qarşıdurmadan qalib çıxacağına əmin deyil. Vaşinqton isə İsrailin İrana zərbə endirməsini ona görə istəmir ki, müharibənin alovu ətrafa yayılacaq və Ağ ev, başda İsrail olmaqla, bölgədəki digər müttəfiqlərinə hərbi dəstək vermək məcburiyyətində qalacaq. Bu isə prezident seçkisinə hazırlaşan indiki dövlət başçısı Cozef Bayden üçün xoşagəlməz ssenaridir. Məhz bu səbəbdən rəsmi Vaşinqtonun İsrailin baş naziri Binyamin Netanyahuya diplomatik təzyiqləri artıb. Amma görünən odur ki, mühafizəkar siyasətçi Netanyahunu durdurmaq asan olmayacaq. Əgər belə olmasaydı, Netanyahu İranın Dəməşqdəki konsulluğuna raket zərbəsi endirmək əmrini verməzdi. Deməli, Netanyahu bundan sonrasını da planlaşdırıb.

Azərbaycan Xarici İşlər Nazirliyi bu hərbi münaqişəyə özünün qısa və korrektəli münasibətini açıqlayaraq, dərin narahatlığını bildirdi və tərəfləri vəziyyəti təhlükəli həddə çatdırmamağa çağırdı. Bu, indiki məqamda düzgün mövqedir.

**Sərhəd bölgəsindən reportaj**

**"Aprelin 13-ü saat 08:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Tovuz rayonunun Koxanəbi yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub."**

# Koxanəbinin dağ dəyanəti



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin elə həmin gün yaydığı bu məlumatla tanış olmasaydım yəqin ki, Koxanəbi kəndinə hələ yolum düşməyəcəkdi. Bilirdim ki, bu kənd Tovuzun Ermənistanla ən yaxın sərhəd kəndidir. Ola bilər ki, rayonun Qaralar kəndi məsafəcə Koxanəbidən də yaxındır. Lakin fərq ondadır ki, Qaralarda yüksəklik bizdə, Koxanəbidə isə ermənilərdədir.

Sonuncu dəfə Koxanəbidə kəndə asfalt yol çəkilərkən olmuşdum. Yadımdadır, o zaman kənd camaatı ölkə Prezidentinin "Tovuz rayonunun Əyyublu–Aran–Qovlar–Aşağı Quşçu–Koxanəbi avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" 4 mart 2020-ci il tarixli Sərəncamını necə böyük ruh yüksəkliyi, sevinc və razılıq hissi ilə qarşılamışdı. Tovuz rayonunda digər sahələrlə yanaşı 1 şəhər və 4 kəndi əhatə edən, ümumi uzunluğu 36 kilometr olan bu yolun əsaslı şəkildə yenidən qurulması və istifadəyə verilməsi adamları uzun illərin yolsuzluğundan birdəfəlik xilas etmişdi.

...Koxanəbinin girəcəyində kəndin icra nümayəndəsi Sadiq Abulovla görüşüb hal-əhval tutduqdan sonra bir qədər yuxarı, yamaca tərəf qalxırıq. Sadiq 10 ilə yaxındır ki, icra nümayəndəsidir, kənddə kimin nə problemi var əzbər bilir. Bir azdan onun çağırışı ilə kənd sakini Eldəniz Məmmədov da bizə çatır, tanışlıq verir. Eldənizin cəmi 43 yaşı olmasına baxmayaraq, artıq 6 övladı var. Təsərrüfatla, əkin-biçinlə məşğul olur... Bizdən də yuxarı qalxıb ermənilərin yüksəklikdəki bir-birindən aralı postlarını göstərir. Aşağıya baxanda Koxanəbi, sanki, ovcunun içindədir:

– O qədər yaxındırlar ki, evdə uşağımızı çağıranda eşidib onlar səs verir, deyə Eldəniz acı-acı gülümsəyərək başını bulayır, lakin kənddə heç kim onlara əhəmiyyət vermir. Hamı təsərrüfatla məşğuldur. Koxanəbidə yaxşı qarğıdalı yetişir. Kartof da əkən az deyil. Bizim Azər Məmmədovu həmin postların birindən atəş açaraq öldürüblər, bunu heç vaxt unutmuruq. Səhv etmirəmsə, 1995-ci ilin fevral ayı idi. Onda mənim 17, Azərin isə cəmi 20 yaşı vardı. Namərd düşmən gülləsi gəncin həyatına son qoydu. Hərbçi idi. Kənddə traktorun içində vurmuşdular. Azər bizim Birinci Qarabağ müharibəsində ilk şəhidimizdir, şəhərdəki Şəhidlər Xiyabanında dəfn olunub. Kəndin başqa bir sakini də yaramaz qonşuların açdığı atəş nəticəsində həyatını itirmişdir.

**Bir azdan Azər Məmmədovun anası Gülşən Məmmədova ilə oğlunun adına olan bulağın yanında görüşürük:**

– Əvvəllər bizim kənddən 20 kilometr aralıda olan rayon mərkəzindəki Şəhidlər Xiyabanına tez-tez gedirdim, oğlumun məzarını ziyarət edirdim, amma indi yaşlaşmışam, onun iyini bu bulaqdan alıram. Evimiz də odur bax, lap yaxında, 20 metr aralıdadır, – deyə G. Məmmədova dərindən köksünü ötürür, gözlərinin kənarlarında donub qalan yaşı əli ilə ehmalca silir, – sağ olsun dövlətimiz, Prezidentimiz, heç nədən çətinliyimiz yoxdur. Gözəl yol çəkdirib, qazımız, işığımız daimidir, internetə qədər var. Heç nədən, heç kimdən qorxmuruq. Bircə yüngülvarı bir məktəbimiz olsaydı...

Şəhid anasının dediyinə qüvvət, kənddə kiçik bir təhsil ocağının yaradılmasına, tikintisinə çox ehtiyac var. Bu günədək kəndin 25 məktəbyaşlı sakini qonşu Əsrik Cırdaxan kəndindəki orta məktəbə gedir, özü də əksər hallarda piyada. Məsafə isə 3 kilometrdir. Razılaşaq ki, hər gün 6 kilomert məsafə qət etmək bir o qədər də asan iş deyil. Kənd adamları ilə söhbət edərkən dedilər ki, heç olmasa modul tipli bir məktəb istifadəyə verilsəydi yaxşı olardı. Kəndin icra nümayəndəsi S.Abulov dedi ki, rayon icra hakimiyyətinin başçısı kəndin sakinləri ilə səyyar qəbullar keçirərkən bu məsələ iki dəfə qaldırılıb. Yəqin ki, artıq əlaqədar nazirlik məlumatlandırılıb. Ümid edirik ki, məsələ öz həllini tapacaqdır.

...Koxanəbi keçmiş Ocaqlı kəndindən çıxmış ailələrin məskunlaşması nəticəsində yaranıb. Kəndin adı koxa (kovxa) və Nəbi (şəxs adı) sözlərindən ibarət olub, "kəndxuda Nəbiyə məxsus" mənasındadır. "Kəndxuda" sözünun sinonimi olan kovxa XVI-XIX əsrlərdə Azərbaycanda və qonşu ölkələrdə inzibati vəzifə olmuşdur. Kovxalar mahal bəyinə tabe idilər. Hər kəndin ayrıca kovxası olurdu. Bu kənd də tabeliyində olduğu kovxanın adını daşıyır. Elə bir tarixi abidəsi olmasa da, kəndin tarixinin bir neçə yüzilliyə gedib çıxması faktdır.

Kənd Əsrikçay və Zəyəmçay arasında, dağlıq ərazidə, Ermənistan sərhədinin 300 – 400 metrliyində, mənzərəli bir yerdə yerləşir. Kənddə olan 45 evdən 35-də daimi yaşayış var və sakinlərin sayı uşaqlı-böyüklü 200 nəfərə çatır.

Bəs Koxanəbi sakinlərinin başqa problemləri varmı? Təbii ki, var. O da Tovuzun bir çox yerində olduğu kimi su problemidir. Doğrudur, dağlıq ərazidə yerləşdiyi üçün torpaqları dəmyədir və suvarılmaya bir o qədər ehtiyac yoxdur. Lakin ətrafda bulaqlar çox olsa da, içməli su sarıdan müəyyən çətinliklər var. Bildirdilər ki, əvvəllər vəziyyət o qədər də yaxşı deyildi. Rayon icra hakimiyyətinin, o cümlədən, kənd sakinlərinin təşəbbüsü ilə əsas, gur bulaqdan evlərə rezin borularla növbə ilə su verilir və adamlar öz tədarüklərini görə bilirlər. Artıq hər bir sakin bilir ki, qrafik üzrə hansı gün bulaqdan su alacaq. Yeri gəlmişkən, buradakı bulaqlardan biri də kəndin sakini, şəhid Muraz Ələkbərovun adını daşıyır. İki il qabaq burada həmkəndlilərinin xatirəsini əbədiləşdirən gözəl bir bulaq kompleksinin açılışı olub. Koxanəbidə kiminlə söhbət etdiksə, bir neçə il qabaq daha intensiv, indi isə ara-sıra güllə səslərinin eşidildiyini dedi. Adamlar artıq sakit günlər istəyirlər. Deyirlər ki, belə günlər bizdən daha çox, onlara lazımdır. Çünki gördülər ki, torpaqdan pay olmur. Azərbaycan əsgəri onu qanı-canı hesabına geri aldı. Bizimlə mehriban davranmaq lazımdır. Əks halda...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Tovuz**

# Tbilisidə etiraz aksiyası

**Dünən Gürcüstanın müxtəlif siyasi partiyaları, qeyri-hökumət təşkilatları, tələbə-gənclər hərəkatları və təşəbbüs qrupları hakim "Gürcü Arzusu–Demokratik Gürcüstan" partiyasının "Xarici təsirin şəffaflığı haqqında" ("xarici agentlər" haqqında) qanun layihəsinin parlamentin hüquq komitəsində müzakirə olunmasına etiraz olaraq Tbilisidə izdihamlı aksiya keçiriblər.**



AZƏRTAC xəbər verir ki, mitinq zamanı parlamentin qarşısındakı mərkəzi Ş.Rustaveli prospekti tam bağlanıb. Aksiyanın təşkilatçıları bildiriblər ki, etirazın məqsədi ölkənin azadlığını və Avropa gələcəyini qorumaqdır.

Tbilisidən verilən son məlumata görə, parlamentin hüquq komitəsinin iclasında "Xarici təsirlərin şəffaflığı haqqında" qanun layihəsinin müzakirəsi zamanı deputatlar arasında əlbəyaxa dava olub. Müxalif deputat Aleko Elisaşvilinin parlamentdə döyülməsi və təhqir olunması aksiya iştirakçılarının sayının artmasına səbəb olub. Asayişi qorumaq üçün parlament binasının ətrafına çoxsaylı polis cəlb edilib.

# Azərbaycan qlobal iqlim təhlükəsi

**"Qlobal iqlim dəyişikliklərinin mənfi təzahürləri və onun aradan qaldırılmasında "yaşıl enerji"nin rolu" mövzusunda "XQ"-nin Elm və Təhsil Nazirliyi akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu ilə birgə təşkil etdiyi "dəyirmi masa"da qonaqlarımız qurumun baş direktoru, professor Zakir Eminov, Xəzər dənizinin hidrometeorologiyası şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Səid Səfərov, iqtisadi və siyasi coğrafiya şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Nəriman Paşayev, iqlim və aqroiqlimşünaslıq şöbəsinin böyük elmi işçisi Cəmilə Əhmədovadır.**

**"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov qonaqları salamlayaraq bildirdi ki,** dünyada mühüm önəm daşıyan məsələlərin müzakirə edildiyi və



həll yollarının axtarıldığı qlobal platformalardan biri olan COP toplantıları keçirildiyi bütün zamanlarda daim diqqət mərkəzində olub. Çünki bu tədbirlərdə bir qayda olaraq beynəlxalq aləmi narahat edən, düşündürən kəskin iqlim dəyişmələrinin, temperaturun qlobal səviyyədə artmasının doğurduğu ciddi fəsadların, ekstremal hadisələrin və təbii fəlakətlərin nəticələri müzakirə edilib, insan sağlamlığı ilə əlaqədar problemlərin həlli yolları və bir çox heyvan növlərinin nəslinin kəsilməsi təhlükəsinin qarşısının alınması təşəbbüsləri səsləndirilib mühüm sənədlər imzalanıb.

Bakıda keçiriləcək COP29-un da bu baxımdan tarixi əhəmiyyət daşıyacağını indidən inamla söyləmək olar. Eyni zamanda, ötən il Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən COP28 tədbirində bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında müəyyən məsələlərlə bağlı yaranan fikir ayrılığının da Bakı toplantısında aradan qaldırılacağı, bununla bərabər iqlim dəyişikliyi, ənənəvi və alternativ enerji resurslarının gələcək istehsalı, istehlakı ilə bağlı vacib qərarların qəbul ediləcəyi gözlənilir.

Baş redaktor qeyd etdi ki, Azərbaycanın belə bir önəmli qlobal platformaya – COP29-a evsahibliyi etməsi isə, ilk növbədə, ölkəmizin beynəlxalq aləmdəki nüfuzu ilə bağlıdır. Digər tərəfdən, bu, respublikamızın müsbət ekoloji dəyişikliklər yaratmaq istiqamətində son illərdə əldə etdiyi uğurlardan qaynaqlanır, "yaşıl" və sağlam gələcəyin qurulması istiqamətində üzərinə götürdüyü öhdəliyi yüksək səviyyədə həyata keçirməkdən irəli gəlir. Azərbaycanın 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləməsi və hazırda bu istiqamətdə genişmiqyaslı layihələr gerçəkləşdirməsi də ölkəmizin verdiyi vədə sadiqliyinin göstəricisidir.

Əflatun Amaşov qonaqları işgüzar, səmərəli müzakirəyə dəvət edərək vurğuladı ki, redaksiyanın fəaliyyətində Azərbaycanın COP29 kimi mühüm önəm daşıyan qlobal bir platformaya ev sahibliyi etməsi ilə bağlı məqalələrin dərc edilməsi, respublikamızın müsbət ekoloji dəyişikliklər yaratmaq istiqamətində son illər əldə etdiyi uğurlar barədə materiallar hazırlanması prioritet istiqamətdir. Bugünkü "dəyirmi masa" da həmin silsilənin, bir növ, davamıdır.

**Zakir Eminov:**



– Coğrafiya İnstitutunun əsas tədqiqat sahələrindən biri məhz iqlimlə bağlıdır. Məlumat üçün deyim ki, 1945-ci ildə yaradılan gündən institutumuzda iqlim şöbəsi fəaliyyət göstərir. Ötən müddətdə burada nəinki respublikamızda və SSRİ-də, eləcə də bütün dünyada tanınan məşhur iqlimşunas alimlər çalışıblar. Ənvər Şıxlinski, Əliabbas Mədətzadə və Əsgər Əyyubov məhz belə alimlərimizdən olublar. Təkcə onu qeyd etmək kifayətdir ki, Ə.Şıxlinskinin müəllifi olduğu cildlərlə atlas və xəritələrdən indi də geniş istifadə olunur. Tanınmış alim Ə.Mədətzadə Azərbaycanın hava kütlələri haqqında çoxsaylı tədqiqatlar aparıb. Ə.Əyyubov isə aqro iqlimşünaslıq şöbəsində fəaliyyət göstərib. Hazırda həmin şöbə iqlimşünaslıq və aqroiqlimşünaslıq adlanır.

Qlobal istiləşmə hazırda dünyada bir nömrəli problemdir. Coğrafiya İnstitutunun alimləri də bu sahə ilə yaxından məşğul olurlar. Düzdür, son illər beynəlxalq tədbirlərdə iştirakımızla bağlı müəyyən çətinliklər var. Bu da əsasən ondan ibarətdir ki, həmin tədbirlərdə iştirak etmək üçün iqlimşünas alimlərimizdən ingilis dilinin bilməsi tələb olunur. COP29-la bağlı tədbirlərdə isə yalnız bir nəfər əməkdaşımızın iştirakı üçün dəvət göndərilib. Biz də Rauf Qardaşovun iştirakını məsləhət bilmişik. Rauf müəllim tanınmış alim, akademiyanın müxbir üzvüdür. O, iqlimşünas alim olmasa da, "yaşıl enerji" sahəsi ilə məşğuldur, daha çox Xəzər dənizinin fizikası sahəsində tədqiqatlar aparır.

İnstitumuzda COP29-la bağlı hazırlıq işlərinə gəldikdə isə, bu sahədə elmi konfransın keçirilməsini planlaşdırırıq. Həmin konfransın əvvəlcədən respublika miqyasında keçirilməsi nəzərdə tutulurdu. Sonradan isə akademiyanın prezidenti İsa Həbibbəylinin məsləhəti ilə tədbirin beynəlxalq konfrans kimi keçirilməsi qərara alındı. Artıq həmin toplantının proqramı da işlənib hazırlanıb. Bu məqsədlə materiallar, rəqəmlər yığılır. Beynəlxalq konfransın iyunun əvvəllərində keçirilməsi nəzərdə tutulub. Buna qədər isə institutumuzun əməkdaşlarının iştirakı ilə bir necə seminar keçirəcəyik. Ümumilikdə isə, institutumuzda hər həftənin 3-cü günü elmi şura və seminarların keçirilməsi artıq ənənəvi xarakter alıb. Həmin tədbirlərdə bizim kadrlarla yanaşı, kənardan da alimlərin iştirakı təmin olunur. Məhz onlarla birlikdə bir sıra maraqlı mövzular müzakirə olunur, geniş fikir mübadiləsi aparılır. Bütövlükdə, cari ildə bu sahədə



2-3 seminarın və bir beynəlxalq konfransın keçirilməsi nəzərdə tutulur.

O ki, qaldı COP29-un işində bilavasitə iştirak etmək, deməliyəm ki, bu məsələ təkcə bizdən asılı deyil. Bununla bağlı qərar hökumət tərəfindən veriləcək. Yeri gəlmişkən, məndə olan məlumata görə, COP29 konfransında sinxron tərcümə olmayacaq. Bütün iclaslar yalnız ingilis dilində keçiriləcək. Çünki bu, beynəlxalq tədbirdir. Bununla belə, mən hesab edirəm ki, bizim alimlərimizin hamısının orada iştirakı vacibdir. Çünki uzun illər bu sahədə məşğul olduqları üçün bu bilavasitə onların işidir.

Mətbuatda iqlim dəyişiklikləri, xüsusən də COP29-la bağlı müntəzəm çıxışlar edilməlidir. Düşünürəm ki, mətbuat iqlimlə bağlı məsələlərə təkcə COP29 çərçivəsində deyil, hər zaman geniş yer ayırmalıdır. Düzdür, son zamanlar televiziya və radiolarda, həmçinin müxtəlif saytlarda mövzu ilə bağlı çoxsaylı çıxışlar yayımlanır. Fikrimcə, qəzetlərdə də bu sahədə materialların dərc edilməsi vacibdir. Çünki qəzet tarixin yazılı salnaməsidir, deyilən hər bir fikir burada qorunub saxlanılır. Həmin məqalələri əldə etmək hər zaman mümkündür. Yeri gəlmişkən, biz mətbuata hər an açığıq, jurnalistlərin suallarını cavablandırmağa həmişə hazırıq. İnstitutumuzda çox savadlı iqlimşünas alimlər cəmləşiblər. Hesab edirəm ki, mətbuat onların iqlim dəyişiklikləri ilə bağlı çıxışlarına xüsusi diqqət ayırmalıdır.

Son 1-2 il ərzində biz iqlim sahəsində 4-5 mütəxəssis alim yetişdirmişik. İqlimşünaslıq təkcə bizə aid olan məsələ deyil. Aviasiya Akademiyasında da bu sahə çox geniş istifadə olunur. Orada da 2-3 nəfər sözügedən sahədə dissertasiya müdafiə edib. Bundan əlavə, ötən il Aerokosmik Tədqiqatlar İnstitutunda alimlərimizin rəhbərliyi ilə bir nəfər bu sahədə alimlik dərəcəsinə yiyələnib. Məndə olan məlumata görə, hazırda həmin şəxs institutun direktor müavini vəzifəsində çalışır. Yəni bu sahədə tədqiqatlar davam edir. Heç şübhəsiz, bu məsələ gələcəkdə daha geniş miqyas alacaq.

**Səid Səfərov:**



– Hazırda dünya ölkələri ümumi enerji potensialında bərpaolunan enerjinin payının artırılmasına çalışırlar. Digər tərəfdən isə, karbon qazını udan meşələr, yaşıllıqlar məhv edilir. Fikrimcə, yaşıllıqları bərpa etmək milyardlarla pul xərcləyib karbon, istixana qazlarının qarşısını almaqdan daha asandır. Ümumiyyətlə, COP adı ilə keçirilən tədbirlərdə ölkələri, çoxsaylı insanı bir yerə toplayıb müəyyən məsələləri müzakirə etmək nə üçün vacibdir? Bu sualın cavabını verməzdən öncə diqqəti uzun illər öncə tarixdə baş vermiş proseslərə yönəltmək istəyirəm. Əslinə qalsa, bizim artıq mübarizə aparmaq əzmində olduğumuz bu istixana qazları vaxtilə özünün müsbət rolunu oynayıb. Tarixə nəzər yetirsək, görərik ki, XIX əsrdə Napoleon Bonapartın rəhbərlik etdiyi Fransa qoşunlarının Rusiyaya hücumu zamanı böyük bir ordunun soyuqdan donub məhv olması, eləcə də ondan əvvəlki vaxtlarda havanın çox soyuq keçməsi böyük narahatlıqlar yaradıb. Ancaq 1850-ci ildən etibarən Avropada sənayeləşmə inqilabı başlayıb. Ondan sonra isə hava sanki bir qədər mülayimləşməyə doğru gedib. İlk vaxtlar alimlər buna fikir verməyiblər.

Yeri gəlmişkən, atmosferdə karbon qazının konsentrasiyasının artması təkcə iqlimin istiləşməsi və ya soyuqlaşması deyil, həm də bu amilin kənd təsərrüfatı istehsalında çox böyük rolu var. Bunu dedikdə, mən fotosintez məsələsini nəzərdə tuturam. Atmosferdə karbon qazının miqdarının çoxalması əmək məhsuldarlığına da təsir edir. Keçən əsrin 60-70-ci illərindən sonra bəzi alimlərin apardıqları tədqiqatlar nəticəsində məlum olub ki, Yer kürəsinin orta temperaturu artmağa doğru gedir. Əslində o dövrdə bu fərq çox cüzi idi. Yəni statistik nöqteyi-nəzərindən bu çox da böyük artım deyildi. İlk vaxtlar çoxları buna inanmırdı. Lakin 1990-cı ildən sonra temperaturun artması kəskin xarakter almağa başladı. Artıq bütün dünya alimləri, demək olar ki, atmosfer havasının istiləşməsini qəbul etməyə başladılar. Düzdür, hazırda bunun səbəbinin insan və ya digər təbii amillərlə əlaqədar olması ilə bağlı müəyyən fikir ayrılıqları var. Məsələn, bəziləri bunu Günəşin aktivliyinin artması ilə əlaqələndirir. Bəziləri isə deyir ki, son illər Yerin hərəkət sürəti azalıb. Hətta bəziləri iddia edir ki, Yer kürəsinin bir neçə təbəqəsi var. Onun nüvəsi adlanan, mərkəzə yaxın hissəsinin – ona maqma deyilir – temperaturu 6 min dərəcəyə yaxındır. Maqma bir plazma kimi hərəkət etdikcə Yerin maqnit sahəsini yaradır. Bəzi alimlər isə deyirlər ki, maqma şimala doğru meyil etdiyi üçün burada buzlar əriməyə başlayır. O məntiqlə yanaşanda Antarktidanın da buzları əriyə bilər.

Karbon qazının, digər istixana qazlarının planetimizin temperatur rejimində rolunu müəyyən etmək üçün Yer, ondan Günəşə daha yaxın olan Veneraya və ondan Günəşə bir qədər uzaq olan Marsa nəzər yetirək. Bir anlığa hesab edək ki, bu planetlərin heç atmosferi, daha doğrusu, orda istixana qazları yoxdur. Və yaxud oradakı enerji balansına nəzər yetirsək, aydın olur ki, Günəşdən gələn enerji ilə yanaşı, Yerin özü də enerji şüalandırır. Bu şüalanma nəticəsində biz səhərə yaxın ən aşağı temperatur hiss edirik. Sonra yenidən gün çıxır, yeri qızdırır, proses günün sonunadək davam edir. Daha sonra isə əks proses başlayır. Təsəvvür edin, əgər Yerin atmosferi olmasaydı, onda bu planetin orta temperaturu mənfi 15 dərəcə olmalıydı. Xatırladaq ki, sonuncu buzlaşma dövründə Yerin orta temperaturu müsbət 7-8 dərəcə olub. Onun da nəticəsində planetin böyük bir hissəsi donub. Təkrar edirəm, əgər Yerin atmosferi və orada istixana qazları olmasaydı, burada orta temperatur mənfi 15 dərəcə təşkil edərdi. Bu isə o deməkdir ki, Yerdə həyat əlamətləri olmazdı. Bundan da istixana qazlarının planetimiz üçün nə dərəcədə böyük əhəmiyyət daşıdığı aydın olur.

Marsda atmosferdə karbon qazı, demək olar ki, yoxdur. Orada orta temperatur mənfi 60 dərəcədir. Veneranın isə orta temperaturu, əgər atmosfer olmasaydı, mənfi 17 dərəcə təşkil etməliydi. Axı o, Günəşə yaxın olduğu üçün ora isti olmalıydı. Amma bu, belə deyil. Səbəbi də odur ki, Venera ağ planet olduğundan Günəşin şüalarını əks etdirir. Ancaq Veneranın atmosferində karbon qazının miqdarı yerdəkindən dəfələrlə çox olduğu üçün bu planetin real temperaturu müsbət 480 dərəcədir. Yəni buradan aydın olur ki, Yer kürəsinin temperaturunun artmasının əsas səbəbi məhz istixana qazlarıdır.

**Nəriman Paşayev:**

– Hələ ötən əsrin 70-ci illərindən ətraf mühitin mühafizəsi əsas məsələlərdən biri olub. "Yaşıl iqtisadiyyat" və "yaşıl artım" anlayışları demək olar ki, həmin vaxtdan bu yana tədricən inkişaf edib, 1992-ci ildən isə önə çəkilməyə başlayıb.



Ümumiyyətlə, bu gün "yaşıl iqtisadiyyat" və "yaşıl artım"la bağlı çağırışlar, eləcə də bu təşəbbüslərin əsaslandığı prinsiplər onu göstərir ki, sözügedən proses cəmiyyətin və iqtisadi inkişafın yeni mərhələsidir. Həyatın bütün sahələrində "yaşıl" təfəkkürün, həyat tərzinin və yeni iqtisadiyyata keçidin zəruriliyi təsdiq edir ki, "yaşıl iqtisadiyyat"ın formalaşmasında təbii ehtiyatlar mühüm önəm daşıyır və bu məsələdə səmərəlilik diqqət mərkəzində saxlanılır. Bundan başqa, innovativ iqtisadiyyatın "yaşıllaşdırılması" prosesləri fonunda inkişaf problemlərinin həlli cəmiyyətin tərəqqisini şərtləndirir.

"Yaşıl iqtisadiyyat" və "yaşıl artım"la bağlı çağırışların əsasında dünyanı narahat edən qlobal problemlərdən biri – iqlim dəyişiklikləri və onun canlı aləmə mənfi təsiri dayanır. Qeyd edim ki, bu məsələ dünya birliyini getdikcə daha çox narahat edir. Bu, ilk növbədə, qeyri-sabit hava şəraiti ilə bağlıdır. Belə hal dünyada, həmçinin Azərbaycanda da müşahidə edilir və təbii ki, müəyyən problemlərlə narahatlıq yaradır.

Hazırda Azərbaycanda havanın orta illik temperaturunun baza dövrü (1961-1990-cı illər) ilə müqayisədə artdığı və bu artımın regiondan asılı olaraq 0,2-0,9 dərəcə təşkil etdiyi müəyyənləşib. Ən çox istiləşmə Böyük Qafqazın cənub yamacının qərb hissəsi və şimal-şərq yamacında (0.7-0,9 dərəcə) qeydə alınıb. Digər bir təzadlı vəziyyət Naxçıvan Muxtar Respublikasında müşahidə edilib. Belə ki, burada yayda hərarət müsbət 33-44 dərəcəyə yüksəlib. Qışda da təxminən bu göstəricidə şaxta qeydə alınıb. Maraqlıdır ki, iki ildir ki, yayda temperatur Bakıda da 44 dərəcəyə qalxıb. Onu da qeyd edim ki, əvvəllər temperaturla bağlı iqlim dəyişmələri, əsasən, ərazimizin 66,4 faizini təşkil edən subtropik zonada müşahidə edilirdi. Qalan ərazilərdə isə iqlim dəyişmələri mülayim iqlim qurşağına düşürdü.

Yeri gəlmişkən, İqlim Dəyişmələri üzrə Hökümətlərarası Ekspertlər Qrupunun son qiymətləndirmə hesabatına görə, son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. Temperaturun artması, əsasən, antropogen amillərlə bağlı olub. Antropogen amillərin əsasını isə istilik effekti yaradan karbon, metan, azot oksidi kimi qazlar təşkil edir.

Son 100 illik kosmik müşahidələr də göstərir ki, tufanların, çovğunların həm intensivliyi, həm də tezliyi artıb. İsti küləklər, qasırğalar, yağıntılar güclənib. Eyni zamanda, sel, daşqın hadisələrinin də sayı artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq qızma 2000 metr dərinliyə çatır. Bu da isti axınların daha da qızmasına səbəb olur. Təbii fəlakətlərin artımında da əsas amil iqlim dəyişmələridir.

Qeyd edildiyi kimi, qlobal iqlim dəyişməsinə təsir göstərən amillərdən biri və ən əsası temperaturun 1,5-2 dərəcəyə yüksəlməsidir. Bu da özlüyündə böyük çətinliklər yaradır. Məsələn, iqlim dəyişməsinin təsiri ilə hazırda Ekvatordan şimaldakı mülayim qurşaqda böyük problemlər yaşanır, cənubda isə yanğınlar, quraqlıqlar, səhralaşmalar müşahidə olunur. Yaxud temperaturun getdikcə yüksəlməsi səbəbindən Arktika buzlaşmasının əriməprosesi davam edir, bu isə planetin ekoloji fəlakətlə üz-üzə qaldığından xəbər verir. ABŞ Milli Aeronavtika və Kosmik Fəzanın Tədqiqi Agentliyinin mütəxəssislərinin fikrincə, 2004-2005-ci illərdə Arktika əvvəllər yay temperaturuna tab gətirmiş çoxillik buz sahəsinin 14 faizini itirib. Şimal buzlu okeanının şərq hissəsində isə buz itkisi xüsusilə böyükdür. Burada buz örtüyünün yarısı əriyib.

Belə bir qlobal təhlükə isə dünyada "qəhvəyi iqtisadiyyat"dan, yəni ənənəvi iqtisadiyyatdan "yaşıl iqtisadiyyat"a keçidi şərtləndirir. Yeri gəlmişkən, "qəhvəyi iqtisadiyyat"ın əsasını təşkil edən ənənəvi enerji potensialı ilə müqayisədə bərpaolunan enerji mənbələri daha zəngindir. Digər tərəfdən, bu mənbələr, başqa sözlə, "yaşıl enerji" artan əhali və inkişaf edən texnologiya fonunda enerjiyə tələbat yüksəlsə də, ətraf mühiti çirkləndirmir. Eyni zamanda, bərpaolunan enerji mənbələrindən fərqli olaraq qazıntı yanacağı tükənir.

Fikrimi bir qədər də konkretləşdirib deyə bilərəm ki, enerji tələbatının davamlı yüksəlişi "yaşıl enerji"dən fərqli olaraq, ənənəvi enerji ehtiyatları bu sahədəki mənbələrin azalması, enerji bazarlarında qiymətlərin artması, ekoloji gərginliyin və iqlim dəyişikliyinin kəskinləşməsi kimi potensial təhdidlər yaradır. Belə ki, hesablamalara əsasən, 1970-ci illərlə müqayisədə son illər neftə 2,12 dəfə, kömürə 2,67 dəfə, təbii qaza isə tələbatın 4,33 dəfə artması bunun bariz ifadəsidir.

**Cəmilə Əhmədova:**



– Həyatımızın bütün sahələrinə təsir göstərən iqlim dəyişmələrinin əhatə dairəsi, təkrarlanması və intensivliyi artan isti hava dalğaları, meşə yanğınları, daşqın və sellər, tropik tufanlar və qasırğalar fövqəladə humanitar halların yaranmasına səbəb olur. Bu hava və iqlim təhlükələri insan sağlamlığına birbaşa və dolayı yolla təsir göstərir. Eyni zamanda, əlavə ölüm halları, qeyri-yoluxucu və yoluxucu xəstəliklərin yaranması və yayılması riskini artırır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hazırda dünyada 3,5 milyarddan çox insan iqlim dəyişmələrinə xeyli dərəcədə məruz qalmış ərazilərdə yaşayır. 2030-2050-ci illərdə iqlim dəyişmələrinin yaratdığı pis qidalanma, malyariya, ishal və istilik vurmasının hər il 250 min əlavə ölümə səbəb olacağı gözlənilir.

Artıq qeyd olunduğu kimi, Azərbaycan da iqlim dəyişmələrinin mənfi təsirlərinə məruz qalır. İsti hava dalğalarının təkrarlanması, intensivliyi və davamiyyəti getdikcə artır. İsti dalğalar böyük şəhərlərdə və dağətəyi ərazilərdə daha böyük risklər yaradır. Belə ki, əgər 1961-1990-cı ilərdə (baza dövrü) Bakıda 2 isti dalğası müşahidə olunmuşdusa, hazırda onların sayı 27-yə çatır. Məsələn, bu göstərici Şəkidə müvafiq olaraq 6 və 34, Gəncədə 8 və 15-dir. Lənkəranda isə baza dövründə isti hava dalğası qeyd edilməyib. Son on illiklərdə isə 5 dalğa müşahidə olunub.

Araşdırmalar göstərir ki, müxtəlif səbəblərdən orqanizm zəifləmiş, ağır xəstəliklər keçirmiş, həmçinin bəzi xroniki xəstəliklərdən (qan dövranı sistemi, tənəffüs orqanı xəstəlikləri, sinir sistemi və s.) əziyyət çəkən insanlar, yaşlılar və uşaqlar iqlim dəyişmələrinə, habelə onun fəsadlarına daha həssas olurlar.

Azərbaycan ərazisinin böyük bir hissəsində arid iqlim şəraitinin üstünlüyü ilə əlaqədar yerli əhalinin isti hava şəraitinə uyğunlaşmasına baxmayaraq, güclü istilərin və isti hava dalğalarının gözlənilən artımı bu uyğunlaşma prosesini üstələyə bilər və nəticədə, əhali anomal yay istilərinin mənfi təsirlərinə və yaratdığı risklərə məruz qalar.

Bakıda anomal istilər yaşanan yay aylarında bütün xəstəliklərin ümumi sayı, eləcə də ürək-damar, tənəffüs orqanları, psixi xəstəliklərin, travmaların, istivurma və günvurma hallarının sayı xeyli artır. Bu zaman müxtəlif səbəblərdən əlavə ölüm halları cəmi 3,4 faiz (119 əlavə ölüm halı) artsa da, insult, infarkt kimi xəstəliklərdən vəfat edənlərin sayı daha çox olur. Avropa ölkələrində isə əlavə ölüm halları 2003-cü ilin qızmar yayında 70 min, 2022-ci ildə isə 61 mindən çox qeydə alınıb.

Sel və daşqınlar da əhalinin sağlamlığı üçün risklər yaratmağa başlayıb. Belə ki, 1966-cı ildən 2000-ci illərə qədər ildə cəmi 2-5 sel və daşqın hadisəsi baş verirdisə, son onilliklərdə kəskin artım müşahidə olunub. Məsələn, 1922-ci ildə 51, 2023-cü ildə isə rekord sayda –143 daşqın və sel hadisəsi qeydə alınıb. Bu da insan sağlamlığı üçün bir sıra ciddi çətinliklər yaradır.

Ölkədə sel və daşqın hadisələrinin artması, içməli su probleminin narahatlıq doğurması, açıq su mənbələrindən istifadənin getdikcə genişlənməsi, transmissiv və təbii ocaq xəstəlikləri üçün təbii, xüsusən də əlverişli iqlim şəraitinin mövcudluğu və digər həm təbii, həm də sosial xarakterli səbəblərlə əlaqədar bəzi yoluxucu xəstəliklərin çoxalması riski getdikcə yüksəlir.

(ardı 13-cü səhifədə)

(əvvəli 12-ci səhifədə)

# ilə mübarizənin ön cəbhəsidir

Bütün dünyada iqlim dəyişmələrinə uyğunlaşma strategiyası onun mənfi təsirlərinin vurduğu ziyanı azaltmaqla və təsirlərini yumşaltmaqla iqlim dəyişmələri ilə mübarizənin ən mühüm elementlərindən biri kimi diqqət çəkir. Təbii ki, uyğunlaşma tədbirlərinin həyata keçirilməsi xeyli xərc tələb edir. Lakin bir çox hallarda mümkün mənfi təsirlərə əvvəlcədən hazırlıq tədbirlərinə qoyulan xərclər onun vurduğu ziyandan dəfələrlə az olur. Daha tez-tez baş verən təhlükəli iqlim hadisələrinə vaxtında cavab reaksiyası onların nəticələrini aradan qaldırmaq üçün xərcləri xeyli azaltmağa, ən başlıcası isə çoxsaylı insan itkisinin qarşısını almağa imkan verir.

**Zakir Eminov:**

– Ötən əsrin 90-cı illərindən başlayaraq dünyada iqlim çox sürətlə dəyişir. Bu məsələdə inkişaf etməkdə olan ölkələrin payı kifayət qədər yüksəkdir. Amma inkişaf etmiş ölkələr, məsələn Çin və Hindistanın iqtisadiyyatının ümumi həcmi, yəni iqtisadiyyatın ümumi milli dəyəri olduqca böyükdür. Son illər Braziliya da o sıraya qoşulub. Amerika Birləşmiş Ştatlarının bir zavodunun saysız-hesabsız müəssisəsi işləyir.



Qlobal istiləşmənin qarşısının almağın özünün problemləri var. Amma bu o demək deyil ki, bu sahədə heç bir iş görülməməlidir. Ona görə də hər il Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının sessiyası (COP) keçirilir. İqlimlə bağlı bu mötəbər beynəlxalq tədbirə bütün dövlət, hökumət başçıları, on minlərlə mütəxəssis alim və ekspert qatılır. Ötən il Birləşmiş Ərəb Əmirliklərindən sonra növbəti beynəlxalq konfransa Azərbaycan evsahibliyi edəcək. 2024-cü ilin noyabr ayında Bakıda keçiriləcək COP29-da iştirak etmək üçün xaricdən 80 minədək nümayəndənin iştirakı gözlənilir. Bu, COP-un nə qədər vacib və əhəmiyyətli bir tədbir olduğuna dəlalət edir.

Karbon emissiyalarının azaldılmasının, havanın çirkləndirilməsinin qarşısını almaq çox çətin bir işdir. Bu məsələdə hər bir ölkə öz payını, cüzi də olsa, verməlidir ki, ən azından Yer planetinin temperaturunu indiki səviyyədə saxlaya bilək. Düzdür, iqlim sürətlə dəyişir. Az qala, bu barədə hər gün mətbuatda həyəcanlı məlumatlara rast gəlmək mümkündür. Məsələn, son zamanlar Antarktidanın buzlaqları sürətlə əriyir. Hətta 2-3 gün bundan qabaq mətbuatdan oxudum ki, Fransa böyüklüyündə bir aysberq ayrılıb. Buzun da xüsusiyyəti belədir ki, materikdən ayrıldıqdan sonra onun əriməsi an məsələsidir. Bu prosesin sürətlə getməsi isə yaşayışımız üçün çox ciddi təhlükə yaradır.

Son illər iqlim dəyişikliklərinin təzahürləri getdikcə daha artıq hiss olunur. Bir də görürsən, 2-3 ay bir damcı da olsa, yağıntı düşmür. Amma birdən leysan yağır, çaylarda sel, daşqınlar artır, hər şeyi bir andaca yuyub aparır. Yeri gəlmişkən, biz, Azərbaycandan olan bir qrup alim Şimali Qazaxıstana, Petropavlovska gedəcəyik. Məlum olduğu kimi, orada təbii fəlakət pik həddə çatıb. Artıq 72 min nəfər fəlakət bölgəsindən təxliyə olunub. Qazaxıstanda belədir ki, Ural çayı yuxarıdan aşağı, Ob çayının qolu olan Tobol isə




yuxarı axır. Rusiyada anbarın partlaması nəticəsində sel suları Qazaxıstana doğru axır. Qazaxıstan isə qəzanın fəsadlarını aradan qaldırmaq üçün suyu buraxıb. Nəticədə, suyun səviyyəsi bir sutkada 3 metr qalxıb. Düzdür, bunun Xəzər dənizinə heç bir təsiri olmayacaq. Çünki Ural çayının suyu Xəzərə təsir etmək gücündə deyil. Amma hər bir halda bu, təbii fəlakətdir. Bu istənilən ölkə üçün çox ciddi təhlükə mənbəyidir.

Yenə də deyirəm, quraqlıqların baş verməsi, güclü leysan yağışlarının yağması, sellərin, daşqınların olması iqlim dəyişikliklərinin təzahürüdür. Amazon meşələrinə dünyanın ağ ciyəri deyirlər. Hazırda həmin meşələr üçün son dərəcə ciddi təhlükə yaranıb. Məsələ təkcə onda deyil ki, meşələr sürətlə qırılır. Bütün bunlar planetimiz üçün çox ciddi təhlükə mənbəyidir. Qarşısını almaq nə qədər çətin olsa da, bu məsələdə hər bir ölkə öz payını verməlidir. Məlum olduğu kimi, Kioto Konvensiyasında hər ölkənin özünün standart payı müəyyənləşdirilib. Hətta bəzi ölkələr iqtisadiyyatın zəif olmasını əsas gətirərək ətraf mühitin çirkləndirmə səviyyəsi az olduğundan kvotanın satılması məsələsini ortaya atıblar. İstənilən halda isə hər bir ölkə üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir.

Bütün dünya ölkələri müəyyən şəkildə bu sahədə iş görürlər. Demək olmaz ki, bununla bağlı sənədlərə imza atıb öhdəlik götürən ölkələr onların hamısını yerinə yetirə biləcəklər. Əslində dünya bizim düşündüyümüz qədər də böyük deyil. Çünki pandemiya göstərdi ki, bir amil bütün dünya ölkələrini, onların təsərrüfatını iflic edə bilir. İndi deyirlər ki, temperatur 1,2-1,5 dərəcə artıb. İndən belə 0,5 dərəcə də artıb 2 dərəcəyə çatsa, artıq bu amilin özü ilə gətirdiyi fəlakətin qarşısını ala bilməyəcəyik. Ona görə də temperaturun o səviyyəyə gəlib çatmaması üçün bütün imkanlar səfərbərliyə alınmalıdır.

İqlim dəyişiklikləri ilə bağlı mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi bu sahədə növbəti addımların atılması tələbini qarşımıza qoyur. Əslində biz o öhdəlikləri çoxdan götürmüşük. Ötən müddətdə bu sahədə xeyli iş də görə bilmişik. Yeri gəlmişkən, hazırda Qaradağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sürətli bərpa-quruculuq işləri həyata keçirilir. Bu zaman o amillər ciddi şəkildə nəzərə alınır. Amma ölkənin digər bölgələrində də bu məsələlərə xüsusi diqqət yetirmək lazımdır. Azərbaycanda elektrik enerjisinin, təqribən, 90 faizi istilik elektrik stansiyalarından alınır. Düzdür, bizdə elektrik stansiyaları təbii qazla işləyir. Orada çirklənmə səviyyəsi nisbətən azdır. Amma dünyanın əksər ölkələrində elektrik stansiyaları, mazutla, daş kömürlə işləyir. Bu, ətraf mühit üçün cox ciddi təhlükə mənbəyidir. Buna görə bütün dünya ölkələri karbon emissiyalarının azaldılması naminə tam səfərbər olmalıdır. Bizim bundan başqa çıxış yolumuz yoxdur.

**Səid Səfərov:**

– Deyilənlərlə bağlı diqqəti bir sualın cavabına yönəltmək istərdim: Nəyə görə sənayeləşmə başlayandan sonra Yerin temperaturu nəzərəçarpacaq dərəcədə yüksəlib? Ona görə ki, insan fəaliyyəti nəticəsində atmosferdə istixana qazlarının konsentrasiyası artır. Sənayeləşmə dövrü ilə, yəni 1850-1900-cü illərlə müqayisə etsək, ötən dövrdə Yerin orta illik temperaturu 1,1-1,3 dərəcə artıb. Ancaq bu artım hər yerdə eyni deyil. Məsələn, havanın temperaturu Moskvada 2 dərəcə, Astanada 3-4 dərəcə artıb. Azərbaycanda isə bu rəqəm 0,8-1,2 dərəcə təşkil edir. Bunlar rəsmi tədqiqatların nəticələridir.

Bəs, belə bir şəraitdə dünya dövlətləri nə etmək istəyirlər? Kioto protokolu və Paris razılaşmasına diqqət yetirək. Kioto protokolunda hər bir dövlətin qarşısında karbon emissiyasının neçə faiz azaldılması ilə bağlı konkret tələb qoyulmuşdu. Özü də orada başlıca tələb belə idi ki, karbon emissiyalarının miqdarı 2030-cu ilədək 1990-ci il səviyyəsinə nisbətən 35 faiz azaldılmalıdır. Amma Paris razılaşmasında məsələnin müxtəlif aspektlərinə daha çox diqqət ayrılıb. Həmin sənəddə dövlətlərin qarşısına dəqiq öhdəlik qoyulmayıb. Bu da onunla bağlı idi ki, bəzi dövlətlər faizin çoxluğunu əsas gətirərək Paris sazişinə qoşulmaqdan çəkinirdilər. Hətta ABŞ prezidenti Tramp hakimiyyətə gəldikdən sonra Paris razılaşmasından çıxdı. Amma Bayden prezident seçilən kimi həmin sazişdə ABŞ-ın fəaliyyətini yenidən bərpa etdi. Bu, siyasi addım idi. Çünki ölkənin nüfuzu bütün dünyada aşağı düşürdü.

Məsələnin digər cəhətinə diqqət yetirək. Ənənəvi enerjidən istifadənin, karbon emissiyalarının azaldılması, həm də istehsalın həcminin aşağı düşməsi deməkdir. Axı təkcə sənaye deyil, kənd təsərrüfatı istehsalı zamanı da atmosferə karbon qazı atılır. Göründüyü kimi, karbon emissiyalarının azaldılması sənaye və kənd təsərrüfatı istehsalının da azaldılmasına gətirib çıxaracaq. Bu da böyük bir fəlakətə səbəb ola bilər. Bunun baş verməməsi isə planetimizin zəngin bərpaolunan enerji potensialından istifadə zərurətini yaratdı. Beləliklə də, "yaşıl enerji" anlayışı meydana çıxdı. Yəni, mazut, daş kömür, neft, qaz yandıqda atmosferə külli miqdarda karbon qazı atılır. Sadəcə olaraq, mazutun tərkibində atmosferə atılan çirkli, zərərli maddələrin miqdarı daha çoxdur. Ona görə də Almaniyada, eləcə də Avropanın digər ölkələrində bu məsələyə çox yüksək səviyyədə yanaşılır. Təkcə onu demək kifayətdir ki, Almaniya özünün elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payını ümumi enerji potensialında 50-60 faizədək artırmağa nail olub. Yaxın perspektivdə isə bunun daha da artırılması nəzərdə tutulur.

Azərbaycana gəldikdə isə, hələ 2004-cü ildə hökumət Alternativ və Bərpa Olunan Enerji Agentliyi yaradıb. Düzdür, müxtəlif vaxtlarda onun konfiqurasiyası dəyişib, ayrı-ayrı qurumların tabeliyində fəaliyyət göstərib. Ancaq onda bu məsələ indiki kəskinliyi ilə qoyulmamışdı. Buna baxmayaraq, Azərbaycan uzaqgörənlik edərək bu sahədə mühüm addım atıb. Ölkəmiz Kioto protokoluna əsasən, 2030-cu ilədək karbon emissiyalarını 35 faiz azaltmaqla bağlı öhdəlik götürüb. Bununla yanaşı, Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan 2050-ci ilədək emissiyaları 40 faiz azaldacaq. Bu təkcə sözdə deyil, əməldə də hiss olunur. Belə ki, ötən müddətdə ölkəmizdə bu sahədə praktik işlər görülüb. Artıq Qaradağda 230 meqavatlıq Günəş Elektrik Stansiyası istismara verilib. Bu yaxınlarda isə bizim də iştirak etdiyimiz bir layihə çərçivəsində Xızı və Qobustanda çox güclü külək turbinləri quraşdırılıb.

Bütün bunlardan əlavə, Naxçıvanda və işğaldan azad olunmuş ərazilərdə sıfır emissiya məsələsi qoyulub. Bu o deməkdir ki, həmin ərazilərdə karbohidrogen tərkibli yanacaqdan deyil, yalnız alternativ enerjidən istifadə olunacaq. Təsadüfi deyil ki, möhtərəm Prezidentimiz tərəfindən həmin ərazilər "yaşıl enerji" zonası elan edilib. Bunun üçün orada günəş və külək, eləcə də kiçik su elektrik stansiyaları inşa olunacaq. Bunun da nəticəsində Azərbaycan qlobal istiləşməyə səbəb olan karbon emissiyalarının azaldılmasına öz töhfəsini verəcək.

Heç şübhəsiz, bütün bunları dünya dövlətləri də görür. Dubayda keçirilən COP28-də mütləq səsçoxluğu ilə COP29-un Azərbaycanda keçirilməsinə razılıq verildi. Bu barədə qərarın qəbul edilməsi heç də təsadüfi addım deyil. Hazırda ölkəmizdə bu mötəbər beynəlxalq tədbirə hazırlıqla bağlı mühüm tədbirlər həyata keçirilir. Dünya alimlərinin bu məsələyə diqqətini artırmaq üçün tədbirlərin sayı daha da artırılacaq. Bu yaxınlarda isə İsveçrədə COP29-la bağlı tədbirlər keçiriləcək. Hesab edirəm ki Azərbaycan bu sahədə üzərinə götürdüyü öhdəliklərə sadiqliyini tam nümayiş etdirib. Coğrafiya İnstitutunun alimləri də bu işdə fəal iştirak edəcəklər. Yeri gəlmişkən, indi hər bir əməkdaşımızın stolunun üstündə COP29-la bağlı tədbirlər planı var, məqalələr yazılır, layihələr işlənir. Məsələn, "İqlim dəyişikliklərinin işğaldan azad olunmuş ərazilərimizə təsiri" adlı məruzə hazırlamışıq. Bu kimi digər layihələrimiz də var. Bütövlükdə isə, institutumuzda bu sahədə çox böyük işlər görülür.

**Nəriman Paşayev:**

– Səid müəllimin bu fikrinə əlavə edib deyə bilərəm ki, COP29-un Azərbaycanda keçirilməsi təsadüfi deyil. Çünki, əvvəla, ölkəmizin bu cür beynəlxalq tədbirlərə yüksək səviyyədə evsahibliyi etmək təcrübəsi var. Məsələn, "Formula 1" Azərbaycan Qran-Prisi, "Eurovision" mahnı müsabiqəsi, I Avropa və IV İslam Həmrəyliyi oyunları, Bakı Beynəlxalq Humanitar, Mədəniyyətlərarası Dialoq, Qlobal Bakı və Qlobal Media forumları kimi nüfuzlu toplantıların paytaxtımızda reallaşdırılması bunun parlaq ifadəsidir.

Digər tərəfdən, respublikamız hazırda dünyada "yaşıl iqtisadiyyat"a keçid strategiyasını uğurla gerçəkləşdirən bir dövlət kimi tanınır. Bu istiqamətdə qarşıya qoyulan məqsədlərə də diqqət yetirəndə Azərbaycanın qısa bir müddətdə strateji ekoloji qərarlarla konkret nəticələr əldə edən, "yaşıl enerji" iqtisadiyyatına verdiyi əməli fəaliyyət göstərən bir ölkə olduğu aydın nəzərə çarpır. Bu məsələdə xatırlatmaq kifayətdir ki, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyir və belə bir yöndə davamlı addımlar atır.

Beləliklə, beynəlxalq aləmdə Azərbaycanın haqlı olaraq COP29-a evsahibliyi 2024-cü ilin ən mühüm hadisəsi və ölkəmizin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də bu missiyaya verilən dəyərin parlaq nümunəsidir.

Bütün bunlar Azərbaycanın COP29-un, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyalarının təşkilini də ən yüksək səviyyədə həyata keçirəcəyini deməyə əsas verir.

Onu da qeyd edim ki, COP29 "yaşıl enerji"yə keçid məsələsində ən önəmli maarifləndirmə işidir. Hazırda "yaşıl enerji"yə keçidi dəstəkləyən, ilk növbədə, Avropa ölkələridir. Çünki bu ölkələrdə artıq demək olar ki, bütün faydalı qazıntılar tükənib. Həm də dünyada qlobal istiləşmə baş verir. Bu isə özü-özlüyündə ciddi fəsadlar yaradır. Ona görə də əksər inkişaf etmiş ölkələr ümumi daxili məhsulun 2 faizə qədərinin "yaşıl enerji"yə keçidə sərf edilməsini qarşıya mühüm məqsəd olaraq qoyub.

"Yaşıl enerji"yə keçid üçün Azərbaycanda ən uyğun bölgələr Qarabağ və Şərqi Zəngəzur hesab edilir. Belə ki, adları çəkilən bu iqtisadi rayonlarda hər şey sıfırdan başlanılır. Söhbət burada "yaşıl tikinti", "yaşıl kənd təsərrüfatı", "yaşıl nəqliyyat"dan gedir, yəni "sıfır tullantı" diqqət mərkəzində saxlanılır. Çünki bu, "yaşıl enerji"yə keçidin əsas tələbi, əsas prinsipidir. Tullantısız texnologiyadan istifadəyə də mütləq şəkildə yanaşılır.

Yeri gəlmişkən, Azərbaycan Respublikasında ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerji resurslarının payının 2030-cu ilədək 30 faizə çatdırılması nəzərdə tutulur. İndi bu rəqəm 7-10 faizə qədərdir. Bizdə hazırda günəş və külək elektrik stansiyaları qurulur. "Yaşıl enerji" heç vaxt tükənmir, daim bərpa olunur. Qeyd etməliyəm ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlığa dair saziş imzalanıb ki, bu da ölkəmizdən Avropaya uzanan "yaşıl enerji" dəhlizi deməkdir. "Yaşıl enerji"yə keçid həm də iqtisadi baxımdan zəruridir, çünki bu genişmiqyaslı layihənin gerçəkləşdirilməsi nəticəsində çoxsaylı iş yerləri açılır.

Bu gün dünyada alternativ enerjidən istifadə edən əsas iki dövlət var: İslandiya və Kanada. İslandiya artıq 90 faiz "yaşıl enerji"dən yararlanır. Dünyada alternativ enerjinin növlərinin çox olduğunu xatırlatsaq, Azərbaycanın da bu sahədə geniş imkanlara malik olduğunu əminliklə söyləmək olar. Xüsusilə Bakıda həm külək, həm də günəş enerjisi boldur.

Bu gün dünyada "yaşıl enerji" istehsalına keçidə xüsusi əhəmiyyət verilir. Çünki planetimizdə qlobal istiləşmə sürətlə gedir. Bir sabah ayılıb görə bilərik ki, bütün Avropa, 40-dan çox ölkə suyun altında qalıb. Ona görə ki, qlobal istiləşmə kütləvi surətdə buzlaqların əriməsinə səbəb olur. Deməli, karbon emissiyaları azalarsa, temperatur da idarə oluna bilər. Bütün bunlar isə, heç şübhəsiz, insan sağlamlığına təsir edən amillərdir. Cəmiyyət də təbiətə, ətraf mühitə həssas yanaşmalıdır. Tullantılar düzgün idarə olunmalıdır. Tullantısız, daha az tullantı ilə yaşamaq diqqətlə, vaxt itirmədən öyrənilməlidir. Bu gün küçələrdə tullantılar var. Bunlar hamısı həm də vətəndaş məsuliyyətidir. Eyni zamanda, təbii ki, ətraf mühiti çirklənmədən xilas etmək üçün tullantısız texnologiyaya keçmək son dərəcə zəruri məsələdir. Beləliklə, Azərbaycan nəinki "yaşıl enerji"dən istifadəni 2030-cu ilədək 30 faizə çatdıra bilər, həm də 2050-ci ilədək bu göstəricini 50 faizədək qaldıra bilər. Bu zaman biz, eyni zamanda, neft, qaz kimi təbii sərvətlərə qənaət etmiş olarıq.

**Cəmilə Əhmədova:**

– Bugünkü söhbət də bir daha təsdiqləyir ki, hazırda iqlim dəyişikliyinin yaratdığı böhranın qarşısının alınması beynəlxalq aləmi ciddi düşündürən, narahat edən məsələlərdən biridir. Çünki sənayeləşmiş dünyada kimyəvi tullantılar və çirklənmə ciddi iqlim böhranına səbəb olur ki, bu da öz növbəsində sağlamlıq və ətraf mühitə ziyan vurur. Buna görə də fikrimcə, səhiyyə sahəsi ilə bağlı prioritet istiqamətlərin müəyyənləşdirilməsi zəruridir. Başqa sözlə, hazırda, əsasən, inkişaf etmiş ölkələrdə kimyəvi çirklənmənin, sənaye və hərbi tullantıların yaratdığı iqlim problemlərinin aradan qaldırılması yolları müəyyənləşdirilməli və buna yol verən, sağlamlıq və insan həyatını təhlükə ilə üz-üzə qoyan, tullantıları və çirklənmələri yaradan qurumların məsuliyyət daşıması qanuni şəkildə tənzimlənməlidir.

Heç kəsə sirr deyil ki, sənaye və hərbi tullantılar toplandığı ərazilərin yaxınlığında, sənaye və ya kənd təsərrüfatı sahələrinin ətrafında yaşayan əhali zərərli kimyəvi maddələrdən və pestisidlərdən zəhərlənməyə məruz qalır ki, bu da insanlarda tənəffüs problemləri, nevroloji pozğunluqlar və reproduktiv problemlər kimi sağlamlıq üçün mənfi təsirlərə gətirib çıxarır. Sənayenin inkişafı fonunda yaranan kimyəvi çirklənmə insan sağlamlığına və ətraf mühitin korlanmasına ciddi risklər yaradır. Bu, əslində, son nəticədə iqlim dəyişikliyinə gətirib çıxarır və genişmiqyaslı səmərəli mübarizə tədbirlərinin gerçəkləşdirilməsi zəruriliyinə təsir göstərir. Təbii ki, belə bir şəraitdə əhalinin sağlamlığına və ətraf mühitin mühafizəsinə yönələn siyasətin təbliği vacibdir. Bu baxımdan beynəlxalq tədbir olaraq COP-ların keçirilməsi qlobal önəm daşıyır.

Bu məqamda bir daha qeyd etmək istəyirəm ki, iqlim dəyişikliyi suyun, torpağın və havanın ekoloji çirklənməsini daha da sürətləndirir. İqlim dəyişmələri, temperaturun artması çirklənmə səviyyəsinin yüksəlməsinə, onun coğrafiyasının geniş miqyas almasına təsir göstərir. Ümumiyyətlə, temperaturun artması ilə atmosferdəki mövcud qazların səviyyə balansı pozulur və nəticədə zəhərli qazlar əmələ gəlir. Şübhəsiz ki, belə hal ətraf mühitin sürətlə çirklənməsinə əlverişli şərait yaradır.

Yeri gəlmişkən, Dubayda keçirilən COP28-in ilk günü insan sağlamlığına həsr olunmuşdu. Həmin tədbirdə belə bir mövzunun önə çəkilməsi COP-un tarixində bir ilk idi, yəni iqlim dəyişmələri, temperaturun artması ilə insan sağlamlığına təhlükələrin yaranması beynəlxalq aləmin diqqət mərkəzinə gətirilirdi. COP28 çərçivəsində iqlim dəyişmələri və insan sağlamlığı ilə bağlı bəyannamənin hazırlanması və bu bəyannaməyə 120 ölkənin müsbət yanaşması qeyd edilən fikrin bariz ifadəsi, iqlim dəyişmələrinin həyatımızın bütün sahələrinə, eləcə də sağlamlığımıza təsirsiz ötüşmədiyinin daha bir təsdiqi idi.

İnanıram ki, Azərbaycanda keçiriləcək COP29 bu yöndə beynəlxalq aləmə böyük fayda gətirəcək, fərdlərin, biznes dairələrinin və hökumətlərin iqlim dəyişikliyi, onun təsirləri və həlli yolları haqqında məlumatlılığını daha da artıracaq, həmçinin ətraf mühitə nəzarət tədbirlərini gücləndirəcək. Bütün bunlarla bərabər, COP29 dünyada mövcud olan çağırışların həlli yollarına, necə deyərlər, qapı açacaq.

***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ,***
***Elşən AĞALAR (foto)***
***XQ***

# Milli idmanda tarixi uğur

**(əvvəli 1-ci səhifədə)**

Dina Ulyanova, Aleksandra Mollenhauer, Tiffani Heys və Mersedes Volkerdən ibarət millimiz Honkonqda "Paris 2024"-ə vəsiqə verən ilk təsnifat mərhələsində bir-birindən maraqlı oyun nümayiş etdirərək qalib olmaqla yanaşı, həm də Paris Olimpiadasına lisenziya qazanıb.

Azərbaycan Basketbol Federasiyasının baş katibi Vüqar Əzimov "XQ"-yə açıqlamasında əldə edilən qələbənin mühüm əhəmiyyətini qeyd etdi. O bildirdi ki, qələbəyə gedən yolda Serbiyadakı təlim-məşq toplanışı və ümumiyyətlə, ötən müddətdə yığmamızın böyük səylə keçdikləri hazırlıq xüsusi rol oynayıb:



– Komandamız basketbolun çox güclü olduğu Serbiyada təlim-məşq toplanışına qatılmışdı. Oradakı təlim-məşq toplanışından sonra qızlarımız Fransadakı beynəlxalq turnirdə iştirak etdilər. Bir neçə gün sonra isə aprelin birinci həftəsində Tailandda Paris Olimpiadasının təsnifat oyunlarına hazırlıq məqsədi daşıyan beynəlxalq turnirdə gücümüzü sınadıq. Millimiz beynəlxalq turniri ikinci sırada tamamladı.

Heyətin gücləndirilməsi məqsədilə Tiffani Heysin artıq Honkonqda heyətə qatıldığını bildirən baş katib qeyd etdi ki, qrup mərhələsinə başlayanda ilk oyunlar, demək olar ki, çox çətin olub.

– Millimiz ilk oyununda Çili seçməsini 17-14 hesabı ilə məğlub etdi. İkinci oyunda isə Monqolustan yığmasına 13-12 hesabı ilə qalib gələrək, adını yarımfinala yazdırdı. Həmin oyunda Heys bir az zədələndi və Niderland komandası ilə oynaya bilmədi. Amma əvvəldən qələbəyə köklənmişdik ki, bu da komandamız üçün əsas idi. Federasiya rəhbərliyi ilə söhbətimizdə daima qalib gələcəyimizi deyirdik. Macarıstanla yarımfinal oyunu çox gərgin keçsə də sonda millimiz 21-19 hesabı ilə qalib gələrək adını finala yazdırdı. Finala çox pis başladıq və 5:0 hesabı ilə rəqib komanda irəli keçdi. Tiffani Heys həmin oyunda çox ciddi zədələnsə də, ümidimizi itirmədik. Tiffaninin olmadığı dəqiqələrdə də qızlar toparlandılar. Komandamız əlavə vaxta gedən final oyununda Polşa millisinə 18-17 hesabı ilə qalib gələrək, "Paris-2024" Olimpiadasına vəsiqə qazandı.

Baş katib onu da vurğuladı ki, Paris Olimpiadasına vəsiqə əldə etməyimiz komandamızın güclü potensialından xəbər verir. Paris Olimpiadasında dünyadan cəmi 8 yığma iştirak edəcək ki, onlardan biri də Azərbaycan komandasıdır. Paris Oyunlarına vəsiqə qazanmaq özü bir qələbədir. Ümid edirəm ki, olimpiadadan medalla qayıdacağıq.

Vüqar Əzimov yığmanın hazırlığına qısa fasilə verəcəklərini bildirdi. Vurğuladı ki, yığmanın Olimpiadaya hazırlığı Serbiyada davam etdirəcəyi planlaşdırılır.

Qeyd edək ki, yığmamızın üzvlərindən biri – 34 yaşlı Dina Ulyanova Bakıda doğulub və Azərbaycanda basketbol oynamağa başlayıb. Karyerasını klub




səviyyəsində Rusiyada davam etdirən Dina, hazırda millimizlə yanaşı, "Neftçi" klubunun üzvüdür. 25 yaşlı Aleksandra Mollenhauer Azərbaycan basketbol məktəbinin yetirməsidir. 5 yaşından Bakıda yaşayır. İşlə əlaqədar ABŞ-dan Azərbaycana köçən valideynləri indi də burada işləyirlər. Aleksandra hazırda İspaniyanın "Estudyantes" klubunda oynayır. Onun atası Skott Mollenhauer əvvəllər Azərbaycan klublarında oynamış keçmiş basketbolçu, indi isə qadınlardan ibarət əsas yığmanın köməkçi məşqçisidir.

34 yaşlı Tiffani Heys və 37 yaşlı Mersedes Volker vətəndaşlıq almış amerikalılardır. Onlar 2015-ci il Avropa Oyunlarından sonra Azərbaycan millisində çıxış edirlər.

Qeyd edək ki, Dina Ulyanova, Aleksandra Mollenhauer və Mersedes Volker 2017-ci ildə Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarında Azərbaycan milli komandasının heyətində qalib adını qazanıblar. D.Ulyanova, A.Mollenhauer və T.Heys isə 2022-ci ildə Türkiyənin Konya şəhərində təşkil edilən İslamiadada birinci yeri tutublar.

***Leyla QURBANOVA***
***XQ***

## 2 boksçumuz Avropa çempionu olub

**Azərbaycanın 2 boksçusu Xorvatiyanın Poreç şəhərində gənclər arasında keçirilən Avropa birinciliyində qızıl medal qazanıb.**



Komandamızın üzvü Bilalhəbaşi Nəzərov (48 kq) finalda Oleksandr Zveryevlə (Ukrayna) döyüşüb. Hər 3 raundu xeyrinə bitirən B.Nəzərov yekunda 5:0 hesabı ilə qalib gələrək qızıl medala yiyələnib.

Yığmamızın heyətində 54 kiloqram çəki dərəcəsində Ömər Aslanlı da həlledici mərhələdə ukraynalı idmançı ilə mübarizə aparıb. Təmsilçimiz rəqibi Maksim Çekini 4:1 hesabı ilə məğlub edərək fəxri kürsünün ən yüksək pilləsində yer alıb.

## Cüdoçularımız Avropa birincisidir

**Azərbaycan cüdoçuları Almaniyanın paytaxtı Berlində keçirilən yeniyetmələr arasında Avropa kuboku yarışında 10 medal əldə ediblər.**

Turnirdə 4 qızıl, 3 gümüş və 3 bürünc medal qazanan komandamız medal əyarına görə ümumi hesabda 1-ci yeri tutub.

Polşanın Poznan şəhərində keçirilən gənclər arasında Avropa kuboku yarışında isə yığmamız 1 qızıl və 1 gümüş medala sahib olub. Millimiz bu nəticə ilə medal əyarına görə ümumi he-




sabda 7-ci yeri, qızlar arasında isə 3-cü yeri tutub.

## Gimnastlarımız Bişkekdə 7 medal qazanıblar

**Azərbaycanın bədii gimnastları Qırğızıstanın Bişkek şəhərində təşkil edilən birinci "Kelechek" beynəlxalq turnirində 7 qızıl medala sahib olublar.**



Böyüklər arasında Zəhra Cəfərova top və çoxnövçülükdə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Gənclərdən isə Şəms Müvəffəqi çoxnövçülük, halqa, top, gürzlər və lentlə hərəkətlərdə birinci yeri tutub.

***L.SABİRQIZI***
***XQ***

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

## Azərbaycan Turizm və Menecment Universiteti

*Azərbaycan Turizm və Menecment Universiteti 2024/2025-ci tədris ili üçün doktorantura və dissertanturaya qəbul elan edir*

Azərbaycan Turizm və Menecment Universiteti Nazirlər Kabinetinin 27 mart 2024-cü il tarixli 163s nömrəli sərəncamı ilə təsdiq olunmuş plana əsasən 2024/2025-ci tədris ili üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir. Fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənədləri 2024-cü il aprelin 16-dan mayın 15-nə dək hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 9.00-dan 17.00-dək ATMU-nun əsas korpusunda Elm və innovasiya şöbəsinə (I mərtəbə, 105-ci otaq) təqdim etmək olar. Sənəd təqdim edənlər üçün elektron formada Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin portal.edu.az saytından da qeydiyyatdan keçmək mütləqdir.

Doktorantura və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

**- ərizə (ATMU rektorunun adına);**
**- kadrların şəxsi-qeydiyyat vərəqi;**
**- tərcümeyi-hal;**
**- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);**
**- iş yerindən xasiyyətnamə;**
**- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;**
**- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;**
**- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);**
**- şəxsiyyəti təsdiq edən sənədin surəti;**
**-elmi rəhbərin razılıq sənədi;**
**- fəlsəfə doktoru elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üçün).**

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə yolu ilə qəbul olunurlar. Doktoranturanın tam kursunu bitirən şəxs eyni ixtisas üzrə təkrarən doktoranturaya qəbul oluna bilməz. Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən şəxslər xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər. Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfə fənnindən imtahana buraxılırlar. Fəlsəfədən məqbul alan şəxslər ixtisas imtahanına buraxılırlar.

Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertanturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), müvafiq istiqamət üzrə tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan, azı iki il elmi və elmi-pedaqoji iş stajına malik elmi və elmi-pedaqoji kadrlar sənəd təqdim edə bilərlər.

Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər.

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağı bacaran və fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Qeyd – fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənəd verən iddiaçılar xarici dil imtahanında iştirak etmək üçün sənəd qəbulu bitdikdən sonra Dövlət İmtahan Mərkəzinin saytında şəxsi kabinet açaraq qeydiyyatdan keçməlidirlər. Xarici dildən imtahanların Dövlət İmtahan Mərkəzi tərəfindən 2024-cü il iyunun 9-da keçirilməsi planlaşdırılır.

Sənədlər ayrıca qovluqda müvafiq tələblərə uyğun hazırlanıb şəxsən təqdim edilməlidir.

Azərbaycan Turizm və Menecment Universiteti, Elm və innovasiya şöbəsi, AZ 1072, Bakı, K.Rəhimov küçəsi 822/23-cü məhəllə.
Tel: (+994) 012 564 42 33 (daxili 125)
E-mail: h.qasimli@atmu.edu.az

## Azərbaycan Universiteti

2024-cü il üçün fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul elan edir

Sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçirilir. Müraciətlər portal.edu.az vasitəsilə 2024-cü il aprelin 16-dan mayın 15-dək qəbul olunacaqdır.

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul planı**
İqtisadi fəaliyyət növləri - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
Ümumi iqtisadiyyat - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
Vətən tarixi - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
German dilləri - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
Beynəlxalq münasibətlər - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
**Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya qəbul planı**
Diferensial tənliklər - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
Sahə iqtisadiyyatı - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
Dil nəzəriyyəsi – 1 nəfər, qiyabi, ödənişli əsaslarla
Müqayisəli – tarixi və müqayisəli tipoloji dilçilik - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
Azərbaycan ədəbiyyatı - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
**Daha ətraflı məlumat üçün**
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
Telefon- (+99412) 431 41 12/13/16 (daxili 126), 050 268 38 00.

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

## Azərbaycan Turizm və Menecment Universitetinin

2024-cü il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul planı

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktorant hazırlığı üzrə qəbul planı | | | | | dissertant hazırlığı üzrə qəbul planı | | | doktorant hazırlığı üzrə qəbul planı | | | | | dissertant hazırlığı üzrə qəbul planı | | |
| | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | |
| | | | Dövlət sifarişi | | Ödənişli əsaslarla | | | Dövlət sifarişi | Ödənişli əsaslarla | | Dövlət sifarişi | | Ödənişli əsaslarla | | | Dövlət sifarişi | Ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 5304.01 | İqtisadi fəaliyyət növləri | 2 | 2 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 5308.01 | Ümumi iqtisadiyyat | 2 | 1 | - | - | 1 | 1 | - | 1 | - | - | - | - | - | - | - | - |
| 5312.01 | Sahə iqtisadiyyatı | 2 | 1 | - | - | 1 | - | - | - | - | - | - | - | - | - | - | - |
| 5708.01 | German dilləri | 1 | - | - | - | 1 | - | - | - | - | - | - | - | - | - | - | - |
| 5901.01 | Beynəlxalq münasibətlər | 3 | 2 | - | - | 1 | - | - | - | - | - | - | - | - | - | - | - |
| 5603.01 | Beynəlxalq hüquq; insan hüquqları | 2 | 2 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 6219.01 | Kulturologiya və onun ümumi məsələləri | 2 | 2 | - | - | - | 1 | - | 1 | - | - | - | - | - | - | - | - |
| 6220.01 | Muzeyşünaslıq | 2 | 2 | - | - | - | - | - | - | 1 | - | - | - | 1 | - | - | - |
| 6307.01 | Sosial dəyişiklik və inkişaf | 3 | 2 | - | 1 | - | 1 | - | 1 | - | - | - | - | - | - | - | - |
| 6310.01 | Sosial problemlər | 2 | - | - | 1 | 1 | - | - | - | - | - | - | - | - | - | - | - |
| 5909.01 | Dövlət idarəçiliyi | 3 | 2 | - | - | 1 | - | - | - | - | - | - | - | - | - | - | - |
| | CƏMİ | 24 | 16 | - | 2 | 6 | 3 | - | 3 | 1 | - | - | - | 1 | - | - | - |

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Bakı Dövlət Universiteti

## 2024-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul elan edir

### FƏLSƏFƏ DOKTORU PROQRAMI ÜZRƏ

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə: Doktorantura – Cəmi | Doktorantura – Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: əyani | qiyabi | Dissertantura – Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1202.01 | Analiz və funksional analiz | **2** | 1 | 1 | |
| 1203.01 | Kompüter elmləri | **4** | 2 | 2 | |
| 1207.01 | Əməliyyatlar tədqiqi | | | | **1** |
| 1208.01 | Ehtimal nəzəriyyəsi | | | | **1** |
| 1210.01 | Topologiya | **1** | 1 | | |
| 1211.01 | Diferensial tənliklər | **2** | 1 | 1 | |
| 1214.01 | Dinamik sistemlər və optimal idarəetmə | **2** | 1 | 1 | |
| 2108.01 | Astrofizika və ulduz astronomiyası | **1** | | 1 | |
| 2206.01 | Molekulyar fizika | **1** | 1 | | |
| 2212.01 | Nəzəri fizika | **1** | | 1 | |
| 2220.01 | Yarımkeçiricilər fizikası | **2** | 1 | 1 | |
| 2222.01 | Nanoquruluşların fizikası və texnologiyası | **2** | 1 | 1 | |
| 2301.01 | Analitik kimya | **1** | | 1 | **1** |
| 2303.01 | Qeyri-üzvi kimya | **1** | 1 | | **1** |
| 2306.01 | Üzvi kimya | **1** | | 1 | |
| 2307.01 | Fiziki kimya | **1** | | 1 | |
| 2314.01 | Neft kimyası | **1** | | 1 | |
| 2391.01 | Ekoloji kimya | **1** | | 1 | **1** |
| 2401.01 | Zoologiya | **1** | | 1 | |
| 2406.01 | Biofizika | **1** | | 1 | |
| 2406.02 | Biokimya | **1** | | 1 | |
| 2409.01 | Genetika | **1** | 1 | | |
| 2414.01 | Mikrobiologiya | **1** | | 1 | **1** |
| 2417.01 | Botanika | **1** | 1 | | |
| 2422.01 | Biotexnologiya (o cümlədən bionano-texnologiyalar) | **2** | 1 | 1 | **1** |
| 2426.01 | Ekologiya | **3** | 1 | 2 | **1** |
| 2504.01 | Geodeziya | **1** | | 1 | |
| 2507.01 | Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları | **1** | | 1 | |
| 2511.01 | Torpaqşünaslıq | **1** | 1 | | |
| 2512.01 | Ümumi və regional geologiya | **1** | | 1 | |
| 2515.01 | Petrologiya, vulkonologiya | **1** | | 1 | |
| 2520.01 | Bərk faydalı qazıntıların geologiyası, axtarışı və kəşfiyyatı, minerageniya | **1** | | 1 | |
| 2529.01 | Xəritəşünaslıq, geinformatika | **1** | | 1 | |
| 3138.01 | Aqrokimya | **2** | 1 | 1 | **1** |
| 3312.01 | Materiallar texnologiyası | **1** | | 1 | |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi | **1** | 1 | | |
| 3356.01 | Kitabxana-şünaslıq, biblioqrafiya-şünaslıq və kitabşünaslıq | **1** | | 1 | |
| 5101.01 | Mədəni antropologiya | **1** | | 1 | **1** |
| 5102.01 | Etnoqrafiya və etnologiya | **1** | 1 | | |
| 5301.01 | Daxili fiskal siyasət və dövlət maliyyəsi | **1** | | 1 | **1** |
| 5302.01 | Ekonometriya-iqtisadi statistika | **2** | 1 | 1 | **1** |
| 5303.01 | Mühasibat uçotu | **1** | | 1 | **1** |
| 5304.01 | İqtisadi fəaliyyət növləri | **1** | 1 | | **1** |
| 5306.01 | Texnoloji innovasiyalar iqtisadiyyatı | **1** | | 1 | **1** |
| 5308.01 | Ümumi iqtisadiyyat | **1** | | 1 | **1** |
| 5310.01 | Dünya iqtisadiyyatı | **1** | 1 | | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | **2** | 1 | 1 | **1** |
| 5312.01 | Sahə iqtisadiyyatı | **1** | | 1 | **1** |
| 5401.01 | İqtisadi coğrafiya | **1** | | 1 | |
| 5402.01 | Tarixi coğrafiya, siyasi və rekreasiya coğrafiyası | **1** | 1 | | |
| 5406.01 | Hidrologiya | **1** | | 1 | |
| 5407.01 | Okeanologiya | **1** | 1 | | |
| 5408.01 | Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası | **1** | 1 | | |
| 5409.01 | Geomorfologiya | **1** | | 1 | |
| 5411.01 | Meteorologiya | **1** | 1 | | |
| 5502.01 | Ümumi tarix | **1** | 1 | | **1** |
| 5503.01 | Ölkələr tarixi | **1** | | 1 | **1** |
| 5503.02 | Vətən tarixi | **2** | 1 | 1 | **1** |
| 5507.01 | Beynəlxalq münasibətlər tarixi | **2** | 1 | 1 | **1** |
| 5508.01 | Tarixi coğrafiya | **1** | 1 | | **1** |
| 5509.01 | Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları | **1** | 1 | | **1** |
| 5603.01 | Beynəlxalq hüquq; insan hüquqları | **3** | 1 | 2 | |
| 5606.01 | Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi | **1** | | 1 | |
| 5607.01 | Konstitusiya hüququ; bələdiyyə hüququ | **1** | | 1 | |
| 5608.01 | Mülki hüquq: sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq | **4** | 2 | 2 | |
| 5609.01 | Əmək hüququ, sosial təminat hüququ | **4** | 1 | 3 (NDU üçün 1 məqsədli yer) | |
| 5610.01 | Təbii ehtiyatlar hüququ; aqrar hüquq; ekologiya hüququ | **2** | 1 | 1 | |
| 5611.01 | Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ | **2** | 1 | 1 | **1** |
| 5612.01 | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti | **2** | 1 | 1 | **1** |
| 5614.01 | İnzibati hüquq; maliyyə hüququ; informasiya hüququ | **4** | 1 | 3 | |
| 5615.01 | Mülki proses | **2** | 1 | 1 | |
| 5704.01 | Dil nəzəriyyəsi | **1** | 1 | | |
| 5706.01 | Azərbaycan dili | **1** | | 1 | |
| 5710.01 | Türk dilləri | **1** | | 1 | |
| 5713.01 | Sami dilləri | **1** | | 1 | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli tipoloji dilçilik | **1** | 1 | | **1** |
| 5715.01 | Ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid və təhlil | **1** | | 1 | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | **1** | 1 | | |
| 5717.01 | Türk xalqları ədəbiyyatı | **1** | | 1 | |
| 5718.01 | Dünya ədəbiyyatı (fars, ingilis) | **1** | | 1 | |
| 5719.01 | Folklorşünaslıq | **1** | | 1 | |
| 5720.01 | Jurnalistika | **2** | | 2 | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | **1** | | 1 | **1** |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | **1** | 1 | | **1** |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | **1** | | 1 | **1** |
| 5805.01 | Korreksiya pedaqogikası | **1** | 1 | | |
| 5901.01 | Beynəlxalq münasibətlər | **5** | 2 | 3 (BMU üçün 1 məqsədli yer) | **1** |
| 5904.01 | Siyasi institutlar və sistemlər | **2** | 1 | 1 | **1** |
| 5908.01 | Siyasi nəzəriyyə | **1** | 1 | | **1** |
| 6104.01 | Pedaqoji psixologiya | **1** | | 1 | **1** |
| 6105.01 | Psixologiyada qiymətləndirmə və ölçmə | | | | **1** |
| 6107.01 | Ümumi psixologiya | | | | **1** |
| 6108.01 | Geriatrik psixologiya | **1** | 1 | | **1** |
| 6111.01 | Şəxsiyyətin psixologiyası | **1** | 1 | | |
| 6114.01 | Sosial psixologiya | **1** | | 1 | **1** |
| 6116.01 | Klinik (tibbi) psixologiya | | | | **1** |
| 6310.01 | Sosial problemlər | **1** | 1 | | |
| 6312.01 | Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi | **1** | | 1 | |
| 6313.01 | Sosial struktur, sosial institutlar və proseslər | **1** | | 1 | |
| 6314.01 | Sosial iş | **2** | 1 | 1 | |
| 7210.01 | Fəlsəfə tarixi | **1** | | 1 | |
| | **Cəmi** | **134** | **53** | **81** | **39** |

***Qeyd***: *–Dissertant hazırlığı üzrə adambaşına maliyyələşmə nəzərdə tutulmadığı üçün dissertanturada hazırlıq ali təhsil müəssisələrinin öz əməkdaşları üçün həmin müəssisənin hesabına, digər şəxslər üçün isə ödənişli olacaq.

### ELMLƏR DOKTORU PROQRAMI ÜZRƏ

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Elmlər doktoru proqramı üzrə: Doktorantura – Cəmi | Doktorantura – Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: əyani | qiyabi | Dissertantura – Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1203.01 | Kompüter elmləri | 1 | | 1 | |
| 1206.01 | Ədədi analiz | 1 | | 1 | |
| 1211.01 | Diferensial tənliklər | 1 | | 1 | |
| 1214.01 | Dinamik sistemlər və optimal idarəetmə | 1 | | 1 | |
| 2206.01 | Molekulyar fizika | | | | 1 |
| 2211.01 | Bərk cismlər fizikası | | | | 1 |
| 2220.01 | Yarımkeçiricilər fizikası | 1 | | 1 | |
| 2222.01 | Nanoquruluşların fizikası və texno-logiyası | 1 | 1 | | |
| 2303.01 | Qeyri-üzvi kimya | 1 | | 1 | |
| 2317.01 | Nanokimya və nanomateriallar | 1 | | 1 | |
| 2414.01 | Mikrobiologiya | | | | 1 |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi | 1 | | 1 | |
| 5402.01 | Tarixi coğrafiya, siyasi və rekreasiya coğrafiyası | | | | 1 |
| 5603.01 | Beynəlxalq hüquq; insan hüquqları | 1 | | 1 | 1 |
| 5609.01 | Əmək hüququ, sosial təminat hüququ | 1 | | 1 | 1 |
| 5611.01 | Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ | | | | 1 |
| 5612.01 | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti | 1 | | 1 | |
| 5615.01 | Mülki proses | 1 | 1 | | 1 |
| 5710.01 | Türk dilləri | 1 | | 1 | 1 |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | |
| 5720.01 | Jurnalistika | 2 | | 2 (NDU üçün 1 məqsədli yer) | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | 1 | | 1 | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | | 1 | 1 |
| 6105.01 | Psixologiyada qiymətləndirmə və ölçmə | 1 | | 1 | |
| 7210.01 | Fəlsəfə tarixi | 1 | | 1 | 1 |
| 7214.01 | Dinin tarixi və fəlsəfəsi | | | | 1 |
| | **Cəmi** | **21** | **2** | **19** | **12** |

Doktoranturaya (dissertanturaya) sənədlərin qəbulu 2024-cü il aprelin 16-dan mayın 15-dək "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytında qeydiyyatdan keçməli, elmi rəhbərin rəyi və digər tələb olunan sənədlər imtahanlara buraxılma haqqında qərarın qəbul edilməsi üçün doktoranturaya qəbul komissiyasına (doktorantura şöbəsinə) 2024-cü il mayın 15-dək təqdim edilməlidir.

Qəbul qaydaları haqqında ətraflı məlumatı Bakı Dövlət Universitetinn Doktorantura şöbəsindən və rəsmi internet səhifəsindən (*www.bsu.edu.az, http://md.bsu.edu.az*) əldə etmək olar. Telefon: +99412 539-64-58.



# Odlar Yurdu Universiteti

## 2024-cü il üçün doktoranturaya və dissertanturaya qəbul elan edir

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə: Doktoranturaya qəbul planı – Dövlət sifarişli və ödənişli əsaslarla: əyani | qiyabi | Dissertanturaya qəbul planı |
|---|---|---|---|---|
| 2406.02 | Biokimya | 1 | - | |
| 3339.01 | İnformasiyanən mühafizəsi üsulları və sistemləri. İnformasiya təhlükəsizliyi | 1 | - | |
| 5310.01 | Dünya iqtisadiyyatı | | 1 | |
| 5312.01 | Sahə iqtisadiyyatı | | 1 | |
| 5704.01 | Dil nəzəriyyəsi | 1 | - | |
| 6104.01 | Pedaqoji psixologiya | 1 | - | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | - | |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi | - | - | 1 |
| 5308.01 | Ümumi iqtisadiyyat | - | - | 1 |

**Sənədlərin qəbulu 2024-cü il aprelin 16-dan mayın 15-dək portal.edu.az saytında olacaqdır.**

**Əlaqə telefonu- (+994 ) 50-378-86-30. (+994) 55-838-63-60.**

**Ünvan- Bakı, Koroğlu Rəhimov küçəsi 13, 402-ci otaq.**


# Qeyri-neft sektorunda 7,8 faiz artım

**Bu il yanvar-mart aylarında neft-qaz sektorunda məhsul istehsalı 0,2 faiz azalıb, sənayenin qeyri-neft-qaz sektorunda isə 7,8 faiz artıb.**



Dövlət Statistika Komitəsindən verilən məlumatda daha sonra bildirilir ki, sənaye məhsulunun 64,5 faizi mədənçıxarma, 29 faizi emal, 5,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 75 (30479) 16 aprel 2024-cü il, çərşənbə axşamı

# Xilaskar antibiotik – Fleminqin bəşəri kəşfi

**Bu yazı dünya tarixində milyonlarla insanı ölümcül xəstəliklərdən xilas edən, tibb elmində inqilabi dönüş yaradan Nobel ödüllü isveçli alim Aleksandr Fleminq haqqındadır.**

Məlumdur ki, son əsrə qədər insanlar sətəlcəm, malyariya, lap elə adicə soyuqlama kimi xəstəliklərdən ölürdülər. Ölümcül epidemiyalar insan orqanizmini müxtəlif infeksiya və xəstəliklərdən qoruyan dərmanlar, eləcə də vaksinlər icad olunana qədər davam edirdi.

### Nağılvari tanışlıq

1900-cü ilin yayında aristokrat bir ingilis lordu Rendolf Çörçil öz ailəsi ilə birlikdə İsveç əyalətlərinin birinə istirahətə yollanır. Ailənin yeniyetmə oğlu valideynlərindən müvəqqəti aralanaraq təbiət qoynunda gəzintiyə çıxır. Gəzinti zamanı o, gözlənilmədən bataqlığa düşür. Xilas olmaq üçün əl-qol atan gənc baxır ki, tərpəndikcə daha da dərinliyə gedir. O, qorxu içində qışqıraraq yaxınlıqdakı adamları köməyə çağırır. Oğlanın imdad harayını yaxınlıqdakı tarlada işləyən kişilər eşidir. Kəndlilərdən biri dərhal səs gələn tərəfə yüyürür. Haraya yüyürən kişinin yanındakı yeniyetmə oğlu da atası ilə birlikdə səs gələn tərəfə qaçır. Bataqlıqda batan gənci görən kəndli kişi onu sakitləşdirərək dərhal qayıdıb atını hadisə yerinə sürür. Onlar uzun kəndirin bir ucunu batan oğlana atırlar. Oğlan kəndirin bir ucunu öz belinə bağlayır. Kəndirin o biri ucunu isə ata bağlayaraq dartıb onu bataqlıqdan xilas edirlər.

Boğulan oğlanın atası xilaskar kəndliyə öz təşəkkürünü bildirir və onları düşərgə saldıqları yerə, şam yeməyinə dəvət edir. Söhbət zamanı ingilis lordu xilaskar kəndlidən ən böyük arzusunun nədən ibarət olduğunu soruşur. Kəndli kişi xilas etdiyi uşağın atasının imkanlı şəxs olduğunu anladığına görə ona belə bir cavab verir: "Ser, gördüyünüz kimi mən sadə bir əkinçiyəm. Oğlumun da əkinçi olub mənim kimi ömür boyu torpaqda eşələnməyini istəmirəm. Həyatda ən böyük istəyim odur ki, oğlum təhsil alıb həkim olmaq arzusuna çatsın. Təəssüflər olsun ki, gördüyünüz kimi, onu oxutmaq üçün mənim pulum, imkanım yoxdur".

Kəndlinin söhbətindən təsirlənən ingilis zadəganı övladının xilaskarı olan bu zəhmətkeş kəndliyə söz verir ki, onun oğlunu ən yaxşı ali tibb təhsili müəssisəsində oxudacaq və bütün maddi ehtiyaclarını şəxsən özü ödəyəcək.

İngilis senyor verdiyi sözü tutur. Onun dəstəyi ilə kəndlinin oğlu ali təhsil alıb həkim olur.

Aradan uzun illər keçir.

### İkinci nəfəs

1943-cü ilin dekabr ayında Tunisdə rəsmi səfərdə olan İngiltərənin baş naziri Uinston Çörçil orada xəstələnir. Həkimlər ona ölümcül sətəlcəm diaqnozu qoyurlar. Bu yerdə mütləq qeyd etməliyik ki, həmin vaxtlarda sətəlcəmə tutulanların demək olar, 90 faizi öz həyatı ilə vidalaşırdı. Təsadüfən həmin ərəfədə bir isveçli həkimin ölümcül xəstəliklərə qarşı möcüzəvi dərman kəşf etməsi barədə xəbərlər yayılırdı. Həmin dərmanın sətəlcəmi də müalicə etdiyi deyilirdi. Bu söz-söhbət xəstə yatağında olan Çörçilə də çatır. Çörçil haqqında çox danışılan naməlum həkimlə görüşmək istədiyini bildirir.



Beləliklə, xəstənin marağından doğan tarixi bir görüş baş verir. İllər əvvəl bataqlıqda batan gənc oğlan – Uinston Çörçil və onu ölümdən qurtaran kəndlinin həmin oğlu – Aleksandr Fleninq ikinci dəfə görüşürlər.

Aleksandr Fleminqin hazırladığı möcüzəvi antibiotik – pensillin baş naziri ölümdən xilas edir.

Beləliklə, Fleminq öz keçmiş dostunu ikinci dəfə həyata qaytarır.

Lakin bəzi mənbələr bu hadisələrin həyatda olmamasını, onu "Yaxşılığın gücü" adlı ruhani evinin pritça kimi uydurduğunu da yazırlar.

### Fleminq möcüzəsi

Aleksandr Fleminq 1881-ci ildə İsveçin Lokfeld əyalətində dünyaya gəlib.



Aleksandr hələ uşaqlıqdan bitkiləri, xüsusilə göbələkləri müşahidə etməyi, onlar üzərində təcrübələr aparmağı xoşlayırdı. Oğlunun təbiətə sonsuz marağını görən ata Fleminq, məhz, bu xüsusiyyətlərinə görə onun yaxşı botanik, yaxud həkim ola biləcəyinə inanırdı.

Nəql olunduğu kimi, gənc Çörçili xilas etməsi atanın və oğlunun həyatını büsbütün dəyişir. Varlı ingilis zadəganın maddi dəstəyi ilə gənc Fleminq ali tibb təhsilinə yiyələndikdən sonra ixtisası üzrə çalışmağa başlayır. O, 1924-1948-ci illərdə həkim kimi çalışdığı London "Meri Hospital"da xüsusilə kif göbələkləri bakteriyalarının tədqiqi ilə məşğul olur.

Göbələk bakteriyaları üzərində apardığı müşahidələr nəticəsində Fleminq onların xəstəlik törədən mikrobları öldürdüyü qənaətinə gəlir. Doktor Fleminq Horvard Florey və Ernst Çeynlə birlikdə kif göbələyindən hazırladığı antiseptik maddəni Oksford universitetində təqdim edir. Beləliklə, penisillinin istehsalı ilk olaraq ABŞ-da başlayır.

Sətəlcəm, malyariya və insan həyatı üçün təhlükəli olan digər yoluxucu xəstəliklərin müalicəsində inanılmaz effekt verən pensillin antibiotiki milyonlarla insanın həyatını xilas edir.

Aleksandr Fleminq həmkarları Florey və Çeynlə birlikdə bəşəriyyətin xilasında böyük rol oynamış bu kəşfə görə 1945-ci ildə Tibb üzrə Nobel mükafatına layiq görülür. Xilaskar doktor, dahi insan Aleksandr Fleminq 11 mart 1955-ci ildə ürək tutmasından vəfat edib.

**Murad KÖHNƏQALA**

# Zülal sintezi – təbabətdə inqilab

**Texnologiya İnstitutunun mütəxəssisləri tərəfindən hazırlanmış yeni kompüterləşdirilmiş metod istənilən funksiyaları olan zülalların yaradılması sahəsində mühüm irəliləyişi ortaya qoyur.**



Təbii zülalın təsadüfi mutasiyalarına əsaslanan ənənəvi yanaşma əvəzinə, bu üsul məhdud miqdarda eksperimental məlumat əsasında effektiv mutasiyaları proqnozlaşdırmaq üçün konvolyusiya neyron şəbəkələrinə əsaslanan kompüter modelindən istifadə edir. Bu metoddan istifadə edərək tədqiqatçılar orijinal zülaldan yeddi amin turşusu əvəzetməsi ilə optimallaşdırılmış yaşıl flüoresan zülal zəncirlərini proqnozlaşdıra biliblər.

Ən yaxşı proqnozlaşdırılan versiyalar orijinal zülaldan əhəmiyyətli dərəcədə daha funksional olub və onun effektivliyini 2,5 dəfə artırıb.

Bu müvəffəqiyyət gen terapiyası və otoimmün xəstəliklərin müalicəsi də daxil olmaqla müxtəlif tibb sahələrində potensial tətbiqlərə malikdir. Optimallaşdırılmış funksiyaları olan zülalların layihələndirilməsi dərmanların, diaqnostik vasitələrin və digər biotibbi texnologiyaların effektivliyini artıra bilər.

**Anar ƏLİ**
**XQ**

# 6-cı kütləvi məhvolmaya doğru...

**Alimlər Yer kürəsinin mövcudluğundan bəri planetimizdəki canlı orqanizmlərin ən azı dörddə üçünün öldüyü 5 böyük kütləvi məhvolma hadisəsini sənədləşdirməyi bacarıblar.**

İndi Yer kürəsi ağır dövrlərdən keçir: o, həddindən artıq əhalidən, qlobal istiləşmədən və həm torpaqda, həm də okeanlarda parçalanmayan tullantılardan əziyyət çəkir. Doğrudanmı, biz 6-cı kütləvi məhvolmanın astanasındayıq?



Havay Universitetinin tədqiqatçı professoru Robert Koui əmin edir ki, canlı orqanizm növlərinin 75 faizi yox olana qədər kütləvi məhvolmadan danışmaq olmaz. Belə ki, 2022-ci ildə aparılan araşdırmaya görə, 1500-cü ildən bəri məlum canlı orqanizmlərin ümumi sayının yalnız 13 faizinin kökü kəsilb. Buna görə də kütləvi məhvolmadan danışmaq hələ tezdir.

Bəzi tədqiqatçılar təmin edirlər ki, 75 faizlik hədd 10 min il ərzində baş verəcək. Digər mütəxəssislər isə ekoloji vəziyyət pisləşməyə davam edərsə, bu dəhşətli mərhələyə cəmi bir neçə əsr ərzində çata biləcəyimizü düşünürlər.

Londondakı Təbiət Tarixi Muzeyinin məlumatına görə, kütləvi məhvolma 2,8 milyon ildən az olan qısa geoloji müddət ərzində baş verir. Bu məlumatları nəzərə alsaq, məlum olur ki, proses artıq başlayıb və bu, bizim əsrin payına düşür. Tədqiqatlar göstərib ki, indi növlər min dəfə sürətlə ölür.

**XQ**

# Qaxda kuklaların "Güllü və Güloğlan" oyunu

**Bu günlərdə Qax Dövlət Kukla Teatrında 2024-cü ilin repertuar planına daxil edilən E.Çernyak və E.Gilodinin "Güllü və Güloğlan" əsəri əsasında səhnələşdirilən eyniadlı tamaşa üzərində məşqlər başa çatıb və tamaşaya ictimai baxış keçirilib.**



Qeyd edək ki, teatrın baş rejissoru, Əməkdar artist Yusif Abdurahmanovun quruluş verdiyi tamaşada rolları Aynurə Abbasova, İlmar Abdullayev, Azər Kərimov, Araz Mehrablı, Fidan Mahmudzadə və Elnurə Əliyeva ifa edirlər. Tamaşanın rəssamı Fidan Səbirli, musiqi tərtibatçısı Nicat Fətəliyevdir.

Yaradıcı kollektiv yeni tamaşa ilə teatrın özü ilə yanaşı, rayonun kəndlərində də uşaqlar qarşısında çıxış etməyi planlaşdırır. Uzuntala kəndinin uşaqları artıq yeni tamaşanı izləmək imkanı əldə ediblər.

Hazırda teatrda, eyni zamanda, builki repertuar plana daxil edilən digər tamaşa - Vüqar Haqverdiyevin "Qarınqulu ayı balası" əsəri üzərində məşqlərə də başlanılıb. Bu səhnə əsəri isə iyunda uşaqlara təqdim ediləcək.

***AYTƏN***
***XQ***

SAĞLAMLIQ

# Artrit, yoxsa artroz?



**Çox insanlar, hətta həkimlər belə oynaq xəstəliklərindən olan artrozla artriti fərqləndirməkdə çətinlik çəkirlər. Rusiyalı travmatoloq Sergey Korolev bu 2 dayaq-hərəkət xəstəliyinin fərqlərini izah edib.**

Bildirib ki, artritdə oynaq və kapsul toxumasında iltihablaşma olur. Artrozda isə bu toxumaların strukturunda müəyyən dəyişikliklər yaranır. Artrit daha çox qadınlarda rast gəlinir, oynaq ətrafı şişkinlik, ağrı olur. Həkim deyib ki, xəstəliyin bir neçə növü var: yuvenil, revmatoid və reaktiv artrit. Artrit xəstəliyini sidik sistemi infeksiyaları, sümük problemi, zərərli vərdişlər, bədəndə iltihab, irsi xəstəliklər, artıq çəki yarada bilər. Xəstə əvvəlcə ağrı hiss edir, sonra qızarma, şişkinlik yaranır. Bu proseslər qızdırma, əhvalın pisləşməsi, ümumi ağrılarla müşayiət olunur və gəzən zaman, hər hansı bir iş görəndə çətinlik yaradır.

Artroz isə hər kəsdə müşahidə edilə bilər. Artritdən fərqli olaraq, artrozda oynaqda qığırdaqlarda və kapsul örtüyündə yeyilmə, dağılma kimi mexaniki dəyişikliklər baş verir. Xəstəlik vaxtında, ağrıların ilk hiss edildiyi zamanda müalicə olunmadıqda, proses irəliləyib qığırdağı dağıdır və bədənin hərəkətsizliyinə səbəb olur.

Bu xəstəliklərin hər ikisini operativ olaraq, 1-ci, ən geci, 2-ci mərhələdə müalicə etmək və immuniteti möhkəmlətmək lazımdır.

***Z.HÜSEYNLİ***
***XQ***

# Yağmursuz, lakin dumanlı...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 16-da Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Mülayim cənub küləyi əsəcək. Gecə 8-13°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu, nisbi rütubət gecə 70-75 , gündüz 50-55 faiz olacaq.**

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq.

Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 22-27° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-12° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# İdmançılar üçün "uçan" ayaqqabı




**Süni intellekt mürəkkəb problemləri həll etməklə yanaşı, idmançıları da düşünür.**

Belə ki, Parisdə Yay Olimpiya Oyunlarına hazırlıq çərçivəsində inklüziv idman ayaqqabıları ictimaiyyətə təqdim olunub. Neyroşəbəkənin yaratdığı ayaqqabılar "Air" (Hava) adlanır. İdmançılara basketbol meydançası və ya qaçış yolu üzərində, sözün əsl mənasında "uçmağa" imkan verir.

Bu ayaqqabı növünü yaratmağa başlamazdan əvvəl süni intellekt məşhur idmançıların idman ayaqqabılarını necə rahat düzəldilməsi barədə arzularını öyrənib. Hesab olunur ki, idmançılar üçün istehsal olunan ayaqqabılar təkcə dizaynı ilə deyil, həm də rahatlığı və çoxyönlü olması ilə seçilməlidir.

***S.FİDAN***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədova qardaşı

**KAMİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3880
SİFARİŞ 822
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00